

# Azərbaycan Prezidenti İlham Əliyevin COP29 tribunasından növbəti mesajı

**Əfsuslar olsun ki, ikili standartlar, digər ölkələrə dərslər vermək adəti və siyasi riyakarlıq bəzi Qərb ölkələrindəki bir sıra siyasətçilər, dövlət nəzarətində olan QHT-lər, yalan xəbər mediası üçün fəaliyyət metoduna çevrilib.**

**Mənim sonuncu mesajım, təxminən bir ildir ki, boykotu təşviq edən dairələrədir. Onlar əllərində olan bütün alətlərdən istifadə etdilər ki, Bakıda COP29-u boykot kampaniyası başlansın. Onlara pis xəbər var: bizim 196 ölkədən gəlmiş və qeydiyyatdan keçmiş 72 min iştirakçımız var. Onların sırasında 80 prezident, vitse-prezident və Baş nazirlər var. Beləliklə, dünya Bakıya toplaşıb və biz bütün dünyaya deyirik: Azərbaycana xoş gəlmisiniz!**




## BTQ-nin Fransa müstəmləkələri ilə bağlı etiraz aksiyası



Səhifə ⇨ 9

Xalqın qəzeti!
# Xalq qəzeti
№ 249 (30653) 13 noyabr 2024-cü il, çərşənbə
Gündəlik ictimai-siyasi qəzet
1919-cu ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Dünya Azərbaycan paytaxtından yaşıl qətiyyət gözləyir




Səhifə ⇨ 2

## COP29 Ermənistan üçün fürsət ola bilərdi

*Görünür, sülh mühiti və iqlim problemlərinin həlli düşmənçilik "əzmi" qarşısında acizdir*



**"Təəssüflə qeyd edirik ki, hələ də Ermənistanın nümayəndə heyəti COP29-da iştirakla bağlı cavab verməyib". Bunu APA-nın sualına cavabında Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib. Cənab Hacıyev bildirib ki, ölkəmiz bütün tərəflərə dəvət göndərib: "Burada 198 tərəf iştirak edir. Azərbaycan tərəfi Konvensiyanın üzvü olan bütün tərəflər üçün şərait yaradıb. Ermənistan tərəfi qeydiyyatdan keçirilsə də, hələ də nümayəndələrinin iştirakı barədə məlumat daxil olmayıb".**

Əlbəttə, COP29 məsələsində bütün təsir rıçaqlarını işə salaraq beynəlxalq miqyasda Azərbaycana qarşı təbliğat aparan Ermənistanın dünyanın ən nüfuzlu tədbirində iştirak etməyəcəyi əvvəlcədən də bəlli idi. Yəni ilk baxışdan da belə təsəvvür var idi ki, ölkəmiz əleyhinə hədyanları tirajlayan ölkənin təmsilçilərinin Bakıya gəlməsi mümkünsüzdür. Ancaq bununla bağlı gözləntinin olduğunu vurğulamalıyıq. Elə Azərbaycan cəmiyyətində də məsələ ilə bağlı müəyyən müzakirələr gedirdi. Rəsmi İrəvan həm dünyanın, həm də ölkəmizin gözləntilərini heçə endirdi. Deməli, ölkənin rəsmilərinin Azərbaycanla sülh barədə bildirdikləri mənasızdır. Hər halda, COP29 bilavasitə barış gündəliyinin diskussiya predmetinə çevriləcəyi müstəvi olmasa da, erməni nümayəndə heyətinin tədbirdə iştirakı xoş niyyət göstəricisi kimi qiymətləndirilə bilərdi.

Bəli, Ermənistanın COP29-da iştirak etməməsi onun, necə deyərlər, köhnə dəftəri qapatmaq istəmədiyinə işarədir. Köhnə dəftərə gəlincə, hesab edirik ki, bu mənada Prezident İlham Əliyevin 8 Noyabr – Zəfər Günü münasibətilə bağlı xalqa müraciətindəki bir məqamın üzərində xüsusi dayanmağa ehtiyac var. Zəfərimizin təkcə Ermənistanın deyil, onun arxasında duranların acı və alçaldıcı məğlubiyyəti olduğunu dilə gətirən Prezident İlham Əlyev həmin qüvvələrin qələbəmizə görə bizi bağışlaya bilmədiklərini açıqladı: "Ona görə Qərbdə Azərbaycana qarşı geniş, çirkin kampaniya aparılır. Ölkəmizi gözdən salmaq, olmazın iftiralarını uydurmaq, öz əlinin altındakı saxta xəbər mənbəyi olan media resurslarından, qeyri-hökumət təşkilatlarından istifadə edərək Azərbaycanı qaralamaq, şantaj etmək, ləkələmək, təhqir etmək, bax, o, özünü alçaldılmış sayan Qərb dövlətlərinin və uğursuz Qərb liderlərinin məqsədidir və onların çirkin üsuludur. Azərbaycan xalqı bunu bilir və Ermənistan xalqı da bunu bilməlidir, kimdir onların əsas düşməni?"

Bəli, Azərbaycan 44 günlük müharibə və lokal xarakterli antiterror tədbirləri ilə 200 illik erməni planını pozdu. Birmənalı şəkildə deyə bilərik ki, bu plan Qərbin və rus imperializminin müştərək məhsulu idi. Məqsəd Türk dünyasını parçalamağa yönəlmişdi və istəklərinə nail oldular da. Ermənilər prosesdə həlledici rol oynadılar. Daha doğrusu, erməni millətçilərinin türk düşmənçiliyi fonunda uydurduqları obraz öz mənfur missiyasını yerinə yetirdi. Bu obraz və onun daşıyıcıları yüz minlərlə dinc müsəlman türkünün həyatına son qoydu.

*(ardı 11-ci səhifədə)*




# Qalib gələcəkdir cahanda kamal!

*COP29-a gedən yolda "Türk ailəsi" üzvlərinin dəstəyi danılmazdır*

**Noyabrın 12-də Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Liderlər Sammitinin açılış mərasimini televiziya ilə izləyəndə xəyal məni çox uzaqlara apardı. Qeyri-ixtiyari olaraq ustad şairimiz Səməd Vurğunun 55–60 il əvvəl böyük həyəcan və narahatlıqla qələmə aldığı "Qalib gələcəkmi cahanda kamal?" sualına cavab vermək istədim: Bəli, ustad, cahanda kamal qalib gəlir.**

Paytaxtımızdan bir andaca dünyanın hər yerinə yayılan bu möhtəşəm beynəlxalq tədbirin məhz rəsmi Bakının istədiyi şəkildə baş tutması Azərbaycan liderinin planetar qələbəsidir. Bu prosesdə qalib gələn ali idrak, mütərəqqi təfəkkür və misilsiz kamal oldu.

*(ardı 11-ci səhifədə)*

## İqlim maliyyəsi: Böyüklərin xəsisliyi, kiçiklərin geniş ürəyi

Səhifə ⇨ 9

COP29 Baku Azerbaijan
COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024
COP29 Baku Azerbaijan

COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024

# Dünya Azərbaycan paytaxtından yaşıl qətiyyət gözləyir

## Bakıda COP29-un Liderlər Sammitinin açılış mərasimi

**Noyabrın 12-də Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Liderlər Sammitinin açılış mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və BMT-nin Baş katibi Antonio Quterreş Sammitdə iştirak edən dövlət və hökumət başçılarını, nümayəndə heyətlərinin rəhbərlərini qarşıladılar. Qarşılanma mərasimindən sonra birgə foto çəkdirildi. Azərbaycan Prezidenti İlham Əliyev Liderlər Sammitinin açılış mərasimində çıxış etdi.**




### Prezident İlham Əliyevin çıxışı

– Hörmətli BMT-nin Baş katibi.

Hörmətli dövlət və hökumət başçıları.

Xanımlar və cənablar.

Mən sizin hamınızı Azərbaycanda salamlayıram.

Qonaqlarımızın çoxu Azərbaycana ilk dəfədir ki, səfər edir. Ümid edirəm ki, onların ölkəmizlə daha yaxından tanış olmaq, onun tarixini, ənənələrini və mədəniyyətini öyrənmək imkanı olacaqdır.

Mən COP29-a aparan yolda Azərbaycana verdiyi dəstəyə görə BMT-nin Baş katibi cənab Antonio Quterreşə və BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Katibliyinə təşəkkürümü bildirmək istərdim. Mən Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti, əziz qardaşım Əlahəzrət Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanı və onun bütün komandasını Dubayda COP28-də əldə olunmuş tarixi konsensus münasibətilə təbrik edirəm və Bakıda COP29 üçün hazırlıqlarda verdikləri dəstəyə görə minnətdaram.

Ötən ilin dekabrında təxminən 200 ölkənin yekdil qərarı ilə Azərbaycana COP29-a ev sahibliyi etmək şərəfi verildi. Biz bu qərarı ölkəmizə olan hörmətin əlaməti, beynəlxalq arenada oynadığımız fəal rolun dəyərləndirilməsi kimi görürük.

Azərbaycan Şimal ilə Cənub, Qərb ilə Şərqin qovuşduğu ölkədir və bu, təkcə coğrafiya ilə bağlı deyil. Biz müxtəlif beynəlxalq iştirakçılar arasında siyasi, mədəni, enerji, ticari və nəqliyyat körpülərini sala bilərik. Azərbaycanın başladığı meqalayihələr artıq Avrasiyanın enerji və daşımalar yollarını dəyişib və məhsuldar, çoxtərəfli əməkdaşlıq formatının qurulması ilə nəticələnib.

Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizinin Ermənistan tərəfindən 30 illik işğalına, etnik təmizləməyə və bir milyon azərbaycanlının öz doğma torpaqlarından qovulmasına baxmayaraq, biz özünü təmin edən iqtisadiyyata və müstəqil siyasətə malik güclü ölkəni qura bildik. Dörd il öncə biz İkinci Qarabağ müharibəsində tarixi Qələbəni qeyd etdik.

Bir il əvvəl biz BMT-nin Nizamnaməsinə, beynəlxalq hüquqa və BMT-nin Təhlükəsizlik Şurasının 30 il kağız üzərində qalmış qətnamələrinə uyğun olaraq, suverenliyimizi tam bərpa etdik. Biz həmin qətnamələri özümüz icra etdik, beynəlxalq hüququ, ədaləti bərpa etdik və Ermənistanın işğalına son qoyduq. COP29-un sədri kimi Azərbaycan inkişaf etmiş və inkişaf edən ölkələr, Qlobal Cənub və Qlobal Şimal arasında ümumi anlaşmaya nail olmaq üçün əlindən gələni edəcək. Azərbaycan 120 ölkənin yekdil qərarı ilə dörd il ərzində, BMT-dən sonra ikinci beynəlxalq qurum olan Qoşulmama Hərəkatına uğurla sədrlik etdi.

Azərbaycan, həmçinin təxminən 60 ölkəni birləşdirən İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüdür. Avropa İttifaqının 10 üzvü ilə Azərbaycan sazişlər imzalayıb və Strateji tərəfdaşlıq haqqında bəyannamələr qəbul edib. Bütün bunlar bizə düşünməyə imkan verir ki, biz iqlim dəyişmələri məsələsində fərqli mühüm iştirakçılar arasında körpülərin salınmasında çox faydalı və yardımçı ola bilərik. Azərbaycan çoxtərəfliliyin tərəfdarıdır. Eyni zamanda, biz mədəniyyətlərarası dialoqda fəal rol oynayırıq.

BMT-nin Sivilizasiyalar Alyansı ilə birlikdə biz iki ildən bir Bakıda Mədəniyyətlərarası Forum təşkil edirik. Multikulturalizm bizim dövlət siyasətimizdir və həyat tərzimizdir. Azərbaycan xalqı etnik və dini mənsubiyyətindən asılı olmayaraq sülh və razılıq şəraitində bir ailə kimi yaşayır.

İndi isə mən Azərbaycanın Yaşıl gündəliyi haqqında bir neçə söz söyləmək istərdim. Bərpaolunan enerjidə texniki potensialımız quruda 135 giqavat və dənizdə isə 157 giqavat təşkil edir. Ötən il BƏƏ-nin Masdar şirkəti bir regionumuzda 230 meqavatlıq Günəş enerji stansiyasının açılışını etdi. Səudiyyə Ərəbistanının "Acwa Power" şirkəti isə hazırda 240 meqavatlıq külək enerjisi stansiyasını tikir.

COP29 çərçivəsində Birləşmiş Krallığın bp şirkəti ilə 240 meqavatlıq Günəş enerjisi stansiyasının dörd il əvvəl erməni işğalından azad edilmiş Cəbrayıl rayonunda tikilməsi ilə bağlı saziş imzalanacaq. Bu layihə sayəsində dünyanın ən iri neft və qaz terminallarından biri olan Səngəçal terminalında dekarbonlaşma təmin ediləcəkdir.

Biz 2030-cu ilə qədər təxminən altı giqavatlıq Günəş, külək və hidroenerji stansiyalarının tikilməsini planlaşdırırıq. Lakin bu, tam planlarımızın hamısı deyil, 10 giqavatlıq bərpaolunan enerji layihələri üzrə müqavilələr və anlaşma memorandumları imzalanıb.

Biz, həmçinin ixrac bazarlarına diqqət yetiririk və Xəzər dənizindən başlayaraq Qara dənizin dibi ilə enerji kabelinin çəkilməsini nəzərdə tutan digər mühüm enerji təhlükəsizliyi layihəsinin həyata keçirilməsi üçün tərəfdaşlarımızla fəal çalışırıq.

Bu, bizə Avropaya yaşıl enerjini ixrac etmək imkanı verəcək və bu kabelin texniki potensialı dörd giqavatdır. Yeri gəlmişkən, texniki-əsaslandırma işləri bu yaxınlarda bitəcək. Lakin yenə də bu, yalnız başlanğıcdır.

Yaşıl gündəliyimiz, həmçinin Azərbaycanın müxtəlif bölgələrini əhatə edir. Beləliklə, Azərbaycanın Naxçıvan, Qarabağ və Şərqi Zəngəzur regionları yaşıl enerji zonaları elan edilib və bu, ərazimizin, demək olar ki, dörddəbir hissəsidir.

İndi isə mən enerji təhlükəsizliyinin digər seqmenti haqqında bir neçə söz söyləmək istərdim. Bu da neft və qazla bağlıdır. Anlayıram ki, bu mövzu iqlim dəyişmələrinə aid konfransda o qədər də populyar deyil. Lakin bunsuz mənim şərhlərim tam olmazdı. Sadəcə, bir informasiya ilə başlamaq istərdim. Dünyada sənaye üsulu ilə ilk neft quyusu Azərbaycanda, Bakıda 1846-cı ildə qazılıb. O, buradan uzaq yerdə yerləşmir və həmin yerə 10-15 dəqiqəlik yoldur. Dənizdə ilk neft quyusu da Azərbaycan neftçiləri tərəfindən Xəzər dənizində XX əsrin ortalarında qazılmışdır. XIX əsrdə qlobal neft hasilatının yarısı Azərbaycanın payına düşürdü.




Əgər o vaxt bəzi Qərb siyasətçiləri və media bizi neft dövləti adlandırsaydı, bu, bəlkə də anlaşılan olardı. Lakin əgər onlar indi, yəni bu gün də bizi neft dövləti adlandırırlarsa, bu, ədalətsizlikdir və yalnız siyasi mədəniyyət və biliklərin çatışmamasından xəbər verir. Bu gün Azərbaycan qlobal neft hasilatında 0,7 faiz, qlobal qaz hasilatında isə 0,9 faiz paya malikdir. Amma dünyada bir nömrəli neft və qaz hasilatçısı olan, Azərbaycandan 30 qat artıq neft hasil edən ölkənin yalan xəbər mediası bizi neft dövləti adlandırır.

Yaxşı olardı ki, ən azı onlar özlərinə və Azərbaycandan 10 dəfə artıq neft hasil edən özlərinin qonşuluğundakı ölkəyə baxsınlar. Azərbaycanın qlobal qaz atılmalarındakı payı cəmi 0,1 faizdir. Mən bu rəqəmləri auditoriyamızın diqqətinə çatdırmalıyam, çünki Azərbaycan COP29-a ev sahibi seçildikdən dərhal sonra biz əlaqələndirilmiş və yaxşıca təşkil olunmuş qarayaxma və böhtan kampaniyasının hədəfinə çevrildik.

Qərbin yalan xəbər mediası, dırnaqarası müstəqil QHT-ləri və bəzi siyasətçiləri sanki ölkəmiz haqqında dezinformasiya və səhv məlumatın yayılmasında yarışa çıxıblar. Neftimizin olmasında bizi ittiham etmək bir növ Bakıda il ərzində 250-dən artıq günəşli günün olmasında bizi suçlamağa bənzəyir.

Ölkələrə qiymət başqa meyarlara görə verilməlidir. Məsələn, Azərbaycanda işsizliyin səviyyəsi 5,4 faiz, yoxsulluğun səviyyəsi 5,2 faizdir. Yaşıl gündəliyimizə gəldikdə, mən planlarımızı artıq təsvir etdim. Ölkələr öz xarici borcunu necə idarə edirlər? Azərbaycanın xarici borcu ÜDM-in cəmi 7,5 faizini təşkil edir.

Beləliklə, ölkə göstəricilərinin qiymətləndirilməsində əsas götürülməli bu və bir çox digər mühüm meyar bunlardır, Tanrının bəxş etdiyi təbii sərvətlər meyar kimi götürülməli deyil. Mən bir neçə ay bundan əvvəl söylədim: indi mənə hücum çəkmək istəyənlərin hamısı, – mən beynəlxalq medianı nəzərdə tuturam, – mənim yalnız Tanrının bəxş etdiyi hədiyyə sözlərimə iqtibas edirlər.

Bu gün isə mən bu auditoriyada, burada təkrar etmək istəyirəm: Bu, Tanrının bəxş etdiyi hədiyyədir. Hər bir təbii sərvət – istər neft, qaz, külək, günəş, qızıl, gümüş və mis – bunların hamısı təbii sərvətlərdir. Ölkələr onların olmasına görə günahlandırılmalı və bazarda onlara tələbatın olması səbəbindən onları bazara çıxardıqlarına görə suçlanmalı deyillər. İnsanlara onlar lazımdır. Bir sözlə, mesajım belədir. COP29-un sədri kimi, əlbəttə, biz yaşıl keçidin güclü carçısı olacağıq və bunu edirik, lakin, eyni zamanda, biz realist olmalıyıq.

Digər ittiham məsələsinə gəldikdə, iki il əvvəl Azərbaycan və Avropa Komissiyası enerji sahəsində strateji tərəfdaşlıq bəyannaməsinə imza atdılar. Lakin bu, bizim ideyamız deyildi. Bu, Avropa Komissiyasının təklifi idi. Avropa Komissiyasının sədri bu sənədi imzalamaq üçün iki il öncə Bakıya gəldi, çünki geosiyasi vəziyyətin dəyişməsi səbəbindən onlara bizim qaz lazım idi. Onlar bizdən yardım xahiş etdilər. Biz razılaşdıq. Əgər yardımımıza ehtiyac varsa, biz hər zaman kömək etməyə hazırıq. Dedik, yaxşı, biz enerji təhlükəsizliyində Avropaya kömək edəcəyik. İki il əvvəl həmin bəyannaməni imzalayanda qazımızı alan ölkələrin, yəni Avropa ölkələrinin sayı iki idi. İndi isə səkkiz ölkə alır.

Azərbaycan qazına çıxışı olan on ölkədən səkkizi Avropada yerləşir. Avropa Komissiyası, həmçinin bizdən xahiş edib ki, biz qaz təchizatını 2027-ci ilə qədər iki dəfə artıraq. Bu, Avropa Komissiyasının sədri və mənim tərəfimdən iki il öncə Bakıda imzalanmış bəyannamədə əks olunub. Əfsuslar olsun ki, ikili standartlar, digər ölkələrə dərslər vermək adəti və siyasi riyakarlıq bəzi Qərb ölkələrindəki bir sıra siyasətçilər, dövlət nəzarətində olan QHT-lər, yalan xəbər mediası üçün fəaliyyət metoduna çevrilib.

Mənim sonuncu mesajım təxminən bir ildir ki, boykotu təşviq edən dairələrədir. Onlar əllərində olan bütün alətlərdən istifadə etdilər ki, Bakıda COP29-u boykot kampaniyası başlansın. Onlara pis xəbər var: bizim 196 ölkədən gəlmiş və qeydiyyatdan keçmiş 72 min iştirakçımız var. Onların sırasında 80 prezident, vitse-prezident və Baş nazirlər var. Beləliklə, dünya Bakıya toplaşıb və biz bütün dünyaya deyirik: Azərbaycana xoş gəlmisiniz!

Sağ olun.

**Sonra BMT-nin Baş katibi Antonio Quterreş çıxış edərək dedi:**

– Cənab Prezident Əliyevə, COP sədri Muxtar Babayevə və eyni zamanda, Azərbaycan Hökumətinə qonaqpərvərliyə görə təşəkkürümü bildirirəm. Çox sağ olun.

Prezidentlər bizim əməkdaşlığa etibar edə bilərlər. Həqiqətən də sizin səyiniz nəticəsində uğurlu bir COP-a imza atacağıq. Hər kəsə bu COP-da ehtiyacımız vardır. Həqiqətən bir saata bənzəyən və bir toplam olaraq biz qlobal temperaturların 2,5-ə çatdırılmasına yaxınlaşırıq və vaxt bizim tərəfimizdə deyil. Bu, 2024-cü ilin əlavəsi və ən yüksək temperatur olaraq ən isti il olacaqdır, rekordları qıracaqdır. İqlim baxımından görürük ki, növbəti qasırğa çatmamış ailələr artıq evlərindən qaçırlar, biomüxtəliflik dağılır, insanlar, işçilər həqiqətən də isti bir dövrdə öz huşunu itirirlər. İnsanlar daşqınlardan, infrastrukturu dağıdan təbii fəlakətlərdən, quraqlıqdan əziyyət çəkirlər, bitkilər tələf olur.

Bütün bunlar və digər faciələr, eyni zamanda, faktiki olaraq insanların səbəb olduğu iqlim dəyişmələri ucbatından baş verir. Burada hər hansı bir ölkə istisna deyil. Bu şoklar bütün xərcləri artırır. Dağıdılmış evlər sığorta haqlarının artımına səbəb olur. Meşələr məhv edilir. Bütün bunlar, həqiqətən də bir növ qaçılmaz ədalətsizliyə səbəb olur, bunu varlılar yaradır, yoxsullar isə onun haqqını ödəyirlər. Biz görürük ki, karbonlar və emissiyalar ortalama olaraq aşağı düşməsə, adaptasiya tədbirləri tətbiq olunmasa, bütün iqtisadiyyatlar daha böyük ziyana uğrayacaq. Amma bu kontekstdə hələ də ümidimiz qalır. COP28-də siz hər biriniz öz üzərinizə karbohidrogen resurslarından yayınma və xalis sıfra yaxınlaşma öhdəliyi götürmüsünüz. İqlimə uyğunlaşma tədbirlərini təşviq etməyə və eyni zamanda, iqtisadi baxımdan iqlim dəyişmələri planları və milli təklifləri qəbul etməyə söz verdiniz. İndi isə bu sözə əməl etməyin vaxtı çatıb. Bəşəriyyət sizi dəstəkləyəcək. BMT-nin İnkişaf Proqramı və Oksford Universiteti göstərir ki, dünyada əhalinin 80 faizi planda nəzərdə tutulan tədbirləri təşviq etməyə hazırdır. Alimlər, gənclər - hər kəs bu dəyişikliyi tələb edir. Onları eşitmək və duymaq lazımdır, səslərini kəsmək deyil. Beləliklə, daha çox bərpaolunan enerjilər, hər yeni innovasiyalar və hər qiymətin aşağı salınması ilə irəliləyişə nail olmaq imkanınız olacaqdır. Şəbəkələrə və bərpaolunan enerjiyə qoyulan sərmayələr karbohidrogen resurslarından daha çox idi. Demək olar ki, hər yerdə Günəş və külək enerjisi istehsalı ən ucuz variantdır. Ona görə bu resursların, karbohidrogen resurslarının olmaması problem olmayacaqdır və yeni biznes, hər hansı bir ölkə onu dayandıra bilməz. Beləliklə, bərpaolunan enerji hökm sürəcək. Biz əmin olmalıyıq ki, bu, çox sürətli olmalıdır ki, temperaturlar 2,5-dən yuxarı qalxmasın. Eyni zamanda, burada üç prioritetə fokuslanmaq istərdim. İlk növbədə, emissiyaların azaldılması. Qlobal temperaturun azaldılması və 2,5 Selsiyə çatdırılması üçün qlobal emissiyanı hər il 9 faiz azaltmalıyıq. Bu, 2030-cu ilə qədər 43 faiz azalmalıdır. Təəssüf ki, 2019-cu ilin baza xəttinə əsasən bu emissiyalar hələ də artmağa davam edir.

**(ardı 3-cü səhifədə)**

# Dünya Azərbaycan paytaxtından yaşıl qətiyyət gözləyir

## Bakıda COP29-un Liderlər Sammitinin açılış mərasimi






**(əvvəli 2-ci səhifədə)**

Bu COP sammitində səmərəli karbon bazarının yaradılmasına dəstək göstərilməsi çox önəmlidir. Dünən də biz bu məsələni müzakirə etdik. Təbii ki, yeni bazar qaydaları təmin edilməlidir. Yerli ictimaiyyətlərə torpağın alınmasına və yaxud da hər hansı bir digər problemə icazə verməmək üçün işlər görülməlidir, iqlim dəyişikliyi planları hazırlanmalıdır. Razılaşdıq ki, sizin yeni planlarınız 1,5 temperatura uyğun olacaq. Bu, o deməkdir ki, həmin plan bütün emissiyaları və iqtisadiyyatları əhatə etməlidir.

Qlobal ehtiyacları nəzərə alaraq enerji səmərəliliyinin ikiqat artırılması və səhralaşmanın qarşısının alınması önəmlidir. Qlobal karbohidrogen resursları 30 faiz azalmalıdır. Eyni zamanda, ölkə daxilində enerji keçidi dayanıqlı iqlim məqsədlərinə, iqlim dəyişikliyi tədbirlərinə uyğun olmalıdır ki, lazımi investisiyaları təşviq edək. Bütün bunlar yerli şərait nəzərə alınaraq ortaq və eyni zamanda, paylaşılmış məsuliyyət əsasında reallaşmalıdır. Amma əlbəttə ki, hər bir ölkə öz işini görməlidir və G20 bu istiqamətdə lider olmalıdır. Onlar ən böyük emissiya edən ölkələrdir. Onların məsuliyyəti daha da yüksəkdir. Onlar texnoloji transferi və keçidi təmin etməlidirlər, inkişaf edən ölkələrə dəstək göstərməlidirlər, bütün dövlətlərin əlində lazımi alətlər və resurslar olmalıdır. BMT bu səylərə dəstək göstərməyə tam hazırdır. İnkişaf edən ölkələrə yeni milli səviyyədə cəlb olunmuş töhfələr, eyni zamanda, ədaləti bərqərar etmək bərpaolunan enerji sektorunda kritik enerji keçidi təşəbbüsləri vasitəsilə bunu etməyə nail olacağıq. Amma nəticə etibarilə bu işi bacara biləcək ölkələr məhz sizsiniz. Ancaq siz bu saata qarşı mübarizə apararaq 1,5 dərəcə hədəfinə nail ola bilərsiniz.

İkincisi, siz öz xalqlarınızı, insanlarınızı iqlim dəyişmələrinin və iqlim böhranlarının fəsadlarından müdafiə etməlisiniz. Eyni zamanda, adaptasiya ehtiyacları ilə maliyyə arasında olan boşluq 2030-cu ilədək milyardlarla dollara bərabər və ya 300 milyarddan yuxarı olacaqdır. Çatışmayan bu vəsait hər hansı hesabatda qeyd olunan rəqəm deyil. Bu, həyat itkiləri, infrastrukturun dağıdılması deməkdir. Bu cür maliyyə vədlərini icra etmək lazımdır. 2025-ci ilə qədər ən azı 40 milyard dollar vəsait toplanmalıdır. Adaptasiya və investisiya iqtisadiyyatları dəyişə və Dayanıqlı İnkişaf Məqsədləri ətrafında formalaşa bilər. Ölkələr yeni fəaliyyət planları hazırladığı zamanda məhz maliyyə vəsaiti bu şəkildə formalaşacaq, dünyada hər kəs erkən xəbərdarlıq sistemləri tərəfindən qorunmalıdır. Bütün təşəbbüslər üzrə bu erkən xəbərdarlıq sistemləri qurulmalıdır, eyni zamanda, iqlim ədalətliliyinə ehtiyacımız var. Həmçinin İtki və Zərərə Cavab Fondundan danışaraq bu cür vəsaiti lazım olan insanlara çatdırmaq önəmlidir.

Eyni zamanda, çarpaz şəkildə olan bütün sektorlara fundamental baxsaq, üçüncü prioritet məhz maliyyədir. İnkişaf edən ölkələr, əlbəttə ki, bir sıra problemlərlə üzləşir. Çatışmayan dövlət infrastrukturu vəsaiti, eyni zamanda, iqlim dəyişmələri, borclanma və digər sahələrdə böyük çətinliklər mövcuddur. Məhz bunun nəticəsində adaptasiya tədbirləri də ləngiyə bilər. Çin istisna olmaqla, keçən il ərzində inkişaf edən və meydana çıxan yeni bazarlar investisiya olunmuş hər bir dollara cəmi 15 sent alıb. COP29 yeni fərq yaratmalıdır və inkişaf edən ölkələr Bakını əliboş tərk etməməlidir. Əminəm ki, buna birlikdə nail olacağıq.

Yeni maliyyə imkanları və bu istiqamətdə beş əsas element lazımdır. Birincisi, dövlət investisiyalarının kəskin şəkildə artırılmasıdır. Dövlət investisiyaları səfərbər olunmalı, inkişaf edən ölkələrə trilyon dollarlarla vəsait ayrılmalıdır. İnnovativ resurslar, xüsusən aviasiya, karbohidrogen mədən işləridir və buna görə də çirkləndirici tərəflər “daha çox ödəməlidir” prinsipinə əsasən ödəməlidir. Şəffaflıq, hesabatlılıq olmalıdır ki, həqiqətən də bu vəsait reallaşsın. Bu işə daha böyük çoxtərəfli banklar cəlb edilməlidir və əminəm ki, yaxşı xəbərlər olacaq. Burada böyük kapital qoyuluşu səylərinə və biznes modellərin islahatlarına ehtiyac var ki, onlar özəl sektordan əlavə vəsait ala bilsinlər. Bu resurslar çatışmayan kimi görünə bilər, amma onlar çoxtərəfli sistemdə böyüyə bilər. Böyük nəticələr böyük dəyişikliklər tələb edir. Beləliklə, sentyabr ayında Nyu-Yorkda əldə etdiyimiz konsensusa əsasən irəli getməliyik.

Beləliklə, bütün dövlət nümayəndələrinə müraciət etmək istəyirəm ki, artıq itirməyə vaxtımız qalmayıb. İnsanlar, dövlətlər iqlim dəyişmələrinə qarşı mübarizə üçün vəsait ayırmalıdırlar. Əks halda, bu, bəşəriyyətə baha başa gələcək. İqlim maliyyələşməsi xeyirxah əməl deyil, bu, bir investisiyadır. Bu, ixtiyari məsələ deyil, məcburi məsələdir. Hər ikisi əvəzolunmaz tədbirdir, bunlar bəşəriyyətin gələcəyi və firavanlığı üçün lazımdır. Vaxt gedir, sizə inanıram, sizə təşəkkürümü bildirirəm.

**Daha sonra Malayziyanın paytaxtı Kuala Lumpurun meri, BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) sabiq icraçı direktoru xanım Maimuna Mohd Şərif çıxış edərək dedi:**

– Azərbaycan Respublikasının Prezidenti, zati-aliləri, hörmətli cənab İlham Əliyev.

BMT-nin Baş katibi, zati-aliləri, hörmətli cənab Antonio Quterreş.



COP29-un Prezidenti, zati-aliləri, hörmətli cənab Muxtar Babayev.

Hörmətli dövlət başçıları, nümayəndə heyətlərinin rəhbərləri, COP29 Sammitinə təşrif buyuran qonaqlar, səfirlər, merlər.

Əssəlamü əleyküm və rəhmətullahu və bərəkətuhu. Günortanız xeyir.

Bu auditoriyada iqlim böhranı barədə açılış sözü ilə çıxış etmək həqiqətən də böyük şərəfdir. Mer, icma rəhbəri, qadın lider, eyni zamanda, bir nənə olaraq xalqın sözünü sizə çatdırmaq imkanı yaratdığınıza görə hər birinizə təşəkkür edirəm. Bu cür tədbirlər həqiqətən də həssas qruplardan və icmalardan olan, iqlim dəyişikliyindən əziyyət çəkən insanların səsini çatdırmaq üçün yaxşı fürsətdir. Tam əminliklə deyə bilərəm ki, hər birimiz ümidlərimizi reallaşdırmaq və daha nikbin bir gələcək üçün çalışmaqda davam edəcəyik.

BMT Məskunlaşma Proqramının sabiq icraçı direktoru olaraq, COP29 Sədrliyinə təşəkkürümü, eyni zamanda, uzaqgörən əməkdaşlıq əsasında həm Dubay, həm də digər tərəflərlə davamlı şəkildə bu COP-un keçirilməsi münasibətilə təbriklərimi çatdırıram. COP29 Sədrliyinə, eyni zamanda, təşəkkürümü bildirirəm ki, şəhərsalma və iqlim dəyişmələri ilə bağlı tədbirlərə davamlı şəkildə nazirlik səviyyəsində ev sahibliyi etdiniz. Dubayda keçirilmiş COP28-dən sonra çoxtərəfli iqlim dəyişmələri ilə bağlı fəaliyyəti müxtəlif tədbirlərlə davam etdirmisiniz. Malayziyanın paytaxtı Kuala Lumpurun meri olaraq təsdiq edə bilərəm ki, iqlim dəyişmələrinin təhlükələri çox realdır. Bir çox şəhərlərdə olduğu kimi, bizim şəhərimizdə də uzunmüddətli istilik dalğalarından tutmuş ən böyük qasırğalara qədər müxtəlif təbii fəlakətlərin şahidi oluruq. Biz bu problemlərin həllinə töhfə verə bilərik. Biz davamlı olaraq şəhərlərdə yaşıllıq sahələrinin yaradılmasına investisiya ayırmalı və eyni zamanda, karbon emissiyalarının azaldılmasına töhfə verməliyik. Biz bu problemlərin həllinə öz töhfəmizi verə bilərik və biz davamlı olaraq şəhər yaşıllıq sahələrinin yaradılmasına investisiya ayırmalı və eyni zamanda, karbon emissiyalarının azaldılmasına töhfə verməliyik. Biz şəhər mərkəzlərinin, biomüxtəliflik qovşaqlarının yaradılması, şəhərlərin biomüxtəlifliklə zəngin mühitlərə çevrilməsi də daxil olmaqla, ekstremal iqlim hadisələrinin qarşısını almaq üçün təbiət əsaslı həllər təklif edirik.

2040-cı ilə qədər 1,3 milyard plastik torba artıq mühitdə olacaq. Bizim qanımızda, hətta uşaqların, hamilə qadınların qanında mikroplastik elementlər qeydə alınır. Bütün bu çağırışlara baxmayaraq, düşünürəm ki, bizim şəhərimiz ən uğurlu şəhərlərdən biridir, nisbətən təhlükəsiz bölgədə yerləşməklə biz özümüzü şanslı hiss edirik.






Cənab Prezident, COP29-a Azərbaycanda, Bakıda ev sahibliyi etdiyinizə görə təşəkkür edirəm. Siz həqiqətən də öz rəhbərliyiniz və liderliyinizlə hamını sülhün vacibliyinə inandırdınız. Sülh olmadan dayanıqlı inkişaf barədə danışmaq mümkün deyil. Dayanıqlı inkişaf olmadan da biz sülhü yarada bilmərik. Mən Azərbaycana Dayanıqlı İnkişaf Məqsədlərinə verdiyi töhfələrə görə təşəkkür edirəm. Siz öz şəhərlərinizi yenidən bərpa edirsiniz. Bunu Dayanıqlı İnkişaf Məqsədlərinə əsasən edirsiniz.

Bildiyimiz kimi, azərbaycanlı şair Nizami Gəncəvi öz şeirlərində söyləyib ki, müxtəlif çətin çağırış dövrlərində imkanlar tapmaq lazımdır. Bu imkanlar məhz sülh ilə gələcək və təbiətlə sülh yaratmalıyıq. Bu səbəbdən də bütün üzv dövlətlərdən və təşkilatlardan multilateral yanaşmağı və BMT-yə dəstək göstərməyi xahiş edirəm. COP29-da daha dəqiq tədbirlər, vaxtlar və son tarixlər ilə bir yerdə planetimizi qorumalıyıq. İndiki və gələcək nəsillərə daha sağlam bir planet miras qoymalıyıq. İtki və Zərər Fondunu, COP29 maliyyə fondunu təmin edən bir sammit olaraq da əmin olmalıyıq ki, lazımi vəsait ən çox ehtiyac duyan insanlara çatacaq.

Xanımlar və cənablar, eyni zamanda, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə təşəkkürümü bildirirəm ki, şəhərsalma və urbanizasiya proseslərində davamlı şəkildə iştirak etməyə imkan yaratmışdır. COP29 Məşvərət Şurasına və eyni zamanda, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə gənclərlə, gənc alimlərlə birlikdə innovativ ideyalar irəli sürmək və müzakirə etmək imkanına görə təşəkkür edirəm. Eyni zamanda, gender bərabərliyinə əsaslanan bir platformada öz tövsiyələrimizi paylaşmağa, gələn il Qlobal Bakı Forumunda da bu istiqamətdə müzakirələr aparmağa davam edəcəyik.

İki həftə Azərbaycanda davam edəcək COP29 Sammitinə qatılan dövlətlərə, maraqlı tərəflərə və biznes sektoruna müraciət etmək istəyirəm ki, mühüm nailiyyətlərə imza ata bilmək üçün daha sıx əməkdaşlıq etməli, təcili tədbirlər görməliyik. Bu gün burada Malayziyanın ətraf mühit naziri də iştirak edir. Biz əvvəlcə planetimizi, insanları, ondan sonra öz mənfəətimizi düşünməliyik.

Hörmətli cənab Prezident.

Zati-aliləri.

Hər birinizə təşəkkür edirəm. Burada çoxtərəfli iqlim dəyişmələri ilə mübarizə tədbirləri barədə müzakirələr aparırıq. Fikrimcə, bəyanatlar kifayətdir, artıq fəaliyyətə başlamalı, bunu əməldə göstərməliyik. Nizami Gəncəvi də əsrlər öncə bunu söyləyib. Bizim əməllərimiz bizə imkan verəcək ki, bu öhdəliklərə cavab verək, onları icra edək. Yer Kürəmizə, planetimizə, sülhə gəlin, bir yerdə şans yaradaq və nəticə etibarilə gələcəyimizi qoruya bilək.

Hər birinizdən, burada əyləşən bütün dövlət başçılarından, bütün liderlərdən xahiş edirik ki, müharibələrə son qoyun. Heç bir dayanıqlı inkişaf müharibə şəraitində mümkün deyil. Gəlin, sülhə can ataq. Son nəfəsimizə qədər buna can ataq.

Sağ olun.

**Sammitdə NASA astronavtları xanım Sunita Vilyams və Nik Heyqin Beynəlxalq Kosmik Stansiyadan xüsusi videomüraciəti nümayiş olundu.**

**Sunita Vilyams:** Beynəlxalq Kosmik Stansiyadan sizi salamlayırıq və NASA-dan olan həmkarımla birlikdə bu mesajı göndəririk.

**Nik Heyq:** Kosmosdan Yer planetinə baxdığımız zaman görürük ki, həqiqətən, biz bir-birimizə bağlıyıq. Qasırğalara, əriyən buzlaqlara, eyni zamanda, yanğınlara baxdığımız zaman görürük ki, planetimiz hər saniyə dəyişir.

Bu stansiyadan müşahidə apardığımız zaman bizim tərəfdaşlarımız və NASA əməkdaşları mesajımızı səmərəli şəkildə dünya ilə paylaşmağa hazırdır.

**Sunita Vilyams:** Bizim missiyamız dəniz səviyyəsi, qaz emissiyaları, artan temperatur, səhralaşma və eyni zamanda, flora və faunadakı problemlər barədə məlumatları kosmosdan Yer kürəsinə ötürməkdir.

Biz beynəlxalq komanda olaraq Azərbaycana, eyni zamanda, COP29-da iştirak edən bütün tərəflərə planetimizin gözəlliyini və təhlükəsizliyini qoruduğuna görə təşəkkürümüzü bildiririk.

**Liderlər Sammitinin açılış mərasimi mədəni proqramla davam etdi.**

COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024

# Qlobal yaşıl keçidin nəbzi bu gün Azərbaycanda döyünür

## Prezident İlham Əliyevin FIFA-nın prezidenti ilə görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də FIFA-nın prezidenti Canni İnfantino ilə görüşüb.**

Əvvəlcə FIFA-nın prezidenti xatirə hədiyyələri ni və xüsusi olaraq hazırlanmış, üstündə Azərbaycan Prezidentinin adı və soyadı olan topu dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev COP29-da iştirak etdiyinə görə Canni İnfantinoya təşəkkürünü bildirdi.

Qonaq da öz növbəsində, COP29-a dəvətə və bu mötəbər tədbirin yüksək səviyyədə təşkilinə görə dövlətimizin başçısına minnətdarlığını ifadə etdi.

Söhbət zamanı Azərbaycanda idmanın bütün növləri kimi, futbola da göstərilən dövlət qayğısı qeyd olundu, Canni İnfantinonun ölkəmizdə futbolun inkişafına verdiyi dəstəyə görə minnətdarlıq bildirildi.




Görüşdə Azərbaycan ilə FIFA arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi məmnunluqla vurğulandı, bu əməkdaşlığın gələcəkdə də davam edəcəyinə əminlik ifadə olundu. Azərbaycanda FIFA-nın təşkilatçılığı ilə tədbirlərin keçirilməsi məsələsi müzakirə edildi.

## Prezident İlham Əliyevin İspaniya Krallığı Hökumətinin Sədri ilə görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də İspaniya Krallığı Hökumətinin Sədri Pedro Sançez ilə görüşüb.**

Prezident İlham Əliyev İspaniyada baş vermiş güclü daşqınlar nəticəsində çoxsaylı insan tələfatı və dağıntılarla bağlı başsağlığını çatdırdı.

Pedro Sançez göstərilmiş həmrəyliyə və başsağlığına görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirdi.

Dövlətimizin başçısı dəvəti qəbul edib COP29-da iştirak etdiyinə görə İspaniya Krallığı Hökumətinin Sədrinə təşəkkürünü ifadə etdi, onun ölkəmizə səfərinin ikitərəfli münasibətlərin inkişafına təkan verəcəyinə ümidvar olduğunu dedi.

Pedro Sançez COP29-a dəvətə görə dövlətimizin başçısına minnətdarlığını ifadə etdi. O, bu tədbirin yüksək səviyyədə təşkili ilə bağlı təbriklərini çatdırdı.

Qonaq qeyd etdi ki, gələn il İspaniyada BMT-nin Davamlı İnkişafın maliyyələşməsinə həsr olunmuş böyük tədbirinin keçirilməsi planlaşdırılır və COP29-un nəticələri də onun uğurlu olması işinə xidmət edəcək.

Prezident İlham Əliyev COP29-un artıq səmərəli nəticələr verməyə başladığını məmnunluqla vurğuladı.

İspaniya Hökumətinin Sədri Azərbaycanın Sivilizasiyalar Alyansına göstərdiyi töhfəni yüksək qiymətləndirdi.

Görüşdə iqtisadi-ticari əlaqələrin genişləndirilməsi ilə bağlı ətraflı fikir mübadiləsi aparıldı, bunun üçün birgə işçi qrupunun yaradılması və biznes-forumların keçirilməsi barədə razılıq əldə olundu.

Söhbət zamanı ölkələrimiz arasında sənaye, kənd təsərrüfatı, investisiyalar, infrastruktur layihələrinin icrası sahələrində böyük imkanların olduğu qeyd edildi, təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi, Azərbaycanda İspaniya universitetlərinin açılması perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

## Prezident İlham Əliyevin İordaniya Haşimilər Krallığının Vəliəhdi ilə görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də İordaniya Haşimilər Krallığının Vəliəhdi Şahzadə II Əl-Hüseyn bin Abdullah ilə görüşüb.**

Vəliəhd Şahzadə II Əl-Hüseyn bin Abdullah atası - İordaniya Haşimilər Krallığının Kralı II Abdullah ibn Əl-Hüseynin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Kral II Abdullah ibn Əl-Hüseynə çatdırmağı xahiş etdi.

Qonaq COP29-un uğurla keçirilməsi münasibətilə təbriklərini çatdırdı.

İlk dəfə Azərbaycanda olduğunu bildirən İordaniya Haşimilər Krallığının Vəliəhdi ölkəmizdə gördüyü inkişaf proseslərinin onda böyük təəssürat hissi yaratdığını dedi.

Söhbət zamanı Qəzzaya humanitar yardımların göstərilməsində Azərbaycanla İordaniyanın birgə əməkdaşlığı və ölkəmizin Birləşmiş Millətlər Təşkilatının Yaxın Şərqdə Fələstinli Qaçqınlara Yardım və İşlər üzrə Agentliyi (UNRWA) vasitəsilə də Fələstinə humanitar yardımları qeyd edildi.

## Prezident İlham Əliyevin Küveyt Dövlətinin Vəliəhdi ilə görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Küveyt Dövlətinin Vəliəhdi Şeyx Sabah Xalid əl-Həməd əl-Sabah ilə görüşüb.**

Qonaq Prezident İlham Əliyevə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un Liderlər Sammitinin açılış mərasimindəki məzmunlu çıxışına görə minnətdarlığını bildirdi.

O, dövlətimizin başçısının Azərbaycanla Küveyt arasında əməkdaşlığın inkişafına daim öz dəstəyini verdiyini vurğuladı.

Söhbət zamanı birgə iqtisadi komissiyanın fəaliyyətinin canlandırılması qeyd olundu, turizm sahəsində əməkdaşlığa toxunuldu, Küveytdən olan turistlərin Azərbaycana səfərlərindən məmnun qaldıqları vurğulandı.

Görüşdə ikitərəfli münasibətlərin perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

## Prezident İlham Əliyevin Qana Prezidenti ilə görüşü

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Qana Respublikasının Prezidenti Nana Addo Dankua Akufo-Addo ilə görüşüb.**

Prezident İlham Əliyev dəvəti qəbul edib COP29 tədbirində iştirak etdiyinə görə Nana Addo Dankua Akufo-Addoya minnətdarlığını bildirdi. Dövlətimizin başçısı qeyd etdi ki, Qana Prezidentinin ölkəmizə bu səfəri əlaqələrimizin perspektivlərinin və əməkdaşlığımızın mümkün istiqamətlərinin müəyyənləşdirilməsi üçün yaxşı imkan yaradır.

COP29-un ölkəmizdə keçirilməsi münasibətilə təbriklərini çatdıran Nana Addo Dankua Akufo-Addo bu tədbirə dəvətə görə minnətdarlığını bildirdi və onun yüksək səviyyədə təşkil olunduğunu məmnunluqla vurğuladı.

Qana Prezidenti qeyd etdi ki, dövlətimizin başçısının BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un Liderlər Sammitinin açılış mərasimindəki məzmunlu və dolğun çıxışı dərin təəssürat yaradıb.



Qonaq bu tədbir çərçivəsində Azərbaycan mədəniyyətinin inciləri ilə də tanış olmaq imkanı əldə etdiyini bildirdi.

Söhbət zamanı Azərbaycan ilə Qana arasında əlaqələrin inkişaf etdirilməsi perspektivləri müzakirə olundu, iqtisadiyyat, biznes əlaqələri, sərmayə qoyuluşu, beynəlxalq təşkilatlarda əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı. Münasibətlərimizi, o cümlədən iqtisadi əlaqələri inkişaf etdirmək üçün müxtəlif sahələri əhatə edən nümayəndə heyətlərinin səfərlərinin həyata keçirilməsi barədə razılıq əldə olundu.

Görüşdə elm və təhsil sahəsində əməkdaşlığa toxunularaq, Qanadan olan tələbələrin Azərbaycanda təhsil aldıqları və bu təhsildən çox məmnun qaldıqları bildirildi.

# Qlobal yaşıl keçidin nəbzi bu gün Azərbaycanda döyünür

## Prezident İlham Əliyev Türkiyə Prezidenti ilə görüşüb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşüb.**



Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan dövlətimizin başçısına COP29-un uğurla keçirilməsi ilə bağlı təbriklərini çatdırdı və Azərbaycanın qısa müddət ərzində belə bir möhtəşəm tədbirə ev sahibliyi etməsinin yüksək qiymətləndirildiyini bildirdi.

Prezident İlham Əliyev qeyd etdi ki, COP29 tədbirinin keçirildiyi məkan 8 aylıq bir dövr ərzində hazırlanıb və burada yüksək ətraf mühit standartlarına və davamlılıq prinsiplərinə riayət olunub.

Rəcəb Tayyib Ərdoğan vurğuladı ki, Prezident İlham Əliyev BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un Liderlər Sammitinin açılış mərasimində çox məzmunlu çıxış edib. Türkiyə Prezidenti tədbir çərçivəsində təşkil olunan mədəni təqdimatın da nəfis qaydada hazırlandığını dedi.

Söhbət zamanı Azərbaycanla Türkiyə arasında dostluq, qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

## Prezident İlham Əliyev Müqəddəs Taxt-Tacın Dövlət katibi ilə görüşüb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Müqəddəs Taxt-Tacın Dövlət katibi kardinal Pietro Parolin ilə görüşüb.**

Söhbət zamanı Azərbaycanda müxtəlif dinlərin nümayəndələrinin dostluq və harmoniya şəraitində yaşamaları məmnunluqla qeyd olundu.

Dövlətimizin başçısı vurğuladı ki, ölkəmizdə multikulturalizm dövlət siyasəti olmaqla yanaşı, eyni zamanda, bizim həyat tərzimizdir.

Müqəddəs Taxt-Tacın Dövlət katibi Azərbaycanda ikinci Katolik kilsəsinin layihələndirilməsi və tikilməsi prosesinə görə təşəkkürünü bildirdi. Bu, ölkəmizdə multikulturalizmə və dinlərarası dialoqa verilən töhfənin nümunəsi kimi dəyərləndirildi.

Prezident İlham Əliyev qədim xristian irsi olan Alban irsinin də Azərbaycanda dövlət tərəfindən qorunduğunu dedi və ölkəmizin ən erkən və qədim xristian icmalarının yaşadığı məkan olduğunu vurğuladı.

Görüşdə Azərbaycan dövlətinin və Heydər Əliyev Fondunun Vatikanda və dünyanın müxtəlif regionlarında xristian irsinin bərpasına verdiyi töhfə yüksək qiymətləndirildi.

Azərbaycan ilə Vatikan arasında əlaqələrdən məmnunluq ifadə olundu, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

## Prezident İlham Əliyev Polşa Prezidenti ilə görüşüb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Polşa Respublikasının Prezidenti Andjey Duda ilə görüşüb.**

Prezident İlham Əliyev COP29-da iştirak etdiyinə görə Andjey Dudaya minnətdarlığını bildirdi. Polşa Prezidenti ilə görüşlərini məmnunluqla xatırlayan dövlətimizin başçısı Andjey Dudanın ölkəmizə səfərinin ikitərəfli münasibətlərimizin inkişafına töhfə verəcəyinə ümidvar olduğunu dedi.

Andjey Duda COP29-a dəvətə görə Azərbaycan Prezidentinə minnətdarlığını ifadə edərək, bu tədbirin yüksək səviyyədə təşkil olunduğunu vurğuladı və bununla bağlı təbriklərini çatdırdı.

Söhbət zamanı qlobal iqlim gündəliyinin vacibliyi qeyd olundu.

Polşa ilə Azərbaycan arasında əlaqələrin müxtəlif sahələrdə inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı, Azərbaycan-Avropa İttifaqı əlaqələri və regional məsələlər müzakirə edildi.

Azərbaycanda olan Polşa irsi, həmçinin polyak memarların Bakı şəhərində müxtəlif abidələrin memarlığında iştirakı məsələsi də qeyd olundu.

## Prezident İlham Əliyev Çex Respublikasının Baş naziri ilə görüşüb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Çex Respublikasının Baş naziri Petr Fiala ilə görüşüb.**

COP29 tədbirinə dəvətə görə minnətdarlığını ifadə edən Petr Fiala Azərbaycana ilk dəfə səfər etməsindən məmnunluğunu bildirdi. Çex Respublikasının Baş naziri COP29-un yüksək səviyyədə təşkil olunduğunu vurğuladı və bununla bağlı dövlətimizin başçısını təbrik etdi. O, COP miqyasında tədbirin belə bir qısa müddətdə təşkil edilməsinin heç də asan olmadığını vurğuladı.

Qonaq qeyd etdi ki, tədbirin açılış mərasimində Azərbaycan mədəniyyətini əks etdirən çox gözəl təqdimat nümayiş olunub.

Dövlətimizin başçısı Azərbaycan tərəfindən COP29-a hazırlıq tədbirlərinin qısa müddət ərzində yüksək səviyyədə həyata keçirildiyini və digər COP sədri ölkələrindən fərqli olaraq, bizim hazırlıq üçün çox az vaxtımızın olduğunu vurğuladı.

Tədbirin mahiyyəti üzrə aparılan danışıqlar prosesində artıq irəliləyişlərin əldə olunduğunu, qısa müddət ərzində gündəliyin razılaşdırıldığını deyən Prezident İlham Əliyev bu xüsusda vurğuladı ki, 10 ildən çoxdur müzakirələrin aparılmasına baxmayaraq, Paris Sazişinin karbon ticarəti üzrə 6-cı maddəsi ilə bağlı indiyədək irəliləyişlər əldə olunmamışdır. Ancaq dünən məhz Bakıda bununla əlaqədar müvafiq irəliləyişlərin olduğunu vurğulayan dövlətimizin başçısı bunu müsbət addım kimi qiymətləndirdi.

Prezident İlham Əliyev 2022-ci ildə Avropa Siyasi Birliyi çərçivəsində Çex Respublikasına səfərini məmnunluqla xatırladı.

Görüşdə ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

## Prezident İlham Əliyev Albaniyanın Baş naziri ilə görüşüb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Albaniya Respublikasının Baş naziri Edi Rama ilə görüşüb.**

Görüşdə əvvəlcə SOCAR, Albaniyanın İnfrastruktur və Energetika Nazirliyi və "Albgaz" şirkəti arasında Anlaşma Memorandumu imzalandı. SOCAR-ın həyata keçirəcəyi bu layihə Albaniyanın Korça şəhərində kömürdən və oduncaqdan istifadənin qarşısını alaraq dekarbonizasiya prosesinə ciddi töhfə verəcək və beləliklə, bu, dekarbonizasiyaya xidmət edən layihə olacaq.

Söhbət zamanı Albaniyanın Baş naziri BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının Liderlər Sammitinin açılış mərasimində Prezident İlham Əliyevə dolğun və məzmunlu çıxışına görə təşəkkür etdi.

Azərbaycan ilə Albaniya arasında münasibətlərimizin mövcud vəziyyətindən məmnunluq bildirildi, əlaqələrimizin bütün sahələrdə uğurla inkişaf etdiyi qeyd olundu, turizm, investisiyalar və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə edildi, beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimizin bir-birinə göstərdiyi qarşılıqlı dəstək yüksək qiymətləndirildi və təqdir olundu.



COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024

# Azərbaycan paytaxtı qlobal iqlim savaşının baş qərargahıdır

## Prezident İlham Əliyevin Böyük Britaniyanın Baş naziri ilə görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Kir Starmer ilə görüşüb.**

Prezident İlham Əliyev bunun Britaniya Baş nazirinin Azərbaycana ilk səfəri olduğunu qeyd etdi. Bildirdi ki, bu səfər Azərbaycanla Böyük Britaniya arasında əlaqələrdə mühüm əhəmiyyət daşıyır və tarixi bir səfərdir.

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Prezident İlham Əliyevi COP29-un Azərbaycanda keçirilməsi və ölkəmizin bu tədbirə sədrliyi münasibətilə təbrik etdi.

İqlim dəyişmələri məsələlərinin Britaniyanın gündəliyində vacib, prioritet məsələlərdən olduğunu deyən Baş nazir Azərbaycan tərəfindən qlobal iqlim dəyişmələri ilə mübarizəyə verilən töhfənin təqdir olunduğunu vurğuladı.

Dövlətimizin başçısı Azərbaycanın COP29-un təşkili ilə əlaqədar vaxtının az olmasına baxmayaraq, qısa müddət ərzində bütün təşkilati işlərin həyata keçirildiyini dedi. Prezident İlham Əliyev bu tədbirin mahiyyəti üzrə olan danışıqlar prosesində də artıq irəliləyişlərin olduğunu bildirdi. Bu xüsusda, Paris razılaşmasının 6-cı bəndi üzrə əldə olunmuş irəliləyişləri müsbət addım kimi qiymətləndirdi.

Söhbət zamanı ölkələrimiz arasında ikitərəfli münasibətlərə dair müzakirələr aparıldı, bp-nin sərmayələri ilə Cəbrayılda Günəş panel stansiyasının tikintisi layihəsi yüksək qiymətləndirildi. Qeyd olundu ki, bu layihə dünyanın ən böyük neft-qaz terminallarından biri olan “Səngəçal”da istifadə edilən enerjinin bərpaolunan enerjiyə keçidini və dekarbonizasiyasını təmin edəcək.

Söhbət zamanı Böyük Britaniyanın Azərbaycanda minaların təmizlənməsi işinə verdiyi dəstək yüksək qiymətləndirildi.

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Ermənistan ilə Azərbaycan arasında danışıqlar prosesi ilə maraqlandı.

Dövlətimizin başçısı qeyd etdi ki, hazırda tərəflər arasında sülh müqaviləsi üzrə danışıqlar davam etdirilir, bu müqavilənin mətninin xeyli hissəsi artıq razılaşdırılıb, sərhədlərin delimitasiyası və demarkasiyası sahəsində də Ermənistan ilə Azərbaycan arasında ciddi irəliləyiş var, 12 kilometrdən artıq sərhəd xətti nəinki delimitasiya olunub, hətta demarkasiyası həyata keçirilib ki, komissiyanın son görüşündə də bu prosesin irəli aparılması barədə razılıq əldə olunub.

Amma bütün bunlarla yanaşı, dövlətimizin başçısı Ermənistanın Konstitusiyasında Azərbaycana qarşı olan ərazi iddialarının aradan qaldırılmasının vacibliyini bildirdi.

Azərbaycan Prezidenti sülh prosesinin irəli aparılması və sülh müqaviləsinin imzalanması üçün xalqların sülhə hazırlanmasının önəmini vurğuladı.

## COP29: nümayəndə heyətlərinin şərəfinə Heydər Əliyev Mərkəzində ziyafət



**Noyabrın 12-də Bakıda, Heydər Əliyev Mərkəzində Prezident Administrasiyasının rəhbəri, COP29-un Təşkilat Komitəsinin sədri Samir Nuriyev BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının Liderlər Sammitinin açılış mərasimində iştirak edən nümayəndə heyətlərinin şərəfinə ziyafət verib.**




## COP29: dövlət və hökumət başçılarının şərəfinə ziyafət



**Noyabrın 12-də Bakıda, Gülüstan sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Liderlər Sammitinin açılış mərasimində iştirak edən dövlət və hökumət başçılarının şərəfinə ziyafət verilib.**

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

## Əli Əsədovun COP29 Liderlər Sammitində görüşləri



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov noyabrın 12-də Bakıda keçirilən COP29 Liderlər Sammitinin açılış mərasimi çərçivəsində Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Gürcüstanın Baş naziri İrakli Kobaxidze, Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif, İspaniya Krallığı Hökumətinin sədri Pedro Sançez və FIFA-nın prezidenti Canni İnfantino ilə görüşlər keçirib.**

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov həmin gün Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Liderlər Sammitinin açılış mərasimi çərçivəsində İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid ilə görüşüb.

Nazirlər Kabinetindən bildirilib ki, görüşdə COP29-un iqlim dəyişiklikləri ilə mübarizənin gücləndirilməsi baxımından qlobal əhəmiyyəti vurğulanıb.

Azərbaycan-İraq əlaqələrinin müxtəlif aspektləri müzakirə edilib, gələcək əməkdaşlıq haqqında fikir mübadiləsi aparılıb.

*

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov dünən Bakıda keçirilən COP29 Liderlər Sammitinin açılış mərasimi çərçivəsində Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesus ilə görüşüb.

Görüşdə COP29-un yaşıl gündəliyin təşviqinə yönəlmiş beynəlxalq səylərə töhfə verəcəyinə əminlik ifadə olunub.

Söhbət zamanı Azərbaycan ilə Ümumdünya Səhiyyə Təşkilatı arasında uzunmüddətli səmərəli əməkdaşlığın aparıldığı bildirilib. Ölkəmizdə səhiyyə sistemində həyata keçirilən ardıcıl islahatlar barədə söhbət açılıb, iqlim dəyişikliklərinin insan sağlamlığına təsirlərinin azaldılması istiqamətində əməkdaşlıq məsələlərinə toxunulub.

*

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov daha sonra Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Liderlər Sammitinin açılış mərasimi çərçivəsində Antiqua və Barbuda Respublikasının Baş naziri Qaston Braunla söhbət edib.

Nazirlər Kabinetindən bildiriblər ki, söhbət zamanı Azərbaycan ilə Antiqua və Barbudanın beynəlxalq təşkilatlarda əməkdaşlıq etdikləri bildirilib, ikitərəfli münasibətlərin inkişaf perspektivləri müzakirə olunub.

*

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov dünən Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Liderlər Sammitinin açılış mərasimi çərçivəsində Esvatini Krallığının Baş naziri Rassel Dlamini ilə görüşüb.

Nazirlər Kabinetindən bildiriblər ki, görüş zamanı Azərbaycan ilə Esvatini arasında ikitərəfli və çoxtərəfli əlaqələrin qarşılıqlı maraq doğuran bir sıra sahələrdə inkişaf etdirilməsi ilə bağlı məsələlər müzakirə olunub.

*

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov noyabrın 12-də Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Liderlər Sammitinin açılış mərasimi çərçivəsində İraq Kürdüstan Regionunun başçısı Neçirvan Bərzani ilə söhbət edib.

Nazirlər Kabinetindən bildirilib ki, söhbət zamanı Azərbaycan Prezidenti İlham Əliyev və Neçirvan Bərzani arasında keçirilən görüşlərin əhəmiyyəti vurğulanıb, bunun əlaqələrin inkişafına xidmət etdiyi bildirilib. Azərbaycan ilə İraq Kürdüstan Regionu arasında əməkdaşlıqla bağlı məsələlər müzakirə olunub.

*XQ*

# Dünya Azərbaycan paytaxtından yaşıl qətiyyət gözləyir

## COP29-da birinci xanımların iştirakı ilə "Gənclər iqlim fəaliyyətlərinin ön cəbhəsində" mövzusunda konfrans

**Noyabrın 12-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Yaşıl Zonada "Gənclər iqlim fəaliyyətlərinin ön cəbhəsində" mövzusunda konfrans təşkil olunub.**

Konfransda Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva, Qırğız Respublikasının birinci xanımı Aygül Japarova, Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva, Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğan, İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) Baş direktoru Salim bin Məhəmməd Əl-Malik, Birləşmiş Millətlər Təşkilatının Avropa üzrə İqtisadi Komissiyasının (UNECE) icraçı katibi Tatyana Molçan, BMT-nin Uşaq Fondunun (UNICEF) Avropa və Mərkəzi Asiya üzrə regional direktoru Regina De Dominikis iştirak ediblər.

Tədbirin əsas məqsədi Mərkəzi Asiya və türkdilli dövlətlərin iqlim dəyişikliyinə qarşı mübarizəyə verdiyi önəmi beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaq və bu dövlətlərin gənclərini iqlim gündəliyinə cəlb etməklə beynəlxalq öhdəliklər istiqamətində görülən tədbirləri təqdim etməkdir.

Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva, Qırğız Respublikasının birinci xanımı Aygül Japarova və Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğan konfransda çıxış ediblər.

Sonra Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva konfransda çıxış edib.



### Birinci xanım Mehriban Əliyevanın çıxışı




-Hörmətli Birinci xanımlar.

Hörmətli qonaqlar.

Əziz gənc iştirakçılar.

Xanımlar və cənablar.

Əvvəlcə, sizi Azərbaycanda salamlamaq, sizin hamınıza möhkəm cansağlığı arzulamaq və COP29-da təmsil etdiyiniz ölkələrə sülh və əmin-amanlıq diləmək istərdim.

"Gənclər iqlim fəaliyyətinin ön cərgəsində" panelimizin elə adının özündən məqsəd bəllidir. Son tədqiqatlara görə, dünya gənclərinin 60 faizdən çoxu iqlim dəyişmələrini təxirəsalınmaz məsələ hesab edir.

Ümid edirəm ki, COP29 çərçivəsində əməkdaşlıq, təcrübə mübadiləsi, gənc nəsil tərəfindən birgə layihələrin müəyyənləşdirilməsi üçün platformanı yaratmaq imkanımız olacaq.

Mən COP29-da iştirak edən və qayğı ilə yanaşan bütün gəncləri, ekofəalları, gənclər təşkilatlarının bütün nümayəndələrini salamlayıram.

Mən Sıfır Atık Fondunun yaradılmasında təşəbbüs göstərmiş və ətraf mühitin, eləcə də mədəni irsin qorunmasına yönələn layihələrə şəxsən töhfə vermiş Türkiyə Respublikasının birinci xanımına təşəkkürümü bildirirəm.

2024-2030-cu illərə aid iqlim gündəliyində uşaqların və gənclərin iştirakını, o cümlədən dayanıqlı inkişafı təşviq etmək məqsədilə ötən il Mərkəzi Asiya Strategiyasının qəbul edilməsi ilə nəticələnən təşəbbüsünə görə Özbəkistanın səylərini yüksək dəyərləndirirəm.

Mən bu cür mühüm mərama şəxsən himayədarlıq etmiş Özbəkistanın birinci xanımı Ziroatxon Mirziyoyevaya təşəkkürümü bildirmək istərdim.

Mən ətraf mühit gündəliyi barədə maarifləndirmənin artırılmasında, həmin gündəliyə gənclərin qoşulmasında oynadığı fəal rola və iştirakına görə Qırğızıstanın birinci xanımına minnətdaram.

Əziz dostlar, COP29 ölkəsi seçilmək bizim üçün böyük şərəfdir. Biz fərəhlənirik ki, Cənubi Qafqazda, Mərkəzi Asiyada və daha geniş regionda ilk COP konfransı məhz Azərbaycanda keçirilir.

Dünya biosferin çirklənməsi, içməli suyun qıtlığı, tez-tez baş verən quraqlıq və ərzaq təhlükəsizliyində artan risklər kimi ciddi ətraf mühit çağırışları ilə üz-üzədir. Bizim ölkəmiz də istisna deyil. Biz çay sularının, Xəzər dənizinin səviyyəsinin azalmasını müşahidə edirik və su qıtlığı təhlükəsi ilə üzləşirik.

Mən qeyd etmək istərdim ki, qlobal istixana tullantılarının 0,1 faizi Azərbaycanın payına düşür. Biz havaya tullantıların azaldılması və təmiz enerjiyə keçidin həyata keçirilməsi kimi milli hədəflərimizə doğru gedirik. Bərpaolunan enerji sahəsində əldə edilən nailiyyətlərin cari tempi ilə biz 2027-ci ilə qədər quraşdırılan güclərimizin 32 faizə çatacağını, 2030-cu ilə qədər 30 faizlik azalma kimi ilkin hədəfə üç il əvvəl nail olacağımızı gözləyirik.

Biz, həmçinin Ermənistanın işğalından azad olunmuş Qarabağ və Şərqi Zəngəzur regionlarında, o cümlədən Naxçıvan Muxtar Respublikasında 2050-ci ilə qədər "xalis sıfır atılmalar zonası"nın yaradılmasına diqqət yetiririk. Əsasən Günəş və külək enerjisi layihələri ilə bağlı artıq fəal iş aparılır. Yaşıl enerjinin istehsalı və ixracı Azərbaycanın enerji strategiyasında prioritet təşkil edir.

Uzun müddətdir ki, iqlim fəaliyyəti beynəlxalq arenada ən vacib və prioritet məsələlərdən biridir. Atılmış addımlara baxmayaraq, bəşəriyyətin üzləşdiyi çağırışlar və təhdidlər günbəgün daha da ciddiləşir. Bunu nəzərə alaraq, qlobal məsələlərin həllində tətbiq olunan yanaşma və üsullara yenidən baxılması vaxtı yetişib. Bu gün mən açıq və düzgün qeyd olunmalı digər mühüm mövzuya toxunmaq istəyirəm: riyakarlıq və ikili standartlar beynəlxalq ətraf mühit gündəliyində aydın görünür.

COP29-a ev sahibliyi edən ölkə kimi Azərbaycan ətraf mühit məsələlərindən xeyli uzaq olan mülahizələr hesabına ədalətsiz hücum dalğası, yalan hekayətlər və ikili standartlar ilə üzləşib.

Azərbaycan COP29-a ev sahibliyi etmək öhdəliyini üzərinə götürməklə, Qlobal Cənub və Qlobal Şimal, eləcə də inkişaf etmiş və inkişaf edən ölkələr arasında körpülər salmağa çalışır. Məqsədimiz bu məsələnin həllinə verdiyimiz töhfəni ortaq gələcəyə verəcəyimiz töhfəyə çevirməkdən ibarətdir. Bununla belə, bəzi hallarda dəstək vermək və konstruktiv dialoq aparmaq əvəzinə, biz çoxsaylı Qərb mətbuatında böhtan və qarayaxma kampaniyalarının hədəfinə çevrilmişik. Məlumdur ki, həmin media əvvəlcədən cızılmış ssenariyə uyğun getməyən və ya qoyulmuş qaydalarla oynamayan, müstəqil siyasət yürüdən və öz milli maraqlarını qoruyan ölkələri gözdən salmaq üçün alətə çevrilib. Müəyyən ölkələrin təsiri altında olan bəzi iri media platformaları əmr ilə Azərbaycan haqqında mənfi hekayətləri yaymağa başlayırlar.

Əslində, bəs bunun arxasında dayanan nədir? Bu cür çirkin kampaniyanın sponsorları hansı məqsədləri güdürlər? Əslində, biz cavabı bilirik.

Vətəndaşlarımızın öz ölkəsini beynəlxalq səhnədə ədalətli və düzgün şəkildə təmsil etmək hüquqları var. Onların Azərbaycanın müstəqil mövqeyini təhdid kimi görən dairələrin təzyiqinin və manipulyasiyanın qurbanına çevrilməmək hüququ var.

Nailiyyətlərimiz və işimiz bəzi dövlətlərin geosiyasi maraqları uğrunda səhv təsvirə deyil, hörmətə layiqdir.

Riyakarlıq, həmçinin müxtəlif ölkələr tərəfindən öz iqlim öhdəliklərinə necə yanaşmasında özünü büruzə verir.

Əsrlər boyu çirklənmənin əsas mənbəyi və sərvətlərin məsuliyyətsiz istehlakçısı olmuş inkişaf etmiş ölkələr hazırda sərt hakim rolunda çıxış edir. Onlar hamı üçün sərt məhdudiyyətləri təşviq edir və eyni zamanda, öz siyasətində iddialı məqsədlərini güdür, öz maraqları uğrunda işini davam etdirir. Onlar digər ölkələrdən transformasiyanı tələb edir, lakin bununla belə, maliyyə və ya texnoloji baxımdan yardım etməyə tələsmirlər.

Azərbaycan manipulyasiya və təzyiq deyil, səmərəli fəaliyyət, real həll variantları və ədalətli əməkdaşlığı arzulayan ölkədir.

Biz platformamızdan elə istifadə etmək istəyirik ki, qlobal koalisiya yaransın və orada hər ölkənin - böyük və ya kiçik, inkişaf etmiş və ya inkişaf edən ölkənin mövqeyi, haqqı ədalətli şəkildə qəbul edilsin.

Yalan hekayətlər və riyakarlıq nəinki reallığı səhv göstərir, o cümlədən ədalət və düzgünlük, ləyaqət və məsuliyyət kimi fundamental konsepsiyaları sual altına qoyur.




Səhv informasiyanın yayılmasında, ölkələrə qarşı qarayaxma kampaniyalarının aparılmasında mediadan istifadə həmin ölkələrə o qədər zərər vurmur, nəinki mənəvi dəyərlərin mahiyyətini dəyərsizləşdirir, etimadı zəiflədir və parçalanma yaradır.

Mən bütün iştirakçılara üz tutaraq istəyirəm onlar yadda saxlasınlar ki, COP29 siyasi hücumlar arenası deyil. O, iqlim böhranı qarşısında hamımızın birləşdiyi məkandır.

Yalnız ədalətli əməkdaşlıq və real tədbirlərə hazırlıq bizi uğura aparacaq.

Əziz dostlar, yekun olaraq, mən növbəti konfransların təşkilinə gəldikdə təkliflə çıxış etmək istərdim. Təklif edirəm ki, gələcəkdə konfransların onlayn formatda keçirilməsi imkanı araşdırılsın. Bu yanaşma nəinki ciddi şəkildə vəsaitlərə qənaət edəcək, o cümlədən uçuşlar və böyük tədbirlər nəticəsində yaranan atılmaları, həmçinin ətraf mühitə təsiri azaldacaq.

İşçi qruplar təfərrüatlı müzakirələr və əlaqələndirmə üçün şəxsən görüşə bilərlər. Lakin rəhbərlərin sammitləri videokonfrans formasında keçirilə bilər.

Bu, bizə resursları, səyləri və vaxtı hədəflənmiş məsələlərə yönəltmək imkanı yaradacaq və prosesi ətraf mühit baxımından daha uyğun edəcək.

Diqqətinizə görə minnətdaram.

*

Daha sonra Azərbaycan, Macarıstan, Qazaxıstan, Qırğızıstan, Türkiyə və Özbəkistandan olan gənc ekofəalların təqdimatları olub.

Təqdimatlarda iştirakçı ölkələrin ekoloji problemləri və irəli sürdükləri təşəbbüslər nümayiş etdirilib.

Konfransda 2024-2030-cu illər üçün nəzərdə tutulan "Mədəni inkişafın təşviqi və uşaqların, gənclərin iqlim gündəliyinə cəlb



edilməsi üzrə Beynəlxalq Strategiya"nın imzalanması mərasimi olub.

Çıxışlardan sonra birgə foto çəkdirilib.

Konfransdan sonra ali qonaqlar Yaşıl Zonada Heydər Əliyev Fondunun və Türkiyənin Sıfır Atık Fondunun birgə pavilyonu - COP29-da Həmrəylik Mərkəzini ziyarət ediblər.

Pavilyonda Heydər Əliyev Fondunun ətraf mühitin qorunması üzrə təşəbbüsləri təqdim olunub. Təhsil, səhiyyə və sosial sahələrdəki layihələrlə bağlı interaktiv zona yaradılıb. Sıfır Atık Fondu isə bu platformada resurs səmərəliliyi, tullantıların idarə olunması və təkrar emal sahəsindəki layihələrini, ətraf mühitin qorunması üzrə maarifləndirmə istiqamətindəki proqramlarını və innovativ həllərini təqdim edir.

Pavilyona ziyarət zamanı birinci xanımlar Şamaxı rayonunda gənclərin və könüllülərin iştirakı ilə keçirilən ağacəkmə aksiyasını bağlantı vasitəsilə izləyiblər. Aksiya zamanı ətraf mühitin qorunmasına töhfə olaraq 10 mindən çox şam ağacı əkilib.

***AZƏRTAC***

## Mehriban Əliyeva Konstitusiya Günü münasibətilə paylaşım edib




Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram hesabında 12 Noyabr - Konstitusiya Günü münasibətilə foto paylaşıb.

COP29 Baku Azerbaijan

COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024

COP29 Baku Azerbaijan

# Azərbaycan paytaxtı qlobal iqlim savaşının baş qərargahıdır

## COP29 Liderlər Sammitinin birinci plenar iclası






**Noyabrın 12-də Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Dünya Liderlərinin İqlim Fəaliyyəti Sammitinin birinci plenar iclası keçirilib.**

İclasa sədrlik edən COP29-un Prezidenti, Azərbaycanın ekologiya və təbii sərvətlər naziri **Muxtar Babayev** tədbirin gündəliyi və müzakirə olunacaq məsələlər barədə məlumat verib.

İclasda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibi **Saymon Sti**el, İqlim Dəyişmələri üzrə Hökumətlərarası Ekspert Qrupunun (IPCC) sədri **Cim Skea**, Qazaxıstan Prezidenti **Kasım-Jomart Tokayev**, Serbiya Prezidenti **Aleksandar Vuçiç**, Zimbabve Prezidenti E**mmerson Dambudzo Mnanqaqva**, Türkiyə Prezidenti **Rəcəb Tayyib Ərdoğan**, Mavritaniya Prezidenti **Məhəmməd uld Şeyx əl-Qazuani**, Özbəkistan Prezidenti **Şavkat Mirziyoyev**, Qvineya-Bisau Prezidenti **Umaru Sisoku Embalo**, Polşa Prezidenti **Andjey Duda**, Tacikistan Prezidenti Emoməli Rəhmon, İraq Prezidenti **Əbdüllətif Camal Rəşid**, Qırğızıstan Prezidenti **Sadır Japarov**, Konqo Prezidenti **Deni Sassu Nqesso**, Belarus Prezidenti **Aleksandr Lukaşenko**, Liviya Dövləti Prezident Şurasının Sədri **Məhəmməd Yunis Əl-Mənfi**, Bolqarıstan Prezidenti **Rumen Radev**, Maldiv Respublikasının Prezidenti **Məhəmməd Muizzu**, Toqo Prezidenti **Fore Qnassinqbe**, Marşal Adaları Respublikasının Prezidenti **Hilda Heine**, Kipr Respublikasının Prezidenti **Nikos Kristodulides**, Slovakiya Prezidenti **Peter Pelleqrini**, Avropa İttifaqı Şurasının Prezidenti **Şarl Mişel**, Şimali Makedoniyanın Prezidenti **Qordana Silyanovska Davkova**, Finlandiya Prezidenti **Aleksandr Stubb**, Monteneqro Prezidenti **Yakov Milatoviç**, Nepal Prezidenti **Ramçandra Paudel**, Surinam Prezidenti **Çandrikapersad Santoxi**, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri **Denis Beçiroviç**, Qana Prezidenti **Nana Addo Dankua Akufo-Addo**, Monqolustan Prezidenti **Uxnaaqiyn Xurelsux**, Efiopiya Prezidenti **Taye Atske Selassie**, Sudanın Suverenlik Şurasının sədri **Abdel Fattah Al-Burhan Abdelrahman Al-Burhan**, Moldova Prezidenti **Maya Sandu**, Braziliyanın Vitse-prezidenti **Geraldu Alkmin**, Tanzaniyanın Vitse-prezidenti **Filip İsdor Mpanqo**, Kot-d'İvuarın Vitse-prezidenti **Tiemoko Meylie Kone**, Seyşel Adaları Respublikasının vitse-prezidenti **Əhməd Afif Didi**, Anqolanın Vitse-prezidenti **Esperança da Kosta**, Yəmənin Vitse-prezidenti **Abdulla Al-Alimi**, Malavinin Vitse-prezidenti **Mixael Bizuik Usi**, Liberiyanın Vitse-prezidenti **Ceremi Kunq**, Burundinin Vitse-prezidenti **Prosper Bazombanza**, İspaniya Hökumətinin Sədri **Pedro Sançez**, İordaniya Krallığının Vəliəhdi **Şahzadə II Əl-Hüseyn bin Abdullah**, Barbadosun Baş naziri **Mia Amor Mottley**, Belçikanın Baş naziri **Aleksandr De Kro**, Böyük Britaniyanın Baş naziri **Kir Starmer**, Macarıstanın Baş naziri **Viktor Orban** çıxış ediblər.

Dövlət və hökumət başçıları, nümayəndə heyətlərinin rəhbərləri çıxışlarında təmsil etdikləri ölkə və qurumların iqlim dəyişmələrinə qarşı mübarizə sahəsində atdığı addımlar, qarşıda duran hədəflərə nail olunması ilə bağlı öhdəliklərin icrası istiqamətində görülən işlər barədə məlumat veriblər. Çıxışlarda, həmçinin Azərbaycanın COP29-u uğurla təşkil etməsinə və göstərilən qonaqpərvərliyə görə dərin minnətdarlıq ifadə olunub.

COP29-un Liderlər Sammitinə noyabrın 13-də yekun vurulacaq.

## COP29-a dəvəti Ermənistan qəbul etməyib

**Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Ermənistanın COP29 konfransında iştirakı ilə bağlı jurnalistlərə açıqlama verib. H.Hacıyev Azərbaycan Konvensiyanın üzvü olaraq bütün tərəflərə dəvət göndərdiyini bildirib:**



"Təəssüflə qeyd edirik ki, Ermənistan iştirak etməyib. Azərbaycan Konvensiyanın üzvü olaraq bütün tərəflərə dəvətini göndərib, Ermənistan qeydiyyatdan keçirilsə də, amma hələ də onların nümayəndələrinin iştirakı ilə bağlı məlumat daxil olmayıb. Ermənistan bu tədbirdə iştktak etmirsə, bundan əlavə, regional əməkdaşlıqdan, ölkələrarası təmaslardan danışırsa, bu, bir daha onu göstərir ki, Ermənistan tərəfi belə hallardan istifadə edərək yalnız özünün birtərəfli təbliğatına çalışır. Ermənistan Konvensiya üzvü kimi dəvət almışdı və dəvət alan tərəf kimi tədbirdə iştirak edə bilərdi".

## "İqlim maliyyəsi" mövzusunda yüksəksəviyyəli dəyirmi masa



**Noyabrın 12-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının 29-cu sessiyasının (COP29) Dünya Liderlərinin İqlim Fəaliyyəti Sammiti çərçivəsində təşkil olunan "İqlim maliyyəsi" mövzusunda yüksəksəviyyəli dəyirmi masa müzakirələrində iştirak və çıxış edib.**

Dəyirmi masa müzakirələrində, həmçinin Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif, Tacikistan Prezidenti Emoməli Rəhmon, Qırğızıstan Prezidenti Sadır Japarov və digər yüksəksəviyyəli nümayəndələr, o cümlədən beynəlxalq maliyyə institutlarının nümayəndələri, investor və maliyyə mütəxəssisləri iştirak ediblər.

Dəyirmi masa müzakirələrində Azərbaycanın COP29 Sədrliyi adından çıxış edən nazir Ceyhun Bayramov COP29 Sədrliyinin prioritetləri, xüsusilə iqlim maliyyəsi gündəliyinin transformasiyası istiqamətində Azərbaycan Sədrliyinin fəaliyyəti barədə ətraflı məlumat verib.

İqlim dəyişikliyinin mənfi təsir və nəticələrinin aradan qaldırılmasının çoxtərəfli həll yolları və inklüziv proses tələb etdiyi, dünyanın müxtəlif bölgələrində, 2022-ci ildə Pakistanda, habelə bu yaxınlarda Karib hövzəsi, Hindistan, Banqladeş, Nigeriya, Çad, İspaniya və s. bölgələrdə baş verən ölümcül daşqınlar kimi fəlakətlərin müvafiq həll yolları tapılmasını labüd etdiyi diqqətə çatdırılıb.

İqlim dəyişikliyi ilə əlaqəli bu kimi fəlakətlərin nəticələrinin aradan qaldırılması istiqamətində Şarm əl-Şeyxdə əldə olunan və Pakistanın G-77 sədrliyi dövrünə təsadüf edən İtki və Zərərə cavab verən Fondun yaradılması ilə bağlı tarixi razılaşmanın əhəmiyyəti vurğulanıb.

COP29 sədrliyimizin təbii fəlakətlərin başvermə risklərini artıran, insan həyatı və qlobal iqtisadi sabitliyi təhdid edən iqlim dəyişikliyi ilə mübarizədə ambisiyaların yüksəldilməsi və fəaliyyətin artırılmasına hədəfləndiyi qeyd olunub. Bu istiqamətdə, iqlim maliyyəsi sahəsində mövcud boşluğun aradan qaldırılaraq, inkişaf etməkdə olan ölkələrin ehtiyaclarına uyğun şəffaf və əlçatan mexanizmlərin yaradılmasının maliyyə resurslarının cəlbi qədər vacib olduğu qeyd olunub.

"Yaşıl dünya naminə həmrəylik" çağırışı ilə Bakıda keçirilən COP29-un iqlim maliyyəsi gündəliyinin transformasiyası baxımından vacib fürsət olduğu vurğulanıb və bu istiqamətdə COP29-un uğuruna dair ümidvarlıq ifadə olunub.

## Jelka Tsviyanoviç Qarabağda



**Prezident İlham Əliyevin dəvəti ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) iştirak etmək üçün Azərbaycana gələn Bosniya və Herseqovinanın Rəyasət Heyətinin serbiyalı üzvü xanım Jelka Tsviyanoviç işğaldan azad edilmiş Qarabağda qısamüddətli tanışlıq səfərində olub.**

Füzuli Beynəlxalq Hava Limanında qonağa Böyük Qayıdışa dair Dövlət Proqramı əsasında yenidən bərpa olunan Füzuli şəhəri, bölgədə həyata keçirilən irimiqyaslı infrastruktur layihələri, sakinlərin doğma yurdlarında yenidən məskunlaşması ilə bağlı tədbirlər barədə geniş məlumat verilib.

"Zəfər yolu" ilə Şuşaya gedən xanım Tsviyanoviçi və onu müşayiət edən şəxsləri şəhərdə Prezidentin xüsusi nümayəndəsi Aydın Kərimov qarşılayıb. Qonaqlar "Heydər Əliyev və Şuşa" ekspozisiyası, Cıdır düzü, Üzeyir Hacıbəyli, Xurşidbanu Natəvan və Bülbülün güllələnmiş heykəllərinin yerləşdiyi mərkəzi meydanı, Yuxarı Gövhər Ağa məscidi, Qazançı kilsəsi, Şuşanın diqqətəlayiq memarlıq nümunələrindən olan Kərim bəy Mehmandarovun evi, hazırda inşası davam etdirilən Zəfər məscidi ilə tanış olublar.

Qonaqlar səfər nəticəsində təkcə Şuşa şəhəri haqqında deyil, ümumən Qarabağ və müasir Azərbaycanın mübarizələrlə dolu mürəkkəb tarixi və bugünkü həyatı barədə aldıqları gerçək və obyektiv məlumatlara görə minnətdarlıqlarını bildiriblər.

Azərbaycanın Bosniya və Herseqovinadakı səfiri Vilayət Quliyev Şuşa səfəri zamanı Jelka Tsviyanoviçi müşayiət edib.

**XQ**

## Akademik İsa Həbibbəylinin BEŞ-nin rəhbəri ilə görüşü



**AMEA-nın prezidenti akademik İsa Həbibbəyli COP29 çərçivəsində ölkəmizdə səfərdə olan dünyanın ən nüfuzlu elmi qurumu Beynəlxalq Elmi Şuranın baş icraçı direktoru professor Salvatore Arico ilə görüşüb.**

Qonağı ölkəmizdə görməkdən məmnunluğunu bildirən akademik İsa Həbibbəyli humanitar və ictimai elmlərin imkanlarından iqlim dəyişmələri kimi qlobal problemlərin həllində istifadə edilə biləcəyini söyləyib, bu və digər istiqamətlərdə AMEA-nın ISC ilə əməkdaşlıqda maraqlı olduğunu vurğulayıb, təklif və mülahizələrini səsləndirib. AMEA-nın Rəyasət Heyətində keçirilən görüşdə akademik İsa Həbibbəyli qonağa Azərbaycan Milli Elmlər Akademiyasının tarixi, keçdiyi şərəfli inkişaf yolu, əldə etdiyi nailiyyətlər və son illərdə aparılan struktur islahatları barədə məlumat verib.

Professor Salvatore Arico COP29 çərçivəsində ölkəmizdə və AMEA-da olmaqdan məmnunluq duyduğunu bildirib və vurğulayıb ki, elmin təşviqi və inkişafına dəstək, elmi bilikləri daha geniş kütləyə çatdırmaq və bu biliklərin istifadəsini stimullaşdırmaq Beynəlxalq Elmi Şuranın əsas hədəflərindəndir. AMEA-nın təşkilata üzv olmasından və birgə əməkdaşlıqdan məmnunluq duyduqlarını bildirən professor Salvatore Arico dəqiq və təbiət elmləri ilə yanaşı, humanitar və ictimai elmlər sahəsində də Akademiya ilə əlaqələrin inkişaf etdirilməsində maraqlı olduqlarını söyləyib, qurumlararası birgə əməkdaşlıq təkliflərini diqqətə çatdırıb.

***XQ***

# İqlim maliyyəsi: Böyüklərin xəsisliyi, kiçiklərin geniş ürəyi

## *Qazıntı enerjisindən milyardlar qazanan bəzi ölkələrin Azərbaycanı “yaşıl” liderlikdə qınamağa haqqı yoxdur*




**Dünyada artan nüvə təhdidi ilə yanaşı, bundan heç də az təhlükəli hesab olunmayan iqlim kataklizmlərinin əmələ gətirdiyi fəsadlar var. Qlobal miqyasda baş verən iqlim dəyişikliklərinin ətraf mühitə neqativ təsirlərinin getdikcə intensivləşməsi ikinci məsələnin aktuallığını kəskin artırır və gözlənilən risklərə qarşı bütün ölkələrin vahid platformadan çıxış etməsini, hazırlanan layihələrə maliyyə dəstəyinin göstərilməsindən ötrü imkanların birləşdirilməsini tələb edir. Məhz kollektivçilik neqativ perspektivdən qorunmağın və gələcəkdə baş verə biləcək faciələrin qarşısını almağın əsas şərtidir. BMT-nin iqlim sammitlərinin əsas məramı bundan ibarətdir.**

Qeyd etdiyimiz təhdidlər COP tədbirlərinin aktuallığını daha da artırır. İndiki vəziyyətdə bu mövzularla bağlı ortaq maraq yoxdur. İqlim dəyişikliyi ilə mübarizə, “yaşıl enerjiyə” keçid məsələləri bəzi dövlətlərin iqtisadi maraqları ilə uzlaşmadığı üçün fərqli yanaşmaları müşahidə edirik. Bu baxımdan, Böyük Britaniya istisna olmaqla, “böyük güclər”, “böyük yeddilər”, dünyanın inkişaf etmiş ölkələri bu qlobal problemin həlli istiqamətində öz töhfələrini verməyə tələsmirlər. Həmin “güc mərkəzləri”nin iqlim dəyişikliklərinə kiçik ada dövlətləri kimi həssas yanaşmamalarının səbəbi məhz qazıntı yanacağı hesabına əldə etdikləri gəlirlərdən məhrum olmaq təhlükəsidir. COP-da kiçik ölkələrin, ada dövlətlərin təşəbbüskarlığının, üzləşdikləri problemləri ucadan səsləndirmələrinin, dünyaya ünvanlanan çağırışlarının bir çox hallarda, böyük dövlətlərin ironik yanaşmasına tuş gəlməsi bu amillə izah oluna bilər.

*

Azərbaycan qlobal məsələlərə həsr olunmuş bir sıra beynəlxalq tədbirlərə ev sahibliyi etmiş və bu sahədə təcrübəyə malik ölkədir. Cari ilin iyununda Bakı Konqres Mərkəzində Xəzər regionunun ən böyük tədbiri olan 29-cu Bakı Enerji Forumunda 600-dən çox nümayəndə iştirak edib. Konfransda həm Azərbaycan, həm də Xəzər regionu üçün vacib olan enerji məsələləri gündəmdə olub.

Dünyanı narahat edən qlobal iqlim dəyişikliyi mövzusunda müzakirələrin getdiyi COP29-un yüksək səviyyədə təşkil olunduğunu BMT-nin Baş katibi Antonio Quterreş Bakıda Azərbaycan Prezidenti İlham Əliyevlə görüşündə etiraf etdi.

Fransa prezidenti Emmanuel Makron tədbirə qatılmadı. Onun COP29-da iştirakdan imtinasının siyasi səbəblərdən məhrum olmadığı məlumdur. Amma heç bir səbəb 9 il bundan əvvəl COP21-ə ev sahibliyi etmiş və məhz iqlim dəyişikliklərinin fəsdadlarının aradan qaldırılması ilə bağlı səylərin birləşdirilməsini nəzərdə tutan Paris Sazişinin müəllifi olan ölkənin BMT-nin iqlim sammitində təmsil olunmamasına haqq qazandıra bilməz. Parodoksal vəziyyət yaranır. Yelisey sarayının hazırkı kirayənişini sayılan Makronun komandası Cənubi Qafqazdakı geosiyasi maraqlarını, ermənpərəstliyini BMT-nin ən nüfuzlu tədbirindən üstün tutub. Rəsmi Paris burada Bakının qonağı kimi deyil, ən azı, BMT tədbirinin iştirakçısı qismində iştirak etməyə borclu idi. Belə çıxır ki, “böyük güclər”in liderləri COP29-a gəlməməklə Bakıya deyil, tədbirin sahibi BMT-nin özünə qarşı hörmətsizlik nümayiş etdiriblər.

**ARAYIŞ:** Paris sazişi 2015-ci il dekabrın 15-də Fransa paytaxtında keçirilən BMT-nin 21-ci Tərəflər Konfransında (COP21) qəbul edilib və 2016-cı il noyabrın 4-də qüvvəyə minib. Bugünədək Paris sazişinə dünyanın 195 ölkəsi razılıq verib, 189-u isə ratifikasiya edib. Məqsəd qlobal istiləşməni sənayeləşmədən əvvəlki (1850-1900) temperaturdan 2 dərəcədən çox olmamaqla, 2040-cı ilədək 1,5 dərəcəyə qədər cilovlamaqdır. 2024-cü ilin iyuluna olan məlumata görə, bu göstərici hazırda 1 dərəcə ətrafındadır. Sazişin məqsədi hər bir ölkənin iqlim hədəflərinə dair öhdəliklərini öz resurslarına mütənasib olaraq müəyyənləşdirmə imkanını tanımaq və dəstək olmaq, zəruri investisiyaların, maliyyənin ölkələr arasında axınını asanlaşdırmaq, texnoloji inkişaf və bunun mobilliyini təmin etmək, effektiv nəticələr üçün 195 ölkə arasında sıx əməkdaşlığı formalaşdırmaq, şəffaflıq və nəticəyönümlü fəaliyyət üçün hesabatlılığı təmin etməkdir. Onu da nəzərə çatdıraq ki, Azərbaycan Milli Məclisi Paris Sazişini 2016-cı il oktyabrın 28-də ratifikasiya edib.

*

“Böyük güclər”in liderlərinin BMT-nin qlobal tədbirinə qatılmamaları ilə Bakı heç nə itirmir. Onlar bununla təkcə Azərbaycanı deyil, bütün dünyanı narahat edən iqlim dəyişikliyinin yaratdığı təhlükələrə laqeyd yanaşmalarını ortaya qoymuş oldular. ABŞ, Rusiya və Braziliya prezidentləri, Almaniya Kansleri, Kanada, Hindistan, Yaponiya, Cənubi Afrika Respublikası və Avstraliyanın baş nazirləri, Çin Xalq Respublikasının Sədri COP29-a qatılmayanların sırasındadırlar. Doğrudur, prezident Co Bayden artıq ikinci ildir ki, BMT-nin qlobal iqlim sammitlərində iştirak etmir. Bakıya gəlmiş ABŞ nümayəndə heyətinə prezidentin beynəlxalq iqlim siyasəti üzrə baş müşaviri Con Podesta başçılıq edir. Rusiya Prezidenti Vladimir Putin BMT-nin iqlim konfransına müşavirinin başçılıq etdiyi nümayəndə heyətini göndərib. Amma “böyük”lərdən fərqli olaraq, “qara qitə”dən və Okeaniyadakı cırtdan ölkələr və ada dövlətlərdən Bakıya gələn “kiçiklər”in sayı kifayət qədərdir.



**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi icmalçı Elxan Şahinoğlu** “XQ”-yə verdiyi açıqlamasında “Böyük yeddiliy”ə daxil olan dövlətlərin iqlim dəyişikliyi ilə problemlərə laqeyd yanaşmasının səbəbi kimi onların qazıntı enerjisinin hesabına daha çox gəlir əldə etdiklərini göstərdi: “Bəli, onlar bu gəlirlərdən məhrum olmaq istəmirlər. Bu ölkələrin sənayesinin fasiləsiz işləməsi üçün ənənəvi enerjiyə – neftə və qaza böyük ehtiyacları var. Düzdür, bu ölkələrin bəziləri “yaşıl enerjiyə” keçidlə bağlı müəyyən açıqlamalar verir, proqramlar qəbul edirlər. Amma illər keçdikcə bu proqramların ləng yerinə yetirilməsinin şahidi oluruq. Yenə qazıntı yanacağına tələbatın artdığını görürük. Elə Rusiya–Ukrayna müharibəsi də bunun əyani sübutu oldu. Bu gün Rusiyadan təbii yanacaq ala bilməyən Avropanın bir çox dövlətləri alternativ mənbələrdən neft və qaz əldə etməyə çalışırlar. Kiçik ölkələrə, ada dövlətlərə gəldikdə isə onlar iqlim dəyişikliyinin fəsadlarını öz üzərlərində daha çox hiss edirlər. Çünki su ehtiyatları, torpaq əraziləri azalır, Musson yağışları bu ölkələrin kənd təsərrüfatına ciddi ziyan vurur. Bəzi böyük güclərin rəsmiləri 10-15 min əhalisi olan bu kiçik ada dövlətlərinə qarşı ironik yanaşma sərgiləyirlər. Əslində, BMT-nin COP sammitlərinə qatılmalı olanlar məhz həmin kiçik ada dövlətlərinin nümayəndələridir. Çünki bu minvalla onlar yox ola bilərlər. Bakıda iqlim sammitində müzakirə ediləcək əsas məsələlərdən biri böyük dövlətlərin vəd etdikləri maliyyə yardımlarının toplanmasıdır. Burada tələb olunan yüz milyardlarla dollar vəsaitdən söhbət gedir. Məqsəd həmin ianələrin cəmlənməsi və vəsaitin iqlim dəyişikliklərinə qarşı mübarizədə istifadəsinə nail olmaqdır”.

*

Ekologiya və təbii sərvətlər naziri, COP29-un prezidenti Muxtar Babayev Bakı Sammitinin açılış mərasimində dedi ki, qlobal səviyyədə temperatur 3 dərəcəyədək artıb və planetin müxtəlif kontinentlərində insanlar bu problemdən əziyyət çəkirlər. Onların sammitdən kağız üzərində müzakirə yox, konkret addımlar gözlədiyinə diqqəti çəkən nazir maliyyələşmə sahəsində ambisiyalılığı artırmağın və əlavə maliyyə vəsaitinin cəlb edilməsinin vacibliyini önə çəkdi. Burada söhbətin 100 milyardlarla dollardan getdiyini deyən M.Babayev yekun qərar qəbul etmək üçün danışıqların heç də asan olmayacağını, amma konfransın əsas məqsədə nail olmasının vacibliyini qeyd etdi: “Əldə edəcəyimiz nəticələr təkcə ayrı-ayrı ölkələrin deyil, bütövlükdə planetimizin maraqlarına xidmət etməlidir. Sabah qənaət etmək üçün bu gün investisiya cəlb etməliyik. Daha bir məsələ 6-cı maddə üzrə razılığın əldə olunmasıdır. Düşünürəm ki, COP29-da addımların irəli atılması üçün kifayət qədər fürsətlər yaranacaq. Burada təkcə maliyyələşmə yox, həm də insan həyatını xilas edəcək texnologiyaların ehtiyacı olan dövlətlərə təqdim edilməsi də mühüm rol oynayır. Məhz belə olduqda əsas məqsədimizə çata biləcəyik. Unutmamalıyıq ki, bu, bizim sonuncu fürsətimizdir".



**Qərbi Kaspi Universitetinin professoru, politoloq Fikrət Sadıxov** bəzi xarici dairələrdə COP29 ətrafında çox söz-söhbətin dolaşdığına, bu zaman tədbirdə iştirakla bağlı bir sıra ölkələrə açıq şəkildə təzyiq göstərildiyinə diqqəti yönəltdi: “Onları Bakıya gəlməkdən, BMT-nin iqlim sammitində iştirakdan çəkindirməyə çalışırdılar. Bu cəhdlər baş tutmadı. Dünyanın onlarca dövlətinin liderləri və hökumət başçıları, nazirlər, nüfuzlu beynəlxalq təşkilatların aparıcı ekspertləri hazırda Bakıdadırlar. Bu faktın özü ondan xəbər verir ki, bir tərəfdən həmin anti–Azərbaycan dairələrinin səyləri puça çıxır, onların söylədikləri əsassız iddialar kimi qəbul olunur. Digər tərəfdən, Azərbaycana böyük etimad göstərilir. Yəni, Bakı BMT-nin iqlim sammitini keçirməklə qlobal problemlərin müzakirəsi, fikir mübadiləsi üçün bir platforma təşkil edir. Təbii ki, bu, Azərbaycanın üstün mövqeyə malik olması kimi qəbul olunmalıdır. Bakı Sammitində Mərkəzi Asiya, Yaxın Şərq və Afrika qitəsindən nümayəndələrin iştirakı təsadüfi sayıla bilməz. Onlar qlobal iqlim dəyişikliyi ilə bağlı Bakıda mühüm qərarların qəbul ediləcəyini gözləyirlər. Aydın məsələdir ki, bu cür problemlərin həlli bir, yaxud on günün işi deyil. Hər halda, Azərbaycan bu prosesin fəal tərəfdarı və aparıcı ölkəsi kimi çıxış edir”.

*

Yeri gəlmişkən, Ermənistan tərəfindən səsləndirilən “Azərbaycan neft ölkəsi kimi COP29 keçirə bilməz” fikrini şərh edən Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bununla bağlı jurnalistlərə açıqlamasında bildirib ki, ümumiyyətlə, bugünədək 29 COP keçirilib: “İsveçrədən başqa, demək olar ki, bütün dövlətlər bu və ya digər formada qazıntı yanacaqları istehsal edən ölkələrdir. Məsələnin digər tərəfi isə budur ki, qazıntı yanacağı ilə əlaqədar bir tərəfdən təklif varsa, digər tərəfdən də tələb var. Demək olar ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının üzvü olan tərəflər qazıntı yanacağının istifadəçiləridir. Burada biz yenə də ucuz populizm elementlərini görürük. Bu gün dünyanın real tələbatları var və qazıntı yanacağı da mövcud tələbatın tərkib hissəsidir. Təbii ki, bu enerji iqlim dəyişikliklərinə mənfi təsir göstərir. Ancaq bunun qarşısını almaq üçün birgə səylərlə çalışmaq lazımdır, nəinki bu qəbildən olan ucuz və mahiyyət daşımayan bir müzakirələr aparılmalıdır”. Prezidentin köməkçisi sözlərinə onu da əlavə edib ki, bu günə qədər COP-a ev sahibliyi edən ölkələr bu və ya digər formada qazıntı yanacağı, kömür istehsalçılarıdır: “Bizdən əvvəl Avropa ölkələri bu tədbirə evsahibliyi ediblər. Məsələn, götürək Polşanı. Polşa bu gün dünyada ən çox kömür istehsal edən ölkələr sırasındadır. COP, həmçinin Böyük Britaniyada keçirilib. Qlazqo dünyada kömür istehsal edən mərkəzlərdən biridir. Ona görə də burada qarşılıqlı ittihamlar deyil, nəticəyönlü müzakirələrə töhfə vermək lazımdır”.

Beləliklə, Bakıda start götürən BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının 29-cu Tərəflər Konfransı – COP29-da dünyanın yaşıl enerjiyə keçidi ilə bağlı mühüm qərarların qəbul ediləcəyi gözlənilir. Azərbaycanın alternativ enerji mənbələri üzrə böyük potensialını nəzərə alsaq, beynəlxalq maliyyə kanallarının açılması yeni yaşıl enerji əsrinin başlanğıcı demək olacaq.

***İmran BƏDİRXANLI***
***XQ***

# BTQ-nin Fransa müstəmləkələri ilə bağlı etiraz aksiyası




**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Bakı Təşəbbüs Qrupunun (BTQ) təşkilatçılığı ilə “Sülh və yaşıl dünya naminə müstəmləkəçiliyə son!” adlı aksiya keçirilib.**

Aksiyada Fransanın müstəmləkəsində olan ada ölkələrin fəalları iştirak ediblər. Onlar bu aksiya ilə Fransaya mesaj göndərdiklərini bildiriblər. Qeyd edilib ki, Qvineya Cənubi Amerikada müstəmləkə altında olan yeganə ərazidir. Aksiya iştirakçıları ölkələrin 2024-cü ildə Fransanın müstəmləkəsində olmasına etirazlarını bildiriblər. Fransanı müstəmləkə siyasətinə son qoymağa çağırıblar. Fransanın müstəmləkəçiliyi olan yerlərin BMT-nin dekolonizasiya edilməli ərazilər siyahısına salınması tələb edilib. Həmçinin müstəmləkə altındakı ərazilər üçün iqlim dəyişikliyi sahəsində ədalət tələb olunub.

Aksiya iştirakçıları “Sülh və yaşıl dünya naminə müstəmləkəçiliyə son”, “Gecikən ədalət, inkar edilən ədalətdir”, “Təhsili, fikirləri müstəmləkədən azad edək!”, “Müstəmləkəçiliyə yox deyək!” kimi şüarlarla keçirilən dinc aksiyada etirazlarını ifadə ediblər.

***XQ***

# Azərbaycanın BƏƏ ilə iqlim tərəfdaşlığı

**BƏƏ-nin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Məhəmməd Əl Bluşi Azərbaycan mediasına müsahibəsində bildirib ki, COP28-in böyük uğuru üzərində qurulan COP29 BƏƏ-də imzalanan iddialı qərarların həyata keçirilməsi üçün lazımi mexanizmlərin müzakirə olunması və tətbiq edilməsi üçün dəyərli bir fürsətdir.**



COP28 bütün səslərin eşidildiyi qeyri-adi inklüzivliyi ilə seçildi. Konfrans 1.5°C hədəfinin qorunmasını qarşıya mühüm vəzifə kimi qoyan cəsarətli iqlim gündəmini diqqətə çatdıran BƏƏ Konsensusunun əldə edilməsi ilə mühüm nailiyyətə imza atdı. Bu tarixi razılaşma “net sıfır” emissiyalara nail olmaq üçün fosil yanacaqlardan keçidi təşviq edir və Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələrin təqdim olunmasını məsləhət bilir. Bundan əlavə, iqlim maliyyəsi üçün yeni arxitekturanın qurulması istiqamətində inkişafa təkan verməklə yanaşı, 2030-cu ilə qədər bərpaolunan enerji gücünün 3 dəfə, enerji səmərəliliyinin isə 2 dəfə artırılması üçün xüsusi hədəf müəyyənləşdirir.




BƏƏ Konsensusu bir il ərzində həyata keçirilən inklüziv diplomatik əlaqələrin və 2 həftəlik gərgin danışıqların nəticəsidir. Eyni zamanda, COP28 sədrliyinin Qlobal Dəyərləndirməyə cəsarətli cavab vermək və Paris Sazişinin əsas məqsədlərini yerinə yetirmək səylərini əks etdirir. Ümumilikdə, COP28 sədrliyi ədalətli və nizamlı enerji keçidini, iqlim maliyyəsinin əlçatanlığının artırılmasını, insan və təbiətə üstünlük verilməsini və iqlim fəaliyyətində tam inklüzivliyin təmin olunmasını vurğulayan “Fəaliyyət gündəliyi” vasitəsilə cəsarətli addımlar atdı.

COP29-un Azərbaycanda keçirildiyini nəzərə alaraq bu iqlim konfransının COP28-in impulsunu davam etdirəcəyini və Braziliyada baş tutacaq COP30-a doğru daha da irəliləyişə yol açacağını gözləyirik. Bu toplantıların birlikdə qlobal iqlim fəaliyyətinin və əməkdaşlığının əhəmiyyətli dərəcədə irəliləməsinə töhfə verəcəyinə inanırıq.

***XQ***

# Avropa İttifaqı ilə “yaşıl enerji dəhlizi” birgə müəssisəsi yaradılır

**Azərbaycanın "yaşıl" enerji dəhlizi üzrə Avropa İttifaqı ilə birgə müəssisənin yaradılması yekun mərhələdədir.**

Rumıniyanın energetika naziri Sebastyan-İoan Burduja COP29 çərçivəsində Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında “yaşıl” enerjinin inkişafı və ötürülməsi sahəsindəki Strateji Tərəfdaşlıq Sazişinə uyğun olaraq 9-cu Nazirlər görüşündə bildirib.



“Birgə müəssisənin yaradılması yekun mərhələdədir. Bildiyimə görə, nizamnamə üzrə müzakirələr, demək olar ki, tamamlanıb. Son töhfələr əldə edildikdən sonra sənədləri ticarət reyestrinə təqdim edə biləcəyik. Rumıniyada Rəqabət Şurası ilə geniş məsləhətləşmələr aparmışıq, çünki qanunvericiliyə əsasən, onlar Aİ-dən kənar xarici investisiyaları yoxlamalıdırlar. Hazırda irəliləmək üçün hüquqi icazəmiz var – bu mərhələni uğurla keçmişik. İndi nizamnamə üzərində iş tamamlandıqdan sonra elektrik ötürmə operatorumuz hər tərəfin təqdim etməli olduğu sənədlərin siyahısını göndərəcək. Bu sənədlər, məsələn, biznesin qeydiyyatı, maliyyə təsdiqi və digər məlumatları əhatə edir”, – deyə o qeyd edib.

***XQ***

# İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbərliyi




**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) hazırda dünyanı ən çox narahat edən mövzular müzakirə olunur.**

Bunu Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev deyib.

Kamran Əliyev COP29 çərçivəsində Azərbaycanın Baş Prokurorluğu və BMT-nin Narkotiklər və Cinayətkarlıq İdarəsi (BMTNCİ) tərəfindən təşkil olunan, həmçinin Birləşmiş Ərəb Əmirliklərinin Daxili İşlər Nazirliyi tərəfindən həmsədrlik edilən, noyabrın 15-də keçiriləcək “İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər olunması” adlı yüksək səviyyəli sessiya barədə də danışıb: “Noyabrın 15-də COP29 çərçivəsində plenar iclasımız baş tutacaq. Həmin tədbirdə iştirak etmək üçün müxtəlif ölkələrdən 130-dan artıq nümayəndə gəlib. İclasda hüquq-mühafizə orqanlarının ekoloji cinayətkarlığa, ekoloji terrora qarşı mübarizə üsulları, iqlim dəyişikliyində müsbət tendensiyalar müzakirə olunacaq”, – deyə Baş prokuror bildirib.

***XQ***

# Bakıda “Kosmik Liderlərin Sammiti” də keçiriləcək

**İqlim konfransı çərçivəsində Azərbaycan Kosmik Agentliyi – “Azərkosmos” “İqlim dəyişikliyi ilə mübarizədə kosmik çağırışlar: Kosmik liderlərin sammiti” keçiriləcək.**

“Azərkosmos”un yaydığı məlumata əsasən, sammit COP29-un 16 noyabr – Elm, Texnologiya və İnnovasiya Günündə təşkil olunacaq. İştirakçılar arasında 20 qlobal kosmik agentliklərin rəhbər heyəti, beynəlxalq təşkilatlar–Birləşmiş Millətlər Təşkilatının Xarici Kosmos Məsələləri üzrə Ofisi, İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı, Beynəlxalq Astronavtika Federasiyası, Millətlər Birliyi, o cümlədən özəl sektorun rəhbər və işçi heyəti yer alacaq.

Kosmik agentliklərin zirvə toplantısı hesab olunan bu sammitin əsas mahiyyəti qlobal və inkişaf etməkdə olan kosmik agentliklər arasında kosmik texnologiyanın imkanlarından yararlanmaqla iqlim dəyişikliyinə töhfə verilməsi üçün təşviqat aparmaq və sammit çərçivəsində birgə addımları formalaşdırmaqdır.

Müzakirələrin nəticəsi olaraq 20 qlobal kosmik agentliyin “Kosmosa əsaslanan iqlim təşəbbüslərinin genişləndirilməsinə dair vəd” sənədi imzalanacaq. Bu, COP28




tədbirində kosmik agentliklərin görüşündə qəbul edilən öhdəlik sənədinin bir növ davamı olacaq və növbəti COP tədbirləri üçün qlobal əməkdaşlığı, ölkələrin təcrübə mübadiləsini, iqlim dəyişikliyinin mənfi nəticələrini vaxtında və səmərəli şəkildə yumşaltmağın həlledici yollarını müəyyənləşdirəcək.

# COP29 Azərbaycana böyük dividendlər gətirəcək



**Bugünlərdə dünya ölkələrinin nəzərləri Azərbaycana yönəlib.**

İndiyədək bir çox mühüm toplantılara evsahibliyi etmiş ölkəmizdə noyabrın 11-dən etibarən dünyada ən mötəbər beynəlxalq tədbirlərdən biri olan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 keçirilir.

Qeyd edək ki, COP hər il keçirilir. Sədrlik isə BMT tərəfindən beş region arasında rotasiya qaydasında müəyyənləşir. 2024-cü ildə COP29-a evsahibliyi etmək növbəsi Şərqi Avropa regional qrupuna düşmüşdü.

Sözügedən qrupa daxil olan ölkəmiz konfransın Azərbaycanda keçirilməsi ilə bağlı namizədliyini irəli sürmüşdü. Azərbaycanla yanaşı, Ermənistan və Bolqarıstan da namizədliklərini vermişdilər. Dekabrın 7-də Azərbaycan Prezidentinin Administrasiyası və Ermənistan baş nazirinin aparatı arasında aparılmış birbaşa danışıqların nəticəsi olaraq verilmiş birgə bəyanatda Ermənistan Azərbaycanın xeyrinə öz namizədliyini geri çəkdi. Bundan sonra Bolqarıstan da öz namizədliyini geri götürdü. Beləliklə, dekabrın 9-da Şərqi Avropa regional qrupu Azərbaycanı 2024-cü ildə COP-a evsahibliyi edəcək ölkə kimi müəyyənləşdirdi. Dekabrın 11-də isə COP28-in Birləşmiş Ərəb Əmirliklərində keçirilən plenar iclasında COP29-un 2024-cü ildə Azərbaycanda keçirilməsi ilə bağlı qərar qəbul olundu.

COP tədbirləri ölkələrin təmsilçiliyi nöqteyi-nəzərindən BMT Baş Assambleyasından geri qalmır. Hazırda Konvensiya 198 tərəfdən (197 ölkə və Avropa İttifaqı) ibarətdir. Onu da bildirək ki, digər dövlətlərin COP tədbirlərinin keçirilməsi üçün bir neçə il vaxtı olsa da, ölkəmizin 11 aydan az vaxtı var idi. Ona görə qərarın qəbulundan bir neçə gün sonra – dekabrın 15-də Prezident İlham Əliyevin sədrliyi ilə müşavirə keçirildi. “Ona görə mən hesab etdim ki, birinci müşavirəni öz sədrliyimlə keçirim, bütün lazımi tapşırıqları verim. Bu tapşırıqların yerinə yetirilməsi barədə müntəzəm olaraq mənə məlumat veriləcək” – deyən dövlətimizin başçısının 2024-cü il yanvarın 13-də imzaladığı sərəncamla Təşkilat Komitəsi yaradıldı. Azərbaycanın beynəlxalq tədbirlərə evsahibliyi etmək sahəsində zəngin təcrübəyə malik olması burada da öz sözünü dedi: COP29 beynəlxalq konfransı yüksək səviyyədə keçirilir və bu, ölkəmizin, xalqımızın növbəti böyük uğuru olacaq.

Hesab edilir ki, COP29-un Azərbaycan üçün müxtəlif sahələrdə faydaları olacaq. Konfrans Azərbaycanın istixana qazı emissiyalarını azaltmaq üzrə öhdəliklərini yerinə yetirməsinə kömək edəcək. Bu isə ölkənin ekoloji vəziyyətini yaxşılaşdıracaq, havanın keyfiyyətini tənzimləyəcək. Nəticədə iqlim dəyişikliyinin təsirlərini azaltmağa kömək olacaq.

COP29-un ölkə iqtisadiyyatına da müsbət təsirləri gözlənilir. Konfrans nəticəsində turizm sektoru canlanacaq. Tədbir yeni investisiyaların və texnologiyaların cəlb olunmasına şərait yaradacaq, yaşıl enerjinin inkişafını təşviq edəcək. Ölkənin beynəlxalq əlaqələri, diplomatiyadakı mövqeyi daha da möhkəmlənəcək. COP29 işğaldan azad edilən ərazilərdəki ekoloji problemlər üçün də vacibdir. İşğaldan azad olunmuş ərazilərimizdə bərpa işləri həyata keçirilir və bu işlər həm də Azərbaycanın öhdəliklərinə uyğun şəkildə aparılır.

Bəs COP29-un ölkəmizə verəcəyi iqtisadi və siyasi dividendlər barədə ekspertlər nə düşünürlər? **Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin direktoru, politoloq Fərhad Məmmədov** bildirdi ki, COP29



qlobal siyasətdə ən mühüm mövzuların müzakirə olunduğu platformadır. Azərbaycan hazırda bu iki ciddi məsələnin ortasındadır: “Birincisi, tədbirin ölkəmizdə keçirilməsi çox vacibdir. Azərbaycan təşkilatçılıq baxımından konfransa çox yaxşı hazırlaşıb. İkincisi, COP29 Azərbaycana qlobal siyasətə qoşulmaq, bundan sonra daha aktiv fəaliyyət göstərmək imkanı yaradacaq. Bu, artıq qlobal siyasətdə böyük təcrübənin qazanılmasıdır. Kiçik ölkə olmağımıza rəğmən artıq daha ciddi aktor kimi görünəcəyik”.

**Politoloq Yeganə Hacıyeva** dedi ki, əvvəla, COP tədbiri keçirən istənilən ölkə-



nin beynəlxalq diqqəti özünə cəlb etdiyini qeyd etmək lazımdır. Onun sözlərinə görə, bunun mənfi və müsbət tərəfləri var: “Mənfi tərəflərini biz səkkiz aydan çoxdur ki, hiss etməkdəyik. COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı az qala qərar qəbul olunan gündən başlayaraq qarayaxma kampaniyasına start verilib. Bunu konfransın Liderlər Sammitinin açılış mərasimindəki çıxışında Prezident İlham Əliyev də bildirdi. Bir sıra qüvvələr ölkəmizə qarşı səfərbər olunublar. Bura həm erməni lobbisi, həm də iqtisadi və siyasi lobbi qrupları aiddir. Yəni çoxlu lobbi qrupları belə deyək, anti-Azərbaycan koalisiyasında cəmləşib. Bu, prosesin mənfi tərəfləridir”.

Müsbət tərəflərə gəldikdə isə müsahibimiz qeyd etdi ki, bu, beynəlxalq diqqəti özünə cəlb etməkdir. Beynəlxalq diqqət isə özü ilə iqtisadi dividendlər də gətirir: “İqtisadi dividendlərə nümunə kimi isə əlbəttə, turizm sektorunun inkişafını göstərmək olar. Əgər bir ölkəyə eyni vaxtda yüz minə yaxın insan səfər edirsə, bu, turizm sektorunun faydalanması deməkdir. Belə çox sayda insanın ölkəmizə axını, onların minimal xərcləmələri belə ölkəmizə kifayət qədər fayda deməkdir. Paralel olaraq, COP tədbirlərində biznes strukturları da iştirak edirlər. Biznes dairələrinin nümayəndələri bir-biri ilə tanış olurlar. Bu da özlüyündə müsbət göstəricidir. Paralel olaraq, siyasi dairələr, QHT-lər, media sektoru da COP tədbirləri çərçivəsində əlaqələr qurur, yaxud mövcud əlaqələri genişləndirirlər. Nəticədə onların beynəlxalq şəbəkəsi formalaşır. Bu da konfransın müsbət tərəfləridir. Digər tərəfdən ölkəmizin mövqeyinin möhkəmlənməsi beynəlxalq təşkilatlarda səsimizin daha aydın eşidilməsi deməkdir. Bu da COP29-un siyasi üstünlüklərindəndir”.

**Beynəlxalq Avrasiya Mətbuat Fondunun vitse-prezidenti, siyasi şərhçi Oğuz Mirzəyevin** fikrincə, Azərbaycanın



COP29-a evsahibliyi etməsi ölkəmiz üçün böyük əhəmiyyət kəsb edir və həm iqtisadi, həm də siyasi sahələrdə geniş imkanlar açır: “İlk növbədə, belə bir beynəlxalq tədbirin Azərbaycanda keçirilməsi, ölkəmizin dünya səhnəsində artan nüfuzunun və liderlik mövqeyinin göstəricisidir. Azərbaycan, geosiyasi cəhətdən strateji mövqeyə malik olmaqla yanaşı, Cənubi Qafqaz regionunda dayanıqlı inkişaf və iqtisadi tərəqqinin aparıcı qüvvəsidir. Son illərdə ölkəmiz iqtisadiyyatın diversifikasiyası və ekoloji davamlılıq sahəsində ciddi islahatlar həyata keçirib və bu sahələrdə uğurlu nəticələr əldə edib. COP29 konfransının Azərbaycanda təşkil olunması, ölkəmizin bu istiqamətdə əldə etdiyi nailiyyətləri dünyaya nümayiş etdirmək üçün nadir fürsətlərdən biridir”.

O.Mirzəyevin sözlərinə görə, Azərbaycan uzun müddətdir ki, neft və qaz resursları ilə tanınır, lakin son illərdə dayanıqlı inkişaf və yaşıl iqtisadiyyat strategiyalarına xüsusi diqqət yetirir. COP29 ölkəmizə yaşıl texnologiyaların gətirilməsi və tətbiqi üçün mühüm platforma yaradır. Bu konfrans vasitəsilə Azərbaycan yeni xarici investisiyalar cəlb edə və enerji sektorunda innovativ layihələrə imza ata bilər. Xüsusilə, bərpa olunan enerji mənbələrinə keçid, külək və Günəş enerjisi potensialının inkişaf etdirilməsi sahəsində böyük imkanlar yaradacaq.

Müsahibimiz bildirdi ki, konfransın Azərbaycanda keçirilməsi turizm sektoruna da ciddi təsir göstərəcək. Minlərlə xarici qonağın, o cümlədən hökumət nümayəndələrinin, ekspertlərin və KİV nümayəndələrinin ölkəmizə səfəri turizm gəlirlərinin artmasına və yerli bizneslərin inkişafına səbəb olacaq. Ölkəmiz zəngin mədəni irsi, tarixi abidələri və qonaqpərvərliyi ilə tanınır və COP29 bu üstünlükləri dünya ictimaiyyətinə daha geniş tanıtmaq üçün əla fürsətdir.

Ekspert bu fikirdədir ki, Azərbaycanın COP29-a evsahibliyi etməsi ölkəmizin qlobal miqyasda mövqeyini gücləndirəcək: “Belə bir mötəbər tədbirin təşkili Azərbaycanın iqlim dəyişikliyi məsələlərinə ciddi yanaşdığını və beynəlxalq səviyyədə fəal rol oynadığını nümayiş etdirir. Bu isə Azərbaycanın beynəlxalq təşkilatlarla əlaqələrini möhkəmləndirəcək və yeni strateji tərəfdaşlıqların qurulmasına təkan verəcək”.

O.Mirzəyev bildirdi ki, eyni zamanda, ölkəmiz regionda ekoloji liderliyini təsdiqləyərək, digər qonşu ölkələr üçün nümunəyə çevriləcək. Azərbaycan, Qafqaz və Mərkəzi Asiyada iqlim dəyişiklikləri ilə mübarizə və dayanıqlı inkişaf sahəsində qabaqcıl mövqeyə sahibdir. COP29 çərçivəsində Azərbaycan öz milli strategiyalarını və dayanıqlı inkişaf layihələrini təqdim edərək, regional və beynəlxalq əməkdaşlıq üçün yeni qapılar açacaq: “Konfransın Azərbaycanda keçirilməsi, ölkəmizdə iqlim siyasətində islahatların aparılmasına və yeni ekoloji standartların tətbiqinə stimul verəcək. Azərbaycan hökuməti COP29 çərçivəsində iqlim dəyişikliyi ilə mübarizəyə dair yeni qanunlar qəbul etməklə, beynəlxalq dəstəyi daha da artıracaq və yaşıl iqtisadiyyat sahəsində mövqeyini gücləndirəcək”.

Nəticədə Azərbaycan təkcə enerji resursları ilə deyil, həm də dayanıqlı inkişaf sahəsində apardığı islahatlar və strateji təşəbbüslərlə dünya miqyasında tanınacaq. Bu konfrans ölkəmizin beynəlxalq arenada imicini daha da gücləndirəcək və Azərbaycanın qlobal məsələlərdə fəal iştirakını təmin edəcək. Beləliklə, COP29 Azərbaycanın iqtisadi inkişafına və beynəlxalq nüfuzuna böyük töhfə verəcək, ölkəmizi iqlim dəyişikliyinə qarşı mübarizədə aparıcı rol oynayan dövlətlərdən biri kimi təsdiqləyəcək. Azərbaycan öz dayanıqlı gələcəyini təmin edərək, dünya ölkələri üçün əsl nümunə olacaq.

**Politoloq Züriyə Qarayeva** isə bildirdi ki, COP29 Azərbaycanın bu günədək



təşkil etdiyi ən böyük beynəlxalq tədbirdir və regionda ilk dəfə məhz bizim ölkədə baş tutur. Ekspert əmindir ki, bu konfrans siyasi, iqtisadi, turizm, investisiya və regional liderlik də daxil olmaqla, Azərbaycanın bir çox sahələrinə ciddi töhfələr verəcək: “COP29-un siyasi töhfələri saymaqla bitməz. Konfransın ölkəmizdə təşkili Azərbaycanın diaspor fəaliyyətinin müsbət istiqamətdə irəlilədiyini göstərir. “Yaşıl transformasiya”, “yaşıl iqtisadiyyat”, “bərpa olunan enerji” kimi məsələlərdə dünyada lokomotiv rolunu oynayan Avropa baxımından da Azərbaycan müsbət profilə sahib olacaq”.

Z.Qarayevanın sözlərinə görə, tədbirin iqtisadi töhfələrinə gəldikdə isə konfransın turizm gəlirlərinin artması ilə yanaşı, bir çox müsbət irəliləyişlərə gətirib çıxaracağını demək mümkündür. Onun fikrincə, Azərbaycan iqtisadiyyatını şaxələndirmək və bərpa olunan enerji sahəsində mərkəz kimi fəaliyyət göstərmək baxımından tədbirin əhəmiyyəti çox böyükdür. İnvestisiya mövzusunda verdiyi töhfələrə nəzər saldıqda, beynəlxalq investorların Azərbaycanı Cənubi Qafqaz regionunda sərmayə yatıracaqları ölkə kimi qəbul etdikləri göz qabağındadır.

***Səxavət HƏMİD***
***XQ***

# Qalib gələcəkdir cahanda kamal!

**Bildiyiniz kimi, Xəzər dənizindən Qara dənizə, oradan da Avropaya doğru gedən yaşıl kabel layihəsinin indi texniki-iqtisadi əsaslandırmasının sonuncu mərhələsidir. Texniki-iqtisadi əsaslandırma hazır olan kimi biz prosesə başlayacağıq. Biz artıq praktiki cəhətdən bu kabelin Mərkəzi Asiyaya qoşulması imkanını da müzakirə edirik... Çünki layihə Qara dəniz kabel xətti kimi, yəni Gürcüstanın Qara dəniz sahilindən Rumıniyanın Qara dəniz sahilinədək uzanan layihə kimi başlamışdır. Biz layihəni Xəzər dənizinə qədər genişləndirdik və indi biz onu daha da, Xəzərin şərq sahilinə – Qazaxıstana qədər genişləndiririk.**

**Azərbaycan Prezidenti İlham Əliyevin ADA Universitetində "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda keçirilən beynəlxalq forumdakı çıxışından**
**Bakı, 23 aprel 2024-cü il**

**(əvvəli 1-ci səhifədə)**

Həmin keyfiyyətlərin hamısının daşıyıcısı olan lider bədxahlarımızın bütün badalaqlarına baxmayaraq, öz qətiyyəti ilə Haqq yolunda büdrəmədi. Azərbaycan Prezidenti noyabrın 12-də Ermənistan və Fransa istisna olmaqla az qala dünyanın bütün ölkələrinin müxtəlif səviyyəli nümayəndələrinin iştirakı ilə Bakıdan dörd qütbün hamısına körpü saldı.

Dünyanın hər yerindən gələn dövlət və hökumət rəhbərlərinin qarşılanması zamanı Azərbaycan Prezidenti İlham Əliyev ilə BMT-nin Baş katibi Antonio Quterreşin yanaşı dayanması bir qürurverici məqam idisə, Liderlər Sammitinin açılış mərasiminin keçirildiyi zalda Azərbaycanın Dövlət Bayrağının BMT Bayrağı ilə yanaşı "dayanması" başqa iftixar mənbəyi idi.

Yeri gəlmişkən, cənab Antonio Quterreşi Bakıya gətirən təyyarə paytaxtımızda yerə enəndə qocaman həmkarlarımızın biri dedi ki, ulu öndər Heydər Əliyev də düz otuz il əvvəl – 1994-cü il oktyabrın 31 də BMT-nin o zamankı Baş katibi, mərhum Butros Butros Qalinin müharibə şəraitində olan Azərbaycana gəlməsinə nail olmuşdu. Onda mən cavab verdim ki, mərhum Butros Qali Bakıya tək gəlmişdi, Antonio Quterreş isə BMT üzvü olan ölkələrin demək olar ki, hamısının nümayəndələri ilə birlikdə gəldi.

Liderlər Sammitinin keçirildiyi zalın ön sırasına nəzər salanda isə başqa bir qürurverici məqama şahidlik etdik. Ön sırada Türkiyə Cümhuriyyətinin, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Tacikistan və Macarıstan dövlətlərinin ali liderlərini görmək olduqca xoş idi. Çünki bu adamlar daim Azərbaycanın yanında olmaqla bərabər, qlobal istiləşməyə, iqlim dəyişmələrinə, təbii fəlakətlərə qarşı apardığımız mübarizələrdə də daim yanımızdadırlar.

Fəxrlə deyə bilərik ki, Türk dövlətləri ilə əməkdaşlığımız zamanı ekoloji problemlər həmişə gündəlikdə olub. Bəzi konkret faktları yada sala bilərik. Məsələn, 2021-ci il oktyabrın 12-də Azərbaycanla Türkiyə arasında ətraf mühitlə bağlı İş Proqramı imzalanmışdı. Həmin gün ölkəmizdə işgüzar səfərdə olan Türkiyə Respublikasının Ətraf mühit və şəhərsalma naziri Murat Kurumun rəhbərlik etdiyi nümayəndə heyəti ekologiya və təbii sərvətlər naziri Muxtar Babayevlə görüşdə ətraf mühitin qorunması, iqlim dəyişmələrinə təsirlərin azaldılması, tullantıların, o cümlədən plastik tullantıların düzgün idarə edilməsi, xüsusi mühafizə olunan təbiət əraziləri və digər qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmış, gələcək əməkdaşlığın perspektivləri müzakirə olunmuşdu. Həmçinin "Azərbaycan Respublikası hökuməti və Türkiyə Respublikası hökuməti arasında ətraf mühitin qorunması sahəsində əməkdaşlığa dair Saziş"in tətbiqi üzrə ikiillik İş Proqramı imzalanmışdı. Ekologiya və Təbii Sərvətlər Nazirliyindən verilən məlumata görə, həmin proqram tərəflərin istədiyi şəkildə icra olunmuşdur.




Yaxud iki il əvvəl oktyabrın 10-da Azərbaycanla Qazaxıstan arasında ətraf mühitin mühafizəsi sahəsində gələcək əməkdaşlıq perspektivləri müzakirə olunmuşdu. Belə ki, həmin gün ölkəmizdə işgüzar səfərdə olan Qazaxıstan Respublikasının ekologiya, geologiya və təbii sərvətlər naziri Serikkali Berekeşef ilə ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev arasında keçirilən görüşdə – "Xəzər dənizinin ətraf mühitinin mühafizəsi üzrə Çərçivə Konvensiyası"nın Tərəflər Konfransının 6-cı iclası çərçivəsində ətraf mühitin mühafizəsi sahəsində fikir mübadiləsi aparılmış, gələcək əməkdaşlıq perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunmuşdu.

Başqa bir fakt. Bu il avqustun 23-də Daşkənddə Azərbaycan Prezidenti İlham Əliyev və Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin iştirakı ilə imzalanan Azərbaycan – Özbəkistan sənədlərinin üçüncüsü "Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi ilə Özbəkistan Respublikasının Ekologiya, Ətraf Mühitin Mühafizəsi və İqlim Dəyişikliyi Nazirliyi yanında Turizm Komitəsi arasında 2024–2026-cı illər üzrə Fəaliyyət Planı"idi.

Bu istiqamətdə olan ən yeni məlumatlardan birində deyilir ki, Qırğızıstanın Ekologiya Nazirliyi COP29-u əməkdaşlığı genişləndirmək imkanı kimi qiymətləndirir. Bu qardaş ölkənin Ekologiya, Təbii Sərvətlər və Texniki Nəzarət Nazirliyinin iki gün əvvəl yaydığı məlumatında deyilir ki, Bakıda başlayan COP29 iqlim konfransının gündəliyinə iqlimin maliyyələşdirilməsi və iqlim dəyişikliyinə uyğunlaşma tədbirləri ilə bağlı məsələlər daxildir: "Konfrans dünyanın hər yerindən 70 mindən çox iştirakçını, o cümlədən 198 ölkənin nümayəndəsini və 150-yə yaxın pavilyonu cəlb edib. Konfransın əsas aspektlərindən biri iqlimin maliyyələşdirilməsinin müzakirəsi olacaq. Çünki ölkələr iqlim dəyişikliyi ilə mübarizə üçün əhəmiyyətli vəsaitə ehtiyac duyurlar. İqlim dəyişikliyinə qarşı həssaslığı yüksək olan ölkə kimi Qırğızıstan beynəlxalq dəstəyə arxalanır".

Daha çox qabardılmalı məqam isə ondan ibarətdir ki, Qırğızıstan hökuməti Bakıda keçirilən tədbirə öz milli töhfəsində aşağı karbon transformasiyası üçün əsas istiqamətləri müəyyən edib: "Qırğızıstan COP29-da iştiraka əməkdaşlığı genişləndirmək və iqlim üzrə öhdəliklərini yerinə yetirmək üçün zəruri olan iqlim maliyyəsinə çıxış əldə etmək imkanı kimi baxır".

Xatırladaq ki, bu gün (noyabrın 13-də) COP29 konfransı çərçivəsində Qırğızıstan, Azərbaycan və Monqolustanın "Yüksək səviyyəli dialoq: dağ gündəliyinin təşviqi və dağlar və iqlim dəyişikliyi mövzusunun aktuallaşdırılması" adlı birgə tədbiri təşkil olunacaq.

Təbii ki, Macarıstan da cənab Viktor Orbanın rəhbərliyi ilə özünəməxsus addımlar atır və xüsusən, Türk Dövlətləri Təşkilatının fəaliyyətində olduqca fəal və səmimi mövqe nümayiş etdirir. Elə bu dost ölkənin Azərbaycandakı səfiri Tamaş Torma da ADA Universitetində keçirilən "COP29 işığında kənd təsərrüfatında və su ehtiyatlarının idarə edilməsində dayanıqlılıq və innovasiyalar" adlı beynəlxalq simpoziumda öz dövlət başçısının mövqeyini ortaya qoyub: "İnnovativ kənd təsərrüfatı və qida sənayesi iqtisadi sarsıntılara və hazırkı istehsala birbaşa təsir göstərən təbii amillərə daha dayanıqlı olmalıdır".

Xatırladaq ki, ADA Universitetində Macarıstan, İtaliya və Qazaxıstan səfirliklərinin birgə təşkilatçılığı ilə "COP29 işığında kənd təsərrüfatında və su ehtiyatlarının idarə edilməsində dayanıqlılıq və innovasiyalar" adlı beynəlxalq simpozium keçirilmişdir.

Bu sətirləri Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın müasir dünyanın gündəliyində mühüm yer tutan məsələ haqqında söylədiyi fikirlərlə tamamlayırıq: "Ekoloji problemlər bəşəriyyətin ortaq problemidir və həlli əməkdaşlıq tələb edir".

Qardaş ölkənin dövlət başçısı əlavə edib ki, biz tullantıların idarə olunması, iqlimə uyğun texnologiya, enerji resurslarından istifadə, hava, su və torpağın keyfiyyətinin yaxşılaşdırılması, "Daha yaşıl, daha təmiz Türkiyə" üçün ölkə daxilində meşəsalma kampaniyaları və planlaşdırılan urbanizasiya ilə bağlı mühüm işləri sürətlə davam etdiririk: "Təbii sərvətlərin qorunması üçün həyata keçirilən layihələr, planlaşdırılan urbanizasiya səyləri, ağaclaşdırma kampaniyaları və ətraf mühitin çirklənməsinin qarşısının alınmasını dəstəkləyirik. "Türkiyə əsri"nin qurulması üçün qədim mədəniyyətimizdən ilham alan bir anlayışla ətraf mühitlə bağlı səylərimizi davam etdirəcəyik".

... Elə Azərbaycan da anamız Yer kürəsinin ən ağrılı problemlərinə əlac tapmaq üçün dünyanın bütün ölkələrinin təmsilçilərini öz paytaxtına cəm edəndə məhz qədim mədəniyyətimizə, adət-ənənələrimizə və milli təfəkkürümüzə istinad edirdi.

Bu tarixi və möhtəşəm tədbir münasibətilə xalqımızı və dövlətimizi təbrik edirik! Qalib gələcəkdir cahanda KAMAL!

***İttifaq MİRZƏBƏYLİ***

# COP29 Ermənistan üçün fürsət ola bilərdi




**(əvvəli 1-ci səhifədə)**

Erməni millətçiləri "Roma papasından daha artıq katolik"liyə girişdilər. Məlum idi ki, Qərb və Rusiya Osmanlı xofunu hələ də daşıyır. Bütün mövcudiyyətləri ərzində türklərdən heç bir pislik görməyən ermənilər isə bu xofu, bir növ, özününküləşdirdilər. Müvafiq olaraq, türklərə qarşı daha azğın vasitələrə əl atdılar. Tədricən azğınlıq ideoloji müstəviyə keçdi, ardınca isə pataloji xəstəliyə çevrildi. Həm də ona görə ki, imperializm ermənilər üçün hekayə də qondardı. Söhbət "dənizdən dənizə böyük Ermənistan" xülyasından gedir.

Ermənilər onlar üçün uydurulmuş yalanlara inanaraq və bu yalanlardan irəli gələn hərəkətləri gerçəkləşdirərək ömür sürdülər. Əslində, bir çox naiiliyyətlər qazanmağı da bacardılar. 1828–1830-cu illərdən başlayaraq yaşadığımız Cənubi Qafqaz coğrafiyasına köçürülmüşdülərsə, 1849-cu ildə onlar üçün ayrıca vilayət yaradılmışdısa, 1918-ci ildə qədim Azərbaycan, türk torpaqları hesabına dövlət əldə etmişdilər. Sovet hakimiyyəti illərində ərazilərini bir qədər də genişləndirmişdilər. Ən əsası isə onlar üçün Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılmışdı.

Ancaq ermənilər bunlarla kifayətlənmədilər və Qarabağ avantürasına baş vurdular. Əslində, Qarabağ ümumiləşdirilmiş hərəkat idi. Bütövlükdə, Azərbaycan ərazisinə iddia etdilər. Azərbaycanlıları Bakıya qədər qovmaq ehtirası ilə alışıb-yandılar. Torpaqlarımızı işğal etdilər. Halbuki bütün bunlar olmasaydı, rahat şəkildə yaşaya bilərdilər. Bunun üçün müəyyən bir ənənə də formalaşmışdı. Ənənəni isə özünün nəcib keyfiyyətləri, səmimiyyəti ilə məhz Azərbaycan xalqı yaratmışdı. Prezident İlham Əliyev çox doğru olaraq vurğulayır: "Biz onlara heç bir pislik etməmişik. Biz onlara çörək vermişdik. Onlar bizim torpağımızda yaşayıb, özləri üçün həyat qurmuşdular. Baxmayaraq ki, XIX əsrdə ancaq onlar buraya göndərilmişdi. Biz nə pislik etmişdik? Onlar bizə qarşı soyqırımı törətdilər – Xocalı soyqırımını. Otuz il ərzində bütün şəhər və kəndlərimizi dağıtdılar, məscidlərimizi təhqir etdilər, söküldülər. Bütün o bölgəni minalayıblar. Üç yüzdən çox insan artıq minaların qurbanı olub Azərbaycanda. Ona görə biz onların düşməni deyilik, onların düşməni onların arxasında duran və ondan sonra onların arxasından dovşan kimi, siçan kimi qaçan siyasətçilərdir. Mənim sözlərimə onlar yaxşı qulaq assınlar!"

Nəzərə alaq ki, istər Sovet hakimiyyəti illərində, istərsə də ondan əvvəl ermənilər Azərbaycanın digər ərazilərində də məskunlaşmışdılar, ən yüksək vəzifələrə irəli çəkilmişdilər, xüsusi imtiyazlar əldə etmişdilər. Bakının mərkəzindəki ən gözəl evlər onların idi. Daha nə istəyirdilər? – deyə soruşmayacağıq. Çünki istəklərini 1918-ci ilin Mart soyqırımında göstərmişdilər. Paytaxtımızı tamamilə özününküləşdirməyə girişərək türk-müsəlman əhaliyə qarşı olmazın qətliamlar törətmişdilər. Qarabağ və digər torpaqlarımızın otuz il ərzində işğalda qalması isə məhz həmin faciələri unutmağımızın, ümumən unutqanlığımızın nəticəsi idi. Amma yekunda düşmənçiliklərinin cəzasını verdik. İndi isə yalnız fürsət verə bilərik. İnsan kimi, dinc şəkildə, qonşu olaraq yaşamaq fürsəti. Böyük ölçüdə yanaşdıqda isə COP29-un özü də fürsət idi. Görünür, rəsmi İrəvan ondan yararlanacaq qətiyyətində deyil.

Bəli, biz indi ermənilərə fürsət veririk və buna görə də Prezident İlham Əliyev onlara əsl düşmənlərinin kimliyini anladır. Hesab edirik ki, dövlətimizin başçısının bu fikri ermənilərin diqqətini çəkməlidir. Onlar tarixə nəzər salıb düşünməlidirlər. İradə nümayiş etdirib düşmənçilik səhifəsini bağlamalıdırlar. Bağlayırlarmı? Əlbəttə ki, yox! Beynəlirəni yeritdikləri xəstə təxəyyülün təsirindən uzaq dayana bilmirlər. Qərb dairələri də bunu çox yaxşı anlayırlar.

200 illik erməni planının pozulması onlara möhkəm yer etdiyindən, əllərinə düşən hər imkandaca avantürizmi körükləməyə qalxırlar. Bunun nəticəsidir ki, hazırda Ermənistan Azərbaycanla sülhdən uzaqdır. Ölkə reallıq hissini itirib, dövlətimizin başçısının dili ilə desək, arxasında dovşan və siçan kimi dayanmış siyasətçilərə ümid bəsləyəcək qədər rəzil və miskin duruma düşüb.

Həqiqətən, ortada Ermənistan və erməni dövlətçiliyi adına son dərəcə acınacaqlı vəziyyət var. Tam əminliklə deyə bilərik ki, Ermənistanın nümayəndə heyətinin COP29-da iştirak etməməsi ölkənin düşdüyü həmin rəzil və miskin durumun nəticəsidir. Görünür, ölkə dovşan və siçan xislətli siyasətçilərin təsirindən qurtula bilmir. Digər tərəfdən, Ermənistan hansı üzlə COP29-a qatılsın? Otuz ilə yaxın müddətdə işğal gerçəkləşdirən ölkə həm də qəsb etdiyi ərazilərdəki ekosistemi məhv məruz qoyub. Onun iqlimdən, iqlim təhlükəsizliyindən danışmağa, yumşaq desək, heç bir haqqı yoxdur.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Avropanın tanınmış futbol klubları Bakıda bəyannamə imzalayacaqlar




**"Qarabağ" Futbol Klubu, Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Sazişinin Tərəflər Konfransının 29-cu Sessiyasında (COP29) futbol klublarının iqlim dəyişikliyi ilə mübarizədə birgə alyans yaratması təşəbbüsü ilə çıxış edib. Bu barədə klubun yaydığı açıqlamada bildirilib.**

Bu təşəbbüs COP29 Sədrliyi və BMT-nin İdman və İqlim Dəyişikliyi üzrə Departamenti (UNFCCC) tərəfindən dəstəklənib. Tədbir noyabrın 16-da saat 14:00-da Mavi zonanın "Nəsimi" zalında başlanacaq və Mavi zona üçün akkreditasiyadan keçən hər kəs üçün açıq olacaq.

Dünyanın, xüsusilə Avropanın iqlim dəyişikliyi və dayanıqlılıq sahəsində tanınmış və təcrübəli futbol klubları "Qarabağ"ın dəvətini qəbul edərək bu əhəmiyyətli toplantıda iştiraklarını təsdiqləyiblər. Tədbirdə iqlim dəyişikliyi ilə mübarizədə idmanın təsiri haqqında geniş müzakirələr aparılacaq və alyansda yer alan tərəfdaş klublar öz təcrübələrini paylaşacaqlar.

Ayın 16-da mavi zonada çıxış olacaq. Sözügedən tədbirə isə "Liverpul", "Tottenhem", "Atletiko", "Udineze" kimi klublar da qatılacaq.



# Bərpaolunan enerji dünyanı təhlükəsiz gələcəyə aparır

**İstixana qazlarının çox hissəsi elektrik enerjisindən və istilik almaq üçün qalıq yanacaqların yandırılmasından əmələ gəlir. Kömür, neft və qaz kimi qalıq yanacaqların payına istixana qazı emissiyalarının 75 faizindən çoxu və bütün karbon qazı emissiyalarının, təxminən, 90 faizi düşür. İqlim dəyişikliyinin təsirini minimuma endirmək üçün emissiyalar 2030-cu ilədək yarıya qədər azaldılmalı və 2050-ci ildə minimum həddə çatdırılmalıdır.**

Bu məqsədə nail olmaq üçün qalıq yanacaqlardan asılılığa son qoyulmalı və təmiz, əlçatan, əlverişli, davamlı və etibarlı bərpaolunan enerji mənbələrinə sərmayə qoyulmalıdır. Eyni zamanda, külək və günəş resurslarına və biokütlə, geotermal və su elektrik stansiyalarına önəm verilməlidir. Azərbaycan Pedaqoji Universitetinin kafedra müdiri, professor Əli Zalov söhbət zamanı bu barədə dedi:



– Hazırda qalıq yanacaqlar qlobal enerji istehsalının 70 faizindən çoxunu təşkil edir, lakin daha təmiz enerji mənbələri tədricən mövqeyini möhkəmləndirir. Hazırda elektrik enerjisinin, təxminən, 29 faizi bərpaolunan mənbələrdən əldə edilir. Ölkəmiz bərpaolunan enerjinin inkişaf potensialına malikdir. Külək və günəş resurslarına və biokütlə, geotermal və su elektrik stansiyaları baxımdan əhəmiyyətli perspektivlərə malikdir. Bu potensialın reallaşdırılması məqsədilə hökumət artıq bir çox layihələr həyata keçirir. Onların icrası ənənəvi mənbələrlə müqayisədə daha qısa müddətə başa gəlir, enerji generasiya gücünü daha tez əldə etmək üçün texniki həll təmin edir.

***– Bərpaolunan enerji mənbələri ətrafımızdadır. Ölkənin enerji təhlükəsizliyi siyasətinin təməl hədəflərindən biri bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsidir. Azərbaycanda bu enerji mənbələrinin texniki potensialı nə qədərdir?***

–Dünya əhalisinin, təqribən, 80 faizi qalıq yanacaqların xalis idxalçıları olan ölkələrdə yaşayır. Təxminən 6 milyard insan digər ölkələrin qalıq yanacaqlarından asılı olan və buna görə də geosiyasi şoklara və böhranlara qarşı həssasdır.

Qalıq yanacaqlardan fərqli olaraq, bərpaolunan enerji mənbələri bütün ölkələrdə mövcuddur və onların potensialından hələ də tam istifadə edilməyib. Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin hesablamalarına görə, 2050-ci ilə qədər dünya elektrik enerjisinin 90 faizi bərpaolunan mənbələrdən əldə edilə bilər. Ölkəmiz də bərpaolunan enerji mənbəyi ilə zəngindir. Onun texniki potensialı quruda 135, dənizdə 157 QVt-dır. "Yaşıl" enerji mənbələrinin iqtisadi potensialı isə 27 QVt -dır. O cümlədən, külək enerjisi üzrə 3 min, günəş enerjisi üzrə 23 min, bioenerji potensialı 380, dağ çaylarının potensialı 520 MVt həcmində qiymətləndirilir.

Ölkənin enerji təhlükəsizliyi siyasətinin təməl hədəflərindən biri də bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsidir. Ölkəmiz Paris Sazişi çərçivəsində özünün Milli Səviyyədə Müəyyən Edilmiş Töhfə sənədində qəbul edilmiş 1990-cı il baza ilindən başlayaraq 2030-cu ilədək istixana qazlarının emissiyasını 35 faiz azaltmağı öhdəsinə götürüb. Bu məqsədlə "yaşıl" enerjinin inkişafına yönəldilmiş investisiyaların həcmi 1 milyard dolları keçib.

***– Bərpaolunan enerji mənbələri ölkəmizə nə kimi faydalar gətirə bilər?***

– Bərpaolunan enerji mənbələri Azərbaycan üçün çox əhəmiyyətlidir. Ondan istifadə ətraf mühitin çirklənməsinin qarşısını alır. Kiçik ərazidə belə tətbiq imkanı olduğundan külək enerjisi digər enerji mənbələrindən daha əlverişli hesab olunur. Bu enerji mənbələri ənənəvi olaraq neft və qazın üstünlük təşkil etdiyi ölkələrdə texnoloji innovasiyalara imkanlar yaratmaqla iqtisadi dəyərin artımını təmin edir. Xarici ekspertlərin hesablamalarına görə, bu sahəyə yatırılan sərmayənin hər dolları qalıq yanacaq sənayesinə qoyulan investisiyadan 3 dəfə çox iş yeri yaradır.

Bundan başqa, enerji effektivliyinin davamlı artması ilə birlikdə bərpaolunan enerji mənbələrindən sürətli istifadə ölkə daxilində neft və qaz istehlakının azalmasına gətirib çıxarır. Bərpaolunan enerji idxaldan asılılıqdan çıxış yolu təqdim edərək ölkələrə iqtisadiyyatlarını diversifikasiya etməyə və onları qalıq yanacaq qiymətlərində gözlənilməz dəyişikliklərdən qorumağa imkan verir, eyni zamanda, inklüziv iqtisadi artıma, iş yerlərinin yaradılmasına və yoxsulluğun azaldılması səylərinə təkan verir.

***– Bərpaolunan enerji daha ucuzdur. Bu, enerjini hamı üçün, o cümlədən aşağı və orta gəlirli ölkələr üçün daha cəlbedici edir.***

– Bu gün bərpaolunan enerji, əslində, dünyanın əksər regionlarında ən ucuz enerji təchizatı variantıdır. Enerji texnologiyalarının qiymətləri sürətlə aşağı düşür. 2010–2023-cü illər arasında günəş enerjisinin dəyəri 87 faiz azalıb. Quruda və dənizdə külək enerjisinin dəyəri müvafiq olaraq 56 və 48 faiz ucuzlaşıb.

Qiymətlərin düşməsi bərpaolunan enerjini hamı üçün cəlbedici edir ki, bu da yeni elektrik enerjisinə əlavə tələbatın böyük hissəsini təşkil edir. Xərclərin aşağı düşdüyü bir mühitdə, çox güman ki, yaxın illərdə yeni elektrik enerjisi təchizatının əhəmiyyətli bir hissəsi aşağı karbonlu mənbələrdən gələcək.

2030-cu ilə qədər bərpaolunan mənbələrdən ucuz elektrik enerjisi dünya elektrik enerjisinin 65 faizini təmin edə bilər. Bu, 2050-ci ilə qədər enerji sektorunu 90 faiz karbonsuzlaşdıracaq, karbon emissiyalarını əhəmiyyətli dərəcədə azaldacaq və iqlim dəyişikliyinin azaldılmasına kömək edəcək. O iqtisadi cəhətdən də özünü doğruldur. Bu enerji həm də daha sağlam alternativdir.

Beləliklə, külək və günəş kimi təmiz enerji mənbələrinə keçid təkcə iqlim dəyişikliyi problemini deyil, həm də havanın çirklənməsi və əhalinin sağlamlığının pisləşməsi problemlərini həll etməyə kömək edir. Bundan əlavə, səmərəli və etibarlı bərpaolunan enerji texnologiyaları bazar şoklarına daha az həssas olan sistem yarada və şaxələndirilmiş enerji təchizatı vasitəsilə davamlılığı və enerji təhlükəsizliyini yaxşılaşdıra bilər.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

**COP29 iqlim dəyişikliyinə qarşı mübarizədə dünya ölkələrinin birgə səylərinin gücləndirilməsini nəzərdə tutsa da, ümumilikdə, həm də qlobal səviyyədə mədəni tədbir kimi nəzərdən keçirilə bilər. Bu gün daha çox iqtisadi inkişaf səviyyəsinə görə diqqət çəkən ölkələrdə iqlim problemlərinə münasibət daha fərqlidir. Bu da insanların mədəni və intellektual inkişafı ilə bağlıdır.**

# Milli-mədəni dəyərlər və ekoloji mədəniyyət




Cəmiyyətlərdə keyfiyyətli həyat tərzinin, yüksək mədəni səviyyənin yaşanılmasına indi daha çox üstünlük verilir. İnsan amili ilə bağlı yaranan ekoloji problemin həllində dünya ölkələrinin birgə səyinin gücləndirilməsi daha çox təşviq edilir. Bu mənada dünyada COP29 insanların dünyagörüşü, mədəni və intellektual səviyyəsi ilə bağlı bir tədbir kimi dəyərləndirilir.

29-cu iqlim konfransı çərçivəsində əsas müzakirələrdən biri də iqlim dəyişikliyinin səbəb olduğu çətinliklər və ziddiyyətlərdir. Məsələn, iqlim dəyişikliyi, temperaturun yüksəlməsi dünyada narahatlıq doğuran ciddi hadisələrə – daşqın, quraqlıq və qida təhlükəsizliyinə gətirib çıxarır. Bu səbəbdən də ölkələrarası münaqişə və ziddiyyətlər genişlənir. Belə ki, daha çox resurslar üzərində nəzarəti əldə etmək üçün siyasi rəqabət güclənir, ekoloji problemlər ölkələr arasında siyasi ziddiyyəti və münaqişələri şərtləndirir. Bu ziddiyyətlər mədəniyyətlərarası dialoqa da bir zərbə vurur.

Bütün bunlar nəzərə alınaraq COP29-un əsas müzakirə məsələlərindən biri də ekoloji problemlərə daha çox diqqət və maliyyə ayrılması ilə dünyada daha çox sülhü, barışı və millətlərarası dialoqu təşviq etməkdir. Ona görə də indiki iqlim konfransının əsas devizlərindən, şüarlarından biri də "COP atəşkəsi və sülh"dür. Bu isə dünyada mədəniyyət və mədəniyyətlərarası dialoq səviyyəsinin yüksəlməsinə, sivilzasiyalararası əlaqənin inkişafına təkan verir.

Qeyd edim ki, hazırda dünyadakı iqlim dəyişmələrinin yaratdığı ekoloji problemlər dünyada mədəni müxtəlifliyə, mədəni obyektlərə və mədəni irsə zərbə vurur. Başqa sözlə, dünyada hər il minlərlə insan ekoloji səbəblərlə bağlı məcburi yerdəyişmələrə, köçə, miqrasiyaya məruz qalır. Bununla da onların böyük mənada mədəni dəyərlərinə, mədəni irsinə, mədəni sərvətlərinə ciddi ziyan dəyir.

Dəniz və okean suyunun artması təhlükəsi bütün dövrlərdə aktualdır. Bu səbəbdən yaxın onilliklərdə dünya üzrə bir çox şəhərlərin su altında qalma təhükəsi gözlənilir. Sahil zonalarında yerləşən ərazilər hazırda bu təhlükə ilə üz-üzədir. Bu, inkişaf etməkdə olan kiçik ada dövlətlərinin problemi kimi daha çox diqqət çəkir, iqlim dəyişikliyi onların mədəni-dini, tarixi, coğrafi abidələrinə təhdid yaradır.

COP29-un Azərbaycanın təşəbbüsü ilə əsas müzakirə məsələlərindən biri də kiçik ada dövlətlərinə maliyyə yardımının ayrılması və artırılmasıdır. Çünki böyük dövlətlər ekologiyaya daha çox ziyan vurduqları halda, bu, kiçik dövlərdə aşağı səviyyədədir. Belə ki, böyük dövlətlərin sənaye və iqtisadiyyatı daha çox emissiyalar yaradır və ziyan və fəsadlar isə daha çox kiçik dövlətlərə dəyir.

Beləliklə, COP29 yalnız ekologiyanın çirklənməsi və ətraf aləmlə bağlı deyil. Bu, həm də insan sağlamlığı naminə mövcud problemlərin həllinə dəstək məqsədilə atılan addımdır. Məhz belə bir taleyüklü konfransın Azərbaycanda keçirilməsi haqlı olaraq ölkəmizin bir çox qlobal problemlərin həllinə töhfəsi kimi dəyərləndirilir. Eyni zamanda, bu sessiya həm "yaşıl" enerjiyə keçid üçün yeni imkanlar yaradır, həm də respublikamızın dünya miqyasında olan yüksək nüfuzunu göstərir. Bundan əlavə, COP29 iştirakçı ölkələr üçün yeni öhdəliklər götürmək və iqlim böhranını həll etmək üçün vacib istiqamətlər müəyyənləşdirir. Belə dünya əhəmiyyətli konfransa evsahibliyi edən Azərbaycan növbəti dəfə adını tarixin silinməz yaddaşına yazdırır.

***Aynur TURAN***

# Bakıda "yaşıl" sosial müdafiə müzakirəsi

**COP29 çərçivəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tərəfdaşlığı ilə keçiriləcək tədbirlərdə müxtəlif ölkələrin, beynəlxalq təşkilatların nümayəndələrinin iştirakı ilə insan inkişafı, yaşıl iş yerləri, hamı üçün layiqli əmək, sosial müdafiə mövzularında geniş müzakirələr aparılacaq. Bu barədə XQ-yə qurumun ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib.**




Qeyd edilib ki, noyabrın 18-də keçiriləcək "İqlimə dayanıqlı gələcək üçün insan inkişafına investisiya" üzrə yüksək səviyyəli görüş iqlim dəyişikliyinə davamlı gələcək üçün insan inkişafına sərmayə qoyuluşunda yaxşı təcrübələrin mübadiləsi, həmin sərmayələr üçün öhdəliklərin səfərbər edilməsi məqsədi daşıyacaq. Müzakirədə iqlimə dayanıqlı iqtisadiyyata keçidin əmək bazarına təsirləri, insan kapitalının daha yaxşı sosial müdafiə və təkmilləşdirilmiş bacarıqlar vasitəsilə iqlim hadisələrinə dayanıqlılığının artırılması, insan inkişafının gücləndirilməsində təhsil, səhiyyə, iş və bacarıqlar arasında sinerji yaratmağın dəyərləri nəzərdən keçiriləcək. Məhsuldar məşğulluq və hamı üçün layiqli əmək, sosial dəstək mexanizmləri, iqlimə davamlı gələcək üçün insan inkişafına sərmayələr qoyulması sahəsində səylərin səfərbər edilərək gücləndirilməsi prioritet mövzular kimi diqqətdə saxlanacaq.

Həmin gün təşkil olunacaq "Yaşıl iş yerləri və bacarıqlar" adlı yüksək səviyyəli dəyirmi masada yaşıl iş yerləri üçün işçi qüvvəsinin bacarıqlarının inkişaf etdirilməsi və məşğulluq, habelə həssas əhali qrupları üçün yaşıl iş yerlərinə çıxış imkanlarının yaradılması, bu sahələrdə əməkdaşlıq və daha önəmli sərmayə qoyuluşu əsas müzakirə predmeti olacaq. "İnsan inkişafının davamlılığının qorunması: iqlim maliyyəsinin sosial müdafiə üçün səfərbər edilməsi" adlı tədbirdə isə iqlim maliyyəsinin həssas qruplardan olan insanlara necə dəstək ola bilməsinə, sosial müdafiənin roluna dair müzakirələr aparılacaq.

Noyabrın 20–21-də isə "Hər kəsə ədalətli keçid üçün nəzəriyyədən təcrübəyə: regionlararası yüksək səviyyəli cənub–cənub siyasi dialoqu"nun keçirilməsi də nəzərdə tutulur. Tədbirdə iqlim dəyişmələri və ədalətli keçid zamanı yaşıl iş yerləri, dayanıqlı müəssisələr və dairəvi iqtisadiyyat yanaşmalarını təşviq etmək üçün iqlim planlarının gücləndirilməsi, bu sahədə bilik və təcrübə mübadilələrinin aparılması məsələləri əhatə olunacaq. Habelə maliyyə mexanizmləri və enerji sektorunda Beynəlxalq Əmək Təşkilatının ekoloji dayanıqlı iqtisadiyyata ədalətli keçidə dair təlimatlarının tətbiqi müzakirə ediləcək.

***Zərifə HÜSEYNOVA***
***XQ***

# BMT iqlim konfransında Azərbaycanı dəstəkləyir

**BMT-nin Baş katibi Antonio Quterreş Azərbaycan mediasına müsahibəsində iqlim dəyişikliyinin bütün dünyaya təsir etdiyini, bu il bəşəriyyətin ən isti il–quraqlıqlar, qasırğalar, dünyanın böyük hissələrini məhv edən daşqınlar ili yaşadığını vurğulayıb.**




Qlobal temperaturun sənaye inqilabından əvvəlki səviyyə olan 1,5 dərəcədən aşağı saxlanılması üçün emissiyaların ildə 9 faiz azaldılmasının zəruriliyini diqqətə çatdıran BMT-nin Baş katibi emissiyaların hələ də artdığını və 1,5 dərəcənin itirilmək təhlükəsi ilə üzləşildiyini bildirib. A.Quterreş daha sonra deyib: "Deməli, hər şeyi dəyişdirmək, kursu geri qaytarmaq üçün Azərbaycanda ambisiyalı, yüksək hədəflərə ehtiyac var. Gəlin unutmayaq ki, Azərbaycan iqlim dəyişikliyi ilə mübarizəyə əzmkarlıq göstərərək öz töhfələrini verir, milli fəaliyyət planını təqdim edir. Bu, çox mühüm bir fəaliyyətdir və digər ölkələrə bir nümunədir".

Baş katibin sözlərinə görə, COP-un uğur qazanması üçün zəruri fəaliyyətləri dəstəkləmək çox iddialı maliyyə məqsədinə nail olmaq deməkdir: "Çünki maliyyə məqsədi trilyonlarla dolların inkişaf etməkdə olan ölkələri dəstəkləməyə, 1,5 dərəcə səviyyəsini saxlamağa, iqlim dəyişikliyinin dramatik nəticələrindən təsirlənən insanlara dəstək olmağa imkan verəcək. İkincisi, karbon bazarlarına sahib olmaq üçün COP29-da aparılan danışıqlar BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası 6-cı maddə adlanan karbon bazarlarının şəffaf, təsirli olmasını müəyyənləşdirəcək".

# Əlil təşkilatları da COP gündəliyinə qoşulur

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Qeyri-Hökumət Təşkilatlarına Dövlət Agentliyinin maliyyə dəstəyi ilə Əlil Təşkilatları İttifaqı "Yaşıl Dünya Naminə İnklüzivlik" layihəsini həyata keçirir. Layihənin məqsədi əlillik mövzusunun COP gündəliyinə salınması və əlilliyi olan şəxslərin COP-larda iştirakının təmin olunmasını təşviq etməkdir. Layihənin beynəlxalq tərəfdaşı Ərəb Ölkələri Əlilliyi olan Şəxslərin Təşkilatları Birliyidir. Bu barədə XQ-yə Əlil Təşkilatları İttifaqından məlumat verilib.**



Bildirilib ki, layihənin fəaliyyət planı çərçivəsində Ərəb Ölkələri Əlilliyi olan Şəxslərin Təşkilatları Birliyi, Avropa Əlillik Forumu, Beynəlxalq Əlillik Alyansı, Mərkəzi Asiya ölkələrinin əlilliyi olan şəxslərin təşkilatları və Azərbaycan Əlil Təşkilatları İttifaqının üzvlərindən ibarət Koalisiya yaradılmışdır. Bu şəbəkənin müntəzəm görüşləri keçirilir. Həmin təşkilatların nümayəndələri üçün "İqlim dəyişmələrinin əlilliyə təsiri, əlilliyi olan şəxslərin və onların təşkilatlarının COP-larda iştirakçılığı" mövzusunda 2 günlük beynəlxalq təlim keçirilib.

Tədbirdə Əmək və Əhalinin Sosial Müdafiəsi, Ekologiya və Təbii Sərvətlər, Elm və Təhsil, Gənclər və İdman nazirliklərinin, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin, Qarabağ Dirçəliş Fondunun, Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsman), Hüquq və İnsan Hüquqları İnstitutunun, Sosial Tədqiqatlar Mərkəzinin, QHT-nın nümayəndələri gündəlikdə duran məsələ ilə bağlı çıxışlar edib təkliflərini veriblər.

Əlil Təşkilatları İttifaqının növbəti tədbiri noyabrın 20-də COP29 Yaşıl Zonada milli və beynəlxalq təşkilatların nümayəndələrinin iştirakı ilə keçiriləcək.

***Z.BAYRAM***
***XQ***

***Səhifəni hazırladılar:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***X Q***

# Yaşıl Zona – işgüzar iqlim müzakirələri məkanı

**COP29 Sədrliyi tərəfindən təşkil olunan, icmaların iştirakını, "yaşıl" keçid, texnoloji həllər və qlobal əməkdaşlığı ehtiva edən Yaşıl Zona Bakı Beynəlxalq İqlim Konfransının ilk günündən qapılarını ziyarətçilərin üzünə açıb. İqlim məsələləri ilə bağlı müxtəlif maraqlı tərəflərin – dövlət və özəl sektor təmsilçiləri, media, elm adamları, ekspertlər, yerli icmalar, vətəndaş cəmiyyəti institutları və rəsmi Mavi Zona nümayəndələrinin daxil olduğu geniş iştirakçı auditoriyasının bir araya gəldiyi bu məkanda dayanıqlılıq mövzusuna dair müzakirə keçirilib.**




COP29 Azərbaycan Əməliyyat Şirkətinin təşkilatçılığı ilə keçirilən ilk tədbir iqlim fəaliyyəti və karbon neytrallığı mövzusunda olub. "Xalis sıfır karbon emissiyası istiqamətində: COP29-un dayanıqlı gələcək naminə tərəfdaşlıqları" mövzusunda maraqlı tərəfləri bir araya gətirən məclisdə iqlim fəaliyyəti üzrə təşəbbüslər müzakirə edilib. COP29 Azərbaycan Əməliyyat Şirkətinin Koordinasiya Şurasının üzvü Ayan Nəcəf, iqlim dəyişmələri və "yaşıl" maliyyələşmə üzrə beynəlxalq təcrübəyə malik COP29-un dayanıqlılıq üzrə məsləhətçisi Marina Olşanskaya, "Təmiz Şəhər" ASC-nin İdarə Heyəti sədrinin müavini Sabit Zeyniyev, elektrik və elektron istehsal sənayesində zəngin iş təcrübəsi olan mütəxəssis Rüstəm Qasımov, Yeni Zelandiya xeyriyyəçisi və karbon bazarları üzrə ekspert Deyv Rozun iştirak etdikləri sessiyada tullantıların düzgün idarə edilməsi, bərpaolunan enerji həlləri, ekoloji cəhətdən təmiz texnologiyalar, istixana effekti yaradan qaz emissiyalarının azaldılması kimi mühüm mövzular müzakirə olunub.

Eyni zamanda, dayanıqlılıq təşəbbüslərinin ərsəyə gətirilməsi və tətbiqi istiqamətindəki ortaq səylər barədə tədbir iştirakçılarına ətraflı məlumat verilib. İştirakçılar, həmçinin COP29-un daha "yaşıl" və dayanıqlı resurslardan səmərəli şəkildə istifadə edən dayanıqlı tədbir etalonu kimi mövqeləndirilməsinə necə dəstək verməli barədə müzakirələri dinləyiblər.

Xatırladaq ki, COP29 konfransının ilk günündə fərqli şirkətlər tərəfindən keçirilən biomüxtəlifliyin qorunması, bərpaolunan enerji sahəsində innovasiyalar, iqlim ədaləti və dayanıqlılıq uğrunda mübarizədə nəsillərarası əməkdaşlıq, ali təhsilin iqlim dəyişmələrinə qarşı mübarizədə həlledici rolu və bu kimi digər mövzularla bağlı müzakirələr aparılıb, seminarlar təşkil olunub.

Yeri gəlmişkən, COP29 Yaşıl Zonasında növbəti günlərdə də fərqli formatlarda tədbirlərin keçirilməsi planlaşdırılıb. Belə ki, 22 noyabr tarixinədək COP29 rəsmi tərəfdaşları ilə əməkdaşlıq formatında bir sıra mövzularda panel diskussiyalar təşkil ediləcək. Həmin tədbirlərdə iqlim və dayanıqlılıq sahəsinin aparıcı ekspertləri və tanınmış simaları iştirak edəcəklər.

Yeri gəlmişkən, iqlim dəyişmələrinə qarşı mübarizə üzrə potensial həll variantlarının nümayişi, fikir və təcrübə mübadiləsi, eləcə də müzakirələr, panel sessiyaları, sərgilər və digər interaktiv tədbirlərin keçirilməsi üçün mərkəz rolunu oynayan Yaşıl Zonaya yerli və beynəlxalq ziyarətçi marağı anbaan artır. Təkcə onu qeyd etmək kifayətdir ki, noyabrın 9-da iTicket.az platforması vasitəsilə Yaşıl Zona ödənişsiz biletlərin paylanması prosesinə start verildiyi ilk 2 saat ərzində bu məkanı ziyarət etmək və qlobal iqlim fəaliyyətinin bir hissəsi olmaq istəyənlər tərəfindən 5 mindən çox bilet əldə olunub.

Müxtəlif sahələrdə dayanıqlılıq və iqlim fəaliyyətləri ilə bağlı bir sıra innovativ təşəbbüs və müzakirələr üçün dinamik platforma olan COP29 Yaşıl Zonasının proqramı iqlim dəyişmələri üzrə həllərin təşviqində gənclərin, eləcə də qadın və yerli icmaların daha geniş iştirakını ehtiva edir. Bununla yanaşı, Yaşıl Zonada fəaliyyət göstərən dinamik "Extreme Hangout" sahəsi 6–18 yaşlı uşaq və gənc eko-çempionlar üçün nəzərdə tutulmaqla yaradıcı proqram təklif edir. Burada keçiriləcək müxtəlif mədəniyyət tədbirləri, performans və interaktiv sessiyalar həm uşaqlar, həm də onların valideynləri üçün maraq kəsb edəcək.

Xatırladaq ki, Yaşıl Zona ödənişsiz biletlərini əldə edən ziyarətçilər tədbir məkanına rahat çatmaları üçün COP29 Azərbaycan Əməliyyat Şirkəti tərəfindən xüsusi marşrutlu avtobuslar ayrılıb. İştirakçılar rəqəmsal nəqliyyat xəritəsindən istifadə etməklə şəhərin müxtəlif strateji məkanlarında yerləşən nəqliyyat qovşaqlarından ən yaxınını seçərək uyğun marşrutu müəyyən edə bilərlər.

# "ACWA Power"in Azərbaycanda yeni yatırım imkanları

**COP29-un Yaşıl Zonasında fəaliyyət göstərən sərgi pavilyonunda stend ilə təmsil olunan Səudiyyə Ərəbistanının "ACWA Power" şirkətinin baş investisiya direktoru Tomas Brostrom jurnalistlərə açıqlamasında iqlim konfransının Bakı kimi gözəl bir şəhərdə keçirilməsindən məmnun olduğunu bildirib.**

Ötən il Dubayda reallaşan COP28-lə builki COP29-u müqayisə edən Tomas Brostrom vurğulayıb ki, regionda ilk dəfədir ki, belə genişmiqyaslı və olduqca əhəmiyyətli tədbir keçirilir: "Şirkətimizin Azərbaycanda fəaliyyət göstərməkdə maraqlı olması da təsadüfi deyil. Çünki bu məsələdə Azərbaycanla ikitərəfli dövlətlərarası əlaqələr böyük əhəmiyyətə malikdir. "Xızı–Abşeron" Külək Elektrik Stansiyasının inşasını reallaşdıran və bu sahədə böyük təcrübəsi olan, eləcə də səmərəli fəaliyyəti ilə dünyada tanınan "ACWA Power" şirkətinin indiyədək tikintisini gerçəkləşdirdiyi stansiyaların enerji istehsalının gücü 42 min meqavatdan çoxdur".



T.Brostromun sözlərinə görə, son illər Azərbaycanda, o cümlədən energetika sahəsində aparılan islahatlar, əlverişli investisiya iqlimi, xarici investisiyaların qorunması, bu ölkənin uğurlu inkişafı və sabitliyi də hər bir investor üçün önəmli rol oynayır. Beləliklə, böyük nüfuza malik "ACWA Power"nin Azərbaycanda fəaliyyətə başlaması–Xızı rayonunda 240 meqavat gücündə külək elektrik stansiyasının tikilməsi qərarını verməsi də məhz qeyd edilən sabitlik və cəlbedici investisiya amili ilə bağlıdır.

Qeyd edək ki, Azərbaycanın isə belə bir enerji layihəsinə xüsusi önəm verməsi təsadüfi deyil. Çünki respublikamız müstəqillik dövründə bu istiqamətdə bir sıra layihələri uğurla gerçəkləşdirib. Digər tərəfdən, ölkəmizin alternativ və bərpaolunan enerji potensialı ilə zəngin olması artıq öz təsdiqini tapıb. Belə ki, son tədqiqatlar Azərbaycanın quru ərazisində 27,5 min meqavat həcmində bərpaolunan enerji potensialının mövcudluğunu təsdiqləyib. Bunun isə 3 min meqavatı külək enerjisinin, 23 min meqavatı günəş enerjisinin, 380 meqavatı bioenerjinin, 520 meqavatı dağ çaylarının payına düşür. Xəzər dənizinin Azərbaycan sektorunda isə 157 qiqavatlıq külək enerjisi imkanları mövcuddur. Bütövlükdə isə, ölkəmizin bərpaolunan enerji sahəsində potensialı 200 qiqavata yaxın qiymətləndirilir.

## "AzərEnerji" və "Azərişıq" ASC-lər COP29-da geniş pavliyonla təmsil olunur



**COP29 çərçivəsində "AzərEnerji" və "Azərişıq" Yaşıl Zonada geniş pavliyonla təmsil olunurlar. Burada ziyarətçilərə maketlər və hazırlanan təqdimatlar üzərindən geniş məlumatlar verilir. O cümlədən tanıtım bükletləri və kataloqlar paylanılır.**

"AzərEnerji"nin dekarbonizasiya layihələrini gerçəkləşdirməsi, "Yaşıl enerji zonası" elan edilən Qarbağ və Şərqi Zəngəzurda 4 ildən az müddətdə ümumi gücü 270 meqavat olan 32 ədəd su elektrik stansiyasını tikməsi haqqında məlumatlar qonaqların geniş marağına səbəb olur.

"AzərEnerji" Yaşıl Zonada 6 tədbirin, 5 imza mərasiminin və tanınmış beynəlxalq enerji şirkətlərinin rəhbərləri ilə müxtəlif görüşlərin keçirilməsini planlaşdırıb.

## "NASA sakinləri"nin kosmosdan COP29-a müraciəti

*Astronavtlar həyəcanla bildiriblər ki, "planet hər saniyə dəyişir"*

**NASA astronavtları Soni Viliems və Nik Heik Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına beynəlxalq kosmik stansiyadan videobağlantı ilə müraciət ünvanlayıblar.**

Nasa "sakinləri" qeyd ediblər ki, Yerdə baş verən hadisələr, o cümlədən yanğınlar, qasırğalar planetin dəyişdiyini göstərir. "Planet hər saniyə dəyişir. Biz göydən baxanda bunu görürük", – deyə onlar bildiriblər. Bununla yanaşı, NASA nümayəndələri COP29-da iştirak edən bütün tərəflərə, o cümlədən Azərbaycana təşəkkür ediblər: "Biz planetin gözəlliyinin qorunması üçün səylərə görə təşəkkür edirik. Bizim partnyorlarımız və əməkdaşlarımız məlumatı sizinlə bölüşməyə hazırdır. Bizim missiyamız artan dəniz səviyyəsi, qaz emissiyaları və digər problemlərə kosmosdan baxaraq məlumatları Yerə ötürməkdir".

**COP29 çərçivəsində Cəbrayıl rayonunda 240 meqavat gücündə "Şəfəq" Günəş Elektrik Stansiyasının təməlqoyma mərasimi keçirilib. Bununla layihə fəal tikinti mərhələsinə qədəm qoyub. Bu barədə Energetika Nazirliyi məlumat yayıb.**

Bildirilib ki, sözügedən stansiya işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən ilk sənayemiqyaslı günəş enerjisi və ən böyük birbaşa xarici investisiya layihəsidir. Xatırladaq ki, "Şəfəq" GES layihəsi ilə bağlı icra müqaviləsi 2021-ci il iyunun 3-də Energetika Nazirliyi ilə BP şirkəti arasında imzalanıb.

Təməlqoyma mərasimində layihə üzrə "Azərbaycan Respublikası Hökuməti ilə "Şəfəq (Cəbrayıl) Solar Limited" şirkəti arasında investisiya müqaviləsi və "Azərbaycan Respublikası Energetika Nazirliyi ilə "Şəfəq (Cəbrayıl) Solar Limited" şirkəti arasında torpaq icarəsi müqaviləsi" imzalanıb. Sonra rəmzi olaraq stansiyanın ilk günəş panelinə imza atılıb.

Hesab olunur ki, bu, dərin inteqrasiya olunmuş layihədir və iqtisadi cəhətdən əsaslandırılıb, elektrik enerjisi hasil etmək üçün Səngəçal terminalında qazdan istifadəni azaltmağa imkan verəcək. Beləliklə, layihənin icrası həm milli iqtisadiyyata, həm də konsorsium üzvlərinin, o cümlədən SOCAR-ın dekarbonizasiya səylərinə mühüm töhfə verəcək.

Yeri gəlmişkən, dünyanın prioritet elan etdiyi "yaşıl keçid" platformasına mühüm töhfələr verməyi hədəfləyən BP şirkəti Xəzəryanı ölkələr içərisində ilk dəfə məhz Azərbaycanı seçməsi olduqca təqdirəlayiqdir. 2025-ci ilin sonlarında istismara verilməsi nəzərdə tutulan "Şəfəq" Günəş Elektrik Stansiyası postsovet məkanında

# "Şəfəq" Azərbaycana şəfəq saçacaq

*Bu günəş elektrik stansiyası azad olunmuş ərazilərdə ən böyük xarici yatırım layihəsidir*




ilk ən böyük günəş elektrik qurğusu kimi tarixə düşəcək. Qeyd etdiyimiz kimi, stansiyanın istehsal gücü 240 meqavat olacaq ki, bu da kifayət qədər böyük rəqəmdir. Eyni zamanda, Xəzərin coğrafi məkanında ən böyük, eləcə də dünya üzrə ilk beşliyə daxil olan Səngəçal terminalının elektrik təchizatı tam olaraq "yaşıl" enerji hesabına ödəniləcək.

Qeyd edək ki, "Şəfəq" Günəş Elektrik Stansiyasının səhmdarları BP, SOCAR və Azərbaycan İnvestisiya Şirkəti tərəfindən layihəyə, təxminən, 200 milyon ABŞ dolları məbləğində investisiya yatırılması nəzərdə tutulur.

"Şəfəq" layihəsi Cəbrayıl şəhərindən 5–10 kilometr məsafədə, təxminən, 802 hektarlıq ərazini əhatə edəcək. Ümumilikdə isə, layihəyə 240 MVtAC gücündəki PV günəş elektrik stansiyasının layihələndirməsi, təchizatı, mühəndislik, tikinti, quraşdırma, sınaq, istismara buraxma işləri və istismar mərhələsi daxildir. Layihə çərçivəsində tikinti işləri, təxminən, 18 ay ərzində davam edəcək.

Nazirliyin məlumatına görə, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl rayonunda inşa olunacaq "Şəfəq" GES-də il ərzində, təxminən, 500 milyon kilovat-saat elektrik enerjisi istehsalı gözlənilir ki, bu da illik 120–150 milyon kubmetr təbii qaza qənaət etmək və 260–330 min ton karbon emissiyasının azaldılması deməkdir.

Virtual enerji ötürülməsi mexanizmi çərçivəsində stansiyada istehsal olunacaq enerji Cəbrayılda mövcud elektrik şəbəkəsinə ötürüləcək və eyni miqdarda enerji Səngəçal terminalına veriləcək. Nəticədə, terminalın enerji ehtiyaclarını qarşılamaq üçün bərpaolunan enerjidən istifadə ediləcək. Bu da BP-nin Xəzər regionunda əməliyyat tullantılarının azaldılmasına dəstək verəcək.

BP-nin regional vitse-prezidenti Bəxtiyar Aslanbəyli isə bir qədər əvvəl mətbuata verdiyi açıqlamada bildirib ki, Cəbrayılda 240 meqavat gücündə günəş elektrik stansiyasının inşası layihəsi şirkətin regiondakı əməliyyatlarında ümumi emissiyaları 11 faiz azaldacaq. Onun sözlərinə

# Azərbaycanda nadir "yaşıl" enerji zonaları

**Qlobal Bərpa Olunan Enerji Alyansının baş direktoru Brüs Duqlas mediaya müsahibəsində 29-cu iqlim sessiyasının Azərbaycanda keçirilməsinin ölkəmizin "yaşıl" enerjiyə keçidində, eləcə də bərpaolunan enerjinin inkişafı məqsədlərinə nail olunmasında mühüm rol oynayacağına əminliyini bildirib.**



O, eyni zamanda, bu beynəlxalq konfransda Azərbaycanın gələcəkdə respublikamızın iqtisadi inkişafına dəstək olacaq "yaşıl" enerjinin Avropaya ixracı ilə bağlı layihənin həyata keçirilməsi üçün əhəmiyyətli tərəfdaşlar cəlb edə biləcək realllığını da diqqətə çatdırıb. B.Duqlasın sözlərinə görə, COP28 2030-cu ilə qədər bərpaolunan enerjini 3 dəfə, enerji səmərəliliyini 2 dəfə artırmaq və qalıq yanacaqları aradan qaldırmaq məqsədi daşıyan Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) konsensusu ilə tarixə düşüb. Bir il sonra COP29, COP28-dən COP30-a əhəmiyyətli aralıq addım kimi enerji keçidində mühüm mərhələyə çevrilir.

Belə konfranslar təkcə iqlim problemi ilə bağlı məlumatlılığı artırmaq məqsədi daşımır, həm də müzakirələr, məlumat, təcrübə mübadiləsi və gələcək üçün konkret fəaliyyətlərin razılaşdırılmasında maraqlı tərəfləri bir araya gətirməyi nəzərdə tutur. COP29 bu trayektoriyaya "maliyyə COPu" kimi uyğun gəlir. Qlobal Bərpa Olunan Enerji Alyansının baş direktoru ölkəmizin işğaldan azad edilmiş ərazilərinin "yaşıl" enerji zonasına çevrilməsi imkanlarını da yüksək qiymətləndirib: "Azərbaycanda və onun qonşu ölkələrində "yaşıl" enerji zonalarının inkişafı istiqamətində unikal imkanlar var.

Dünya Bankı Qrupunun təşəbbüsü olan "Enerji sektorunun idarə edilməsində Yardım Proqramı"na əsasən, Azərbaycanda dəniz küləyinin texniki potensialı 157 GVt təşkil edir. Bunun 35 GVt-ı dənizdə sabit layihələrə, 122 GVt isə dəniz küləyi layihələrinə uyğundur (dayazsulu hövzələrdə 35 GVt və dərinsulu hövzələrdə 122 GVt). Bu, böyük miqdarda quruda külək və günəş fotovoltaik potensialı ilə birləşərək ölkəni "yaşıl" enerji zonasına çevirir və yüksəkgərginlikli birbaşa cərəyan vasitəsilə digər bazarların enerji təchizatını təmin edir.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# COP29 dünya mediasının baş mövzusudur

## "Haber Global"




**"Haber Global" telekanalının baş meteoroloqu Bünyamin Sürmeli çıxışında dünyada iqlim dəyişikliyinin ciddi fəsadları ilə üzləşildiyini və bunun Azərbaycan, İspaniya, İtaliya kimi ölkələrin quraqlıq nümunəsində daha çox nəzərə çarpdığını bildirib.**

"Planet tarazlıq tapmağa çalışır, lakin antropogen fəaliyyətin nəticələri bu tarazlığı təhlükə altına alır", – deyə Sürmeli vurğulayıb. O, COP29-da daha təmiz istehsal texnologiyalarına keçid üçün maliyyələşdirmə və qanunvericilik tədbirləri ilə bağlı məsələlərin diqqətdə saxlanıldığını qeyd edib.

Telekanal COP29-da Türkiyə pavilyonunun açılışını da işıqlandırıb, ətraf mühit və iqlim dəyişikliyi naziri Murat Kurumun çıxışındakı məqamları tamaşaçılara xatırladıb. Eyni zamanda, Türkiyənin COP29-da iqlim dəyişikliyi ilə mübarizə üzrə strateji layihələri barədə fikirlərini diqqətə çatdırıb.

B.Sürmeli iqlim konfransının Azərbaycanla qardaşlıq əlaqələrinin möhkəmləndirilməsi üçün əhəmiyyətini vurğulayaraq, Türkiyənin tədbirdə "güclü komanda" ilə iştirak etdiyini söyləyib.

## "Cumhuriyet"




**Türkiyənin aparıcı media orqanlarından biri olan bu nəşr COP29 gündəliyi və əhəmiyyəti barədə oxuculara məlumat verib.**

Qəzetdə "yaşıl" texnologiyalar və iqlim dəyişikliyi ilə mübarizədə ayrı-ayrı dövlətlərin addımlarının müsbət qiymətləndirilməsinin zəruriliyi vurğulanıb.

Nəşr bu yay dünyada demək olar ki, hər gün qeydə alınan anomal istiləri xatırladaraq iqlim dəyişikliyinin insanların içməli suya çıxışını çətinləşdirdiyini, quraqlıqların artdığını və havanın keyfiyyətinin pisləşdiyini diqqətə çatdırıb.

İnkişaf etməkdə olan ölkələrə verilən iqlim maliyyələşdirilməsi vədlərinin tam yerinə yetirilməməsi baxımından 2024-cü ilin iqlim dəyişikliyi gündəliyi üçün heç də yaxşı il olmadığını vurğulayan "Cumhuriyet", eyni zamanda, "yaşıl" texnologiyaların və ayrı-ayrı ölkələrin səylərinin iqlim gündəliyinə müsbət töhfəsini də yüksək dəyərləndirib, COP29-u insan sağlamlığı və planetin gələcəyi baxımından ilin əsas ekoloji hadisəsi adlandırıb.

## "Petra"

**İordaniyanın "Petra" Dövlət İnformasiya Agentliyi "Bakının COP29 konfransına evsahibliyi etməsi "yaşıl" gələcəyə doğru bir addımdır" sərlövhəli məqalə yayımlayıb. Məqalədə Prezident İlham Əliyevin COP29-un iqlim böhranının praktik həlli yollarını asanlaşdırmaqla yanaşı, regional və beynəlxalq əməkdaşlığı gücləndirəcəyinə ümidvar olduğu vurğulanıb.**

Həmin əlamətdar hadisənin qlobal ictimaiyyətin iqlim dəyişikliyi ilə mübarizə səylərini gücləndirdiyi bir vaxta təsadüf etdiyi, konfransda innovativ təmiz enerji həllərinin nümayiş olunacağı, COP29-a evsahibliyi etməyin Azərbaycanın beynəlxalq imicini artırdığı, eyni zamanda, ölkəmizin Cənubi Qafqaz regionunda sülhə və sabitliyə sadiqliyi vurğulanıb, ekoloji tərəqqiyə nail olmaq üçün daha geniş missiyanın bir hissəsi kimi davamlı sülh və təhlükəsizliyə şərait yaratmaq səyləri qeyd edilib.

## "RTS"

**Serbiyanın "RTS" radio-televiziya kanalı Bakının evsahibliyi etdiyi BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının birinci günü ilə bağlı reportaj yayımlayıb.**




Reportajda Bakı Olimpiya Stadionunun iqlim konfransının əsas məkanı olduğu, 200-dək ölkənin tədbirdə dövlət və hökumət başçıları, ekspertlər və digər nümayəndələrlə təmsil edildiyi bildirilib. İştirakçıların karbon qazı emissiyalarının məhdudlaşdırılması və qlobal istiləşmə səviyyəsinin azaldılması yollarını müzakirə edəcəkləri vurğulanıb.

Serbiya Prezidenti Aleksandar Vuçiçin COP29-da iştirak etmək üçün ölkəmizə səfərə gəldiyi və Azərbaycan Prezidenti İlham Əliyevlə görüşdüyü də diqqətə çatdırılıb. Aleksandar Vuçiçin jurnalistlərə açıqlamasında Prezident İlham Əliyevlə görüşdə Serbiya və Azərbaycan arasında enerji sahəsində əməkdaşlığın təkmilləşdirilməsi barədə müzakirələrin aparıldığı, Serbiyanın ölkəmizlə birgə Niş şəhəri yaxınlığında qazla işləyən elektrik stansiyası tikmək niyyətində olduğu xatırladılıb, iki ölkə arasında ticarət mübadiləsinin əvvəlki illərlə müqayisədə 30 dəfə artdığı vurğulanıb.

Reportajda bildirilib ki, COP29-da əsas diqqət inkişaf etməkdə olan ölkələrin iqlim dəyişikliyinə uyğunlaşa bilməsi üçün maliyyə dəstəyinə və yeni resursların yaradılmasına yönələcək.



# Bakı konfransında mətbuat konfransı

**Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfrasının 29-cu Sessiyası (COP29) çərçivəsində "La Ruta del Clima": İtki və zərər, təzminat və iqlim borcunun həlli: insan hüquqları öhdəliyi xeyriyyəçilik deyil" mövzusunda mətbuat konfransı keçirilib.**

BMT-nin İqlim Dəyişikliyi üzrə xüsusi məruzəçisi Elisa Morgera bildirib ki, iqlim dəyişikliyi dünyanın aktual problemi olduğu kimi, onunla mübarizə də eyni aktuallığı qazanmalıdır. Onun sözlərinə görə, iqlim dəyişikliyi problemi ilə bütün planetimiz üzləşsə də, bundan ən çox zərər görən az inkişaf etmiş, inkişaf etməkdə olan və ya müstəmləkə şəraitində yaşayan dövlətlərdir. Bu problemi şərtləndirən əsas məsələnin atmosferə həddindən artıq dərəcədə karbon qazı emissiyalarının buraxılması ilə bağlı olduğunu vurğulayan xüsusi məruzəçi deyib ki, 1990-cı illərdən ötən dövr ərzində bu həcm icazə verilən normadan dəfələrlə yüksək olub. "Hesablamalarımız göstərir ki, planetimizin əhalisini iqlim dəyişikliyinin fəsadlarından qorumaq üçün trilyonlarla dollar vəsaitə ehtiyac var. COP29-un əsas məqsədi də məhz bu vəsaitin təmin edilməsidir", – deyə o əlavə edib.

İqlim dəyişikliyi ilə mübarizənin, bütövlükdə, hər bir dövlətin vəzifəsi olduğunu xatırladan Elisa Morgera daha sonra deyib: "İqlim fəlakətinin qarşısının alınması istiqamətində görülən tədbirlər nəticəsində biz təkcə bəşəriyyəti deyil, flora və faunanı da xilas edə bilərik. İqlim dəyişikliyi ilə mübarizədə nəticə əldə etmək üçün ilk növbədə siyasi iradə lazımdır. Hesab edirəm ki, bu amil təmin olunmadan heç bir halda uğurlu nəticəyə çatmaq mümkün olmayacaq. Biz bu qlobal təhlükəyə qarşı gücümüzü birləşdirmək üçün COP formatlı tədbirləri gözləməməliyik. İqlim dəyişikliyinə diqqət çəkmək üçün təkcə dövlətlərin deyil, vətəndaş cəmiyyətinin də səylərinin artırılmasına ehtiyac var. Burada əsas məqsəd, ilk növbədə, əhalininin iqlim probleminin hansı fəsadlara səbəb olacağı barədə məlumatlandırılmasıdır. Digər tərəfdən, qeyri-hökumət təşkilatları da hökumətlərin diqqətini bu problemin aktuallığına yönəltməlidir. Belə olmasa, hər hansı nəticəyə nail olmaq mümkün olmayacaq".

# "İqlim dəyişikliyi" müsabiqəsi finala yaxınlaşır

**Noyabrın 18-də COP29 çərçivəsində Sumqayıt Dövlət Universitetinin dəstəyi, Oksford Universitetinin "Said" Biznes Məktəbi və "Burjeel" holdinqin birgə təşkilatçılığı ilə "İqlim dəyişikliyi" müsabiqəsinin final mərhələsi təşkil olunacaq.**




Elm və Təhsil Nazirliyindən verilən məlumata görə, müsabiqənin final mərhələsində şagirdlərdən ibarət 5 komanda və 5 müəllim iştirak edəcək. Bu mərhələdə iştirakçıların təqdimatları münsiflər tərəfindən qiymətləndiriləcək. Qaliblərin mükafatlandırılması mərasimi isə Mavi zonada, Azərbaycan Milli Pavilyonunda təşkil olunacaq.

Qeyd edək ki, "İqlim dəyişikliyi" müsabiqəsinə 135-i Azərbaycandan olmaqla 58 ölkədən 1000-dən çox müraciət daxil olub.

# Qlobal iqlim böhranı dünyanı hərəkətə gətirib

**BMT-nin iqlim dəyişmələri üzrə icraçı katibi Saymon Stil Bakıda keçirilən İqlim dəyişmələri ilə mübarizə üzrə Dünya Liderlərinin Sammitinin açılışında qlobal iqlim böhranı ilə bağlı mövqedə əsaslı dəyişiklik baş verdiyini qeyd edib.**



BMT-nin iqlim dəyişmələri üzrə icraçı katibinin sözlərinə görə, əvvəllər iqlim dəyişikliyinə qarşı tədbirlərin əsasən, gələcək nəsillərin xilasına yönəldiyindən danışırdıq. Lakin iqlim böhranı ilə bağlı mövqedə əsaslı dəyişiklik baş verib. Çünki iqlim böhranı sürətlə iqtisadiyyatların "qatilinə" çevrilir.

Hazırda iqlim dəyişikliklərinin nəticələri bir çox ölkələrin ÜDM-nin 5 faizinə qədər azalmasına səbəb olur. İqlim problemi yaşayış xərcləri böhranıdır. Çünki iqlim fəlakətləri ev təsərrüfatlarının və müəssisələrin xərclərinin artmasına gətirib çıxarır.

O qeyd edib ki, bütün ölkələr daha cəsarətli tədbirlər görməzsə, iqlim dəyişikliyinin artan təsirləri inflyasiyanın partlayışına səbəb olacaq: "Pandemiyadan dərs aldıq. Milyardlarla insan kollektiv tədbirlər yetərincə tez qəbul edilmədiyi üçün əziyyət çəkdi. Təchizat zəncirləri dağıldı. Bu səhvi təkrarlamayaq. İqlim maliyyələşdirilməsi inflyasiyadan qlobal sığortadır. Əsas iqlim xərcləri ən böyük "xalq düşməni" olmalıdır. Bu məsələnin hökumətlərin gündəmində ilişib qalmasına icazə versək, bu, fəlakətlə nəticələnəcək. Amma məsələ yalnız iqtisadiyyatı və əhalini xilas etməkdən ibarət deyil".

# Gənc liderlərin "yaşıl" forumu

**Dünən COP29 çərçivəsində Gənc Məruzəçilər Akademiyası Gənc liderlər forumu keçirib. Forum müxtəlif yanaşmaların qarşılıqlı əlaqəsini, təsirlərini və bir-birini necə tamamladığını öyrənərək nəsillərarası ədaləti təmin etmək və qlobal iqlim siyasətini yönləndirmək üçün müzakirələr, təşviqat, lobbiçilik, birbaşa fəaliyyət və digər sahələrdə fəaliyyət göstərən ən önəmli gənc iqlim liderlərini bir araya gətirib.**




Tədbirdə ekoloji hüquq müdafiəçisi Enhun Biyambadorj, Fələstin gənclərini COP29-da təmsil edən Məhəmməd Usrof, BMT-nin İqlim və ətraf mühit üzrə gənclərinin nümayəndəsi Siqurt Seindal Krabbe, Uqandada fəaliyyət göstərən "Yaxşı həyat" beynəlxalq təşkilatının icraçı direktoru Denis Akampurura və digər gənclər çıxış edərək iqlim dəyişiklikləri ilə bağlı mübarizə yollarından danışıblar.

Müzakirədə gənclərin səslərinin harada, necə və hansı şəkildə ən təsirli formada eşitdirə biləcəyi və uğurla iqlim tədbirləri həyata keçirilməsi imkanları araşdırılıb. Diqqətə çatdırılıb ki, iqlim dəyişikliyinin qarşısını almaq və sıfır emissiyaya nail olmaq üçün gənclər xüsusi fəallıq göstərməli, beynəlxalq təşkilatlar və milli hökumətlər qarşısında bu problemi vaxtaşırı olaraq qaldırmalıdırlar.

Qeyd edək ki, COP29 Sədrliyi tərəfindən iqlim fəaliyyəti ilə dayanıqlı inkişaf məqsədləri arasında əlaqəni ehtiva edən, "yaşıl" enerji dəhlizləri, "yaşıl" enerji saxlancları, iqlim dayanıqlılığı üçün harmoniya, təmiz hidrogen, orqanik tullantılarda metanın azaldılması, "yaşıl" rəqəmsal fəaliyyət və digər mövzuları əhatə edən 14 təşəbbüs irəli sürülüb.




# Nazirlər "yaşıl şəhər nəqliyyatı" mövzusunu müzakirə edəcəklər

**Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin yaydığı məlumata görə, noyabrın 20-də Bakıda COP29 çərçivəsində keçiriləcək "Yaşıl şəhər nəqliyyatı" mövzusunda "dəyirmi masa" Urbanizasiya, Turizm və Nəqliyyat Gününə həsr ediləcək.**

Tədbir Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, COP29 Azərbaycan Əməliyyat Şirkəti, Beynəlxalq Nəqliyyat Forumu və BMT-nin aparıcı təsisatı olan Məskunlaşma Proqramının təşkilatçılığı ilə gerçəkləşəcək.

# Qaz şəbəkəsində "ağıllı texnologiyalar"

**Noyabrın 11-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə "Esyasoft" holdinq və "Presight" şirkətinin birgə müəssisəsi olan "IntelliGrid" arasında "AzəriQaz" İstehsalat Birliyinin bütün xidmət zonasında ən müasir ağıllı qaz şəbəkəsinin idarəetmə sisteminin tətbiqinə dair saziş imzalanıb. Bu barədə Dövlət Neft Şirkətinin rəsmi saytı məlumat yayıb.**




SOCAR-ın prezidenti Rövşən Nəcəf və "IntelliGrid" şirkətinin baş icraçı direktoru Bipin Çandranın imzaladıqları sənədə əsasən, qazpaylayıcı şəbəkəyə data analizini, proqnozlaşdırıcı texniki xidməti və real vaxt monitorinqini inteqrasiya etmək üçün "IntelliGrid"in süni intellekt imkanlarından istifadə ediləcək. Bu da qaz istehlakını optimallaşdırmağa, itkiləri minimuma endirməyə və ümumi əməliyyat səmərəliliyini artırmağa imkan verəcək.

İmzalanma mərasimində Azərbaycan Respublikasının iqtisadiyyat naziri, SOCAR-ın Müşahidə Şurasının sədri Mikayıl Cabbarov və "International Holding Company"nin (IHC) rəqəmsal transformasiya üzrə baş icraçı direktoru Ajay Hans Raj Bhatia iştirak ediblər.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Azərbaycanın COP29 təşəbbüsləri iqlim savaşına yeni yön verir

**Bu günlərdə dünyanın nəbzi Bakıda döyünür. 196 ölkədən təşrif buyuran qonaqlar planetimizin taleyini müzakirə etmək üçün Bakı Olimpiya Stadionuna toplaşıblar. XQ-nin əməkdaşları bu mötəbər tədbirdə iştirak edən əcnəbilərin, eləcə də turistlərin ölkəmiz və COP29 konfransı barədə fikirlərini öyrəniblər.**



Hindistanlı **Neha Takur** bir çox Avropa ölkələrinə səfər etdiklərini, Bakının isə tamamilə fərqli şəhər olduğunu vurğuladı:

– COP29 mühüm tədbirdir. Belə əhəmiyyətli tədbirləri, şübhəsiz, hər ölkədə keçirmirlər. Ölkənizlə bağlı məlumatları araşdırdıq və öyrəndik ki, Azərbaycan bir sıra nüfuzlu tədbirlərə evsahibliyi edib. Əminik ki, bu mötəbər tədbir də yüksək səviyyədə başa çatacaq. Bakıya növbəti dəfə turist kimi gəlməyi planlaşdırırıq.

Anası Neha Takur ilə qonaq gəlmiş **Uşliya** paytaxt Bakıya vurulduğunu dedi:

– 14 yaşım var. Azərbaycan haqqında o qədər də geniş məlumatım yox idi. Ölkənizə ilk dəfədir səfər edirik. Bakıda olmaqdan xüsusilə həzz aldıq. Burada özümüzü xaricdəki kimi hiss etmirik. Elə bil doğma məkandayıq. Hindistandan olmağımıza baxmayaraq, şəhərinizdə ət yeməklərini çox sevdik.

**Əhməd Al Dakheel** Səudiyyə Ərəbistanından gəlib. Ölkəmizdə bir neçə dəfə olub. Qəbələ və Quba ilə bağlı xoş xatirələri var:



– Azərbaycanın bəzi regionlarında olmuşam. Qəbələ və Quba çox xoşuma gəlib. Paytaxt Bakıya dostlarımla ilk dəfədir gəlirəm. Gözəl şəhərdir. Burada 10 gün qalmağı planlaşdırırıq. COP29 dünya əhəmiyyətli tədbirdir. O, ölkənin müasir inkişaf səviyyəsini, qlobal ekoloji problemlərin həllinə yönəlmiş səylərini nümayiş etdirmək üçün önəmli bir platformadır. Azərbaycanın müasir və inkişaf etmiş infrastrukturu xoş təsir bağışlayır.

Pakistanlı **Akeel Abbas** Bakıda **özünü çox təhlükəsiz hiss etdiyini dedi:**



– Bakıda ilk dəfədir oluram. Əvvəllər Şahdağa səfər etmişəm. O qədər xoş təəssüratlarım var ki... Bakı xüsusilə məni heyran etdi. Özümüzü qətiyyən yadelli kimi hiss etmirik. Hər yerdə kömək edən çoxlu könüllülər var. Azərbaycanda belə bir mötəbər tədbirin keçirilməsi, bütün ölkələrin bir araya gəlməsi və ətraf mühitlə bağlı müzakirələrin aparılması çox gözəldir. İqlim dəyişikliyi ilə mübarizə aparmaq hamımızın ümdə vəzifəsidir. Hazırda şəhərdə çoxlu turistlər var. Bir neçə gün ərzində hamı elə bil doğmalaşıb. Ümid edirik ki, bu nüfuzlu tədbir uğurla başa çatacaq.

**Mübarek Salahi** Bakı ilə tanışlıqdan məmnun qaldığını bildirdi:



– Binaların arxitekturası, parklar, xiyabanlar çox xoşuma gəldi. Dənizkənarı bulvarı başdan-başa gəzdim. Amma yorulmadım. Ecazkarlığı ilə insanı valeh edir. Mətbəxiniz çox xoşuma gəlir. Əvvəllər Azərbaycanda olsam da, Bakını görməmişdim. Azərbaycan nüfuzlu tədbirlərə yüksək səviyyədə evsahibliyi edir. İnanırıq ki, dünya ölkələri üçün mühüm əhəmiyyət daşıyan COP29 da yüksək səviyyədə başa çatacaq. Digər tərəfdən COP29-a evsahibliyi ölkənizin dünyaya daha da tanıdılması üçün çox böyük töhfədir.

Cənubi Koreyadan Bakıya təşrif buyurmuş **Jung Çihon** Bakının onu yaxşı mənada təəccübləndirdiyini vurğuladı:



– Bakının zəngin tarixi abidələri ilə tanışlıq bizdə xoş təəssürat yaratdı. Xüsusilə "Qız qalası", "Alov Qüllələri", teatrlar, kinoteatrlar, saraylar, konsert zalları, parklar, muzey və qoruqlar idman arenaları, habelə ibadət yerləri maraqlı və cəzbedicidir. Şəhərin arxitekturası məftunedicidir. İnsanlar səmimi və qonaqpərvərdirlər.

Honduraslı **Indiginous Miskito** paytaxtımızın gözəlləyindən və COP29-un önəmli rolundan danışdı:



– Bakı gözəl şəhərdir. Burada olmaq, gəzmək adama zövq verir. COP29-a gəlincə, iqlim məsələləri ilə bağlı müxtəlif maraqlı tərəflərin – dövlət və özəl sektor təmsilçiləri, media, elm adamları, ekspertlər, yerli icmalar, vətəndaş cəmiyyəti institutları və Mavi Zona nümayəndələrinin daxil olduğu geniş iştirakçı auditoriyasının bir araya gəldiyi məkandır. Bir çox problemlərin həlli yollarının tapılmasında hazırkı COP-un rolu böyükdür. Belə bir mötəbər tədbirə Bakının evsahibliyi etməsi onu göstərir ki, Azərbaycan ekologiyanın qorunması istiqamətində səylə çalışır və bütün dünyanın diqqətini buna yönəldir. Emissiyaların məhdudlaşdırılması, yaşıl texnologiyaların dəstəklənməsi və innovativ infrastrukturların inkişafı naminə ölkənizin gördüyü işlər təqdirəlayiqdir. Bütün bunları nəzərə alıb əminliklə deyə bilərəm ki, COP29-un ilk günləri Azərbaycan üçün qalibiyyətlə başa çatdı. Yaşıl işıq Bakıdadır.




Səudiyyə Ərəbistanı vətəndaşı **Almadeeni Yousaf** bildirdi ki, Bakı konfransı iqlim dəyişiklikləri ilə mübarizə və bu sahədə mövcud problemlərinin həlli istiqamətində dönüş nöqtəsi olacaq:



– Dünya dövlətləri Azərbaycan kimi iqlim təhlükəsizliyini milli təhlükəsizlik məsələsi kimi görməli və gələcək nəsilləri iqlim dəyişikliyinin təhlükəsindən qorumaq üçün beynəlxalq əməkdaşlığın vacibliyinə inandırmalıdır. Yəni hansısa dövlət özü üçün deyil, həm də qlobal təhlükəsizlik üçün hərəkət etməlidir. Bu baxımdan Azərbaycan nümunəsi təqdirəlayiqdir. Hazırda dünyanın diqqəti Azərbaycandadır. Düşünürəm ki, Bakı konfransı iqlim dəyişiklikləri ilə mübarizə və bu sahədə mövcud problemlərinin həlli istiqamətində dönüş nöqtəsi olacaq.

Bakı haqqında fikirlərim müsbətdir. Şəhərin maraqlı görüntüsü var. Burada xeyli gəzməli yerlər var. Bu günlər ərzində şəhərin maraqlı yerlərində oldum. Qız Qalası, İçərişəhər Bakının qədim tarixə malik olmasının göstəricisidir. Qala divarlarının əsrarəngiz görünüşü var. İçərişəhəri, dar küçələri xüsusilə sevdim.

Pakistanlı **Faisal Kausar** dedi ki, COP29-un uzunmüddətli turizmin inkişafı üçün katalizator olacaq:



– İqlim dəyişikliyi bütün dünya üçün vacib xəbərdarlıq olmalıdır. Çünki son bir neçə ildə iqlim dəyişikliyi səbəbindən təbii fəlakətlərlə üzləşdik. Əhali buna görə yaşadıqları əraziləri tərk etmək məcburiyyətində qalır. Qlobal ictimaiyyət bunun fərqində olmalıdır. Azərbaycanın COP29-a evsahibliyi etməsi dünya ölkələrinin, xalqlarının problemlərinə nə qədər ciddi yanaşmasını əyani şəkildə sübut edir. Azərbaycanla çox yaxın ölkələrik, qardaş ölkə kimi baxıram.

Bakı sürətlə inkişaf edir. Azərbaycan özünü cəlbedici turizm məkanı kimi bizə təqdim edir, təkcə zəngin tarix və mədəniyyət deyil, həm də heyrətamiz mənzərələr təqdim edir. Sizdə bir nizam var. Gələcəyə nikbin baxırsınız. Bu mənada COP29-un uzunmüddətli turizmin inkişafı üçün katalizator olacağına əminəm. Sizin ölkə haqqında məlumatım genişdir. Azərbaycanın 44 gün ərzində işğal olunmuş torpaqlarını azad etməsini, məcburi köçkünlərin öz ərazilərinə qayıtmasını da bilirəm.

*Leyla QURBANOVA,*
*Rizvan FİKRƏTOĞLU,*
*Vüsalə ƏLİYEVA,*
*Cavid QAÇAYEV (foto)*
*XQ*

# Bakının qonaqlara sənət töhfələri




**Noyabrın 22-dək ölkəmizdə keçirilən qlobal əhəmiyyətli tədbir – BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyası çərçivəsində qonaqların asudə vaxtının səmərəli təşkili məqsədilə Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə maraqlı bədii proqramlar – konsertlər, sərgilər və təqdimatlar keçirilir.**

Aylardan bəri gözlədiyimiz, Azərbaycanın tarixindəki ən böyük beynəlxalq tədbir sayılan COP-un 29-cu iclası artıq sürət toplayır. İqlim dəyişmələri ilə bağlı fikirlərini öyrənib topladığımız söz-sənət adamlarının maraqlı yanaşmalarının şahidi olduq.

**Yazıçı-publisistAqşin Yenisey:**

– Ekologiya dünya evidir. COP-da söhbətin evimizin təmizliyindən getdiyini anlamamaq üçün adamda əqli qüsur olmalıdır. İnsan yaşamaq uğrunda mübarizədə digər canlılardan fərqli olaraq, təbiətin şərtlərinə uyğunlaşmaq əvəzinə, onu öz şərtlərinə uyğunlaşdırmağa çalışır. Bu, təbiətə aqressiv müdaxilədir. İnsanlıq təbii gözəlliklərdən ayrılıb, gözəlləşdirilmiş zibilliklərdə eşələnir. Ovunu daşdan və ağacdan düzəltdiyi silahla ovlamağa başlayandan bəri insan təbiətə müdaxilə edir.

Elm adamları 2050-ci ildə 75 faiz insanın su qıtlığı ilə üzləşəcəyini proqnozlaşdırırlar. Türk bioloq Əli Dəmirsoy "2035. Sonun başlanğıcı" kitabında yazır ki, hər il dünya əhalisi 76 milyon nəfər artır. Su isə dünya yaranandan nə qədər idisə o qədərdir. Sözsüz ki, özünün deyil, bəşərin taleyini düşünən insanlar həmişə olub, bu gün də var. 1960-cı illərdən başlayaraq bu cür adamların yaratdığı "ekoloji sənət" deyə yeni bir janr da yaranıb. Ekotənqid deyə sosioloji bir sahə formalaşıb.

2000-ci illərdən başlayaraq təbiət və ətraf mühitlə bağlı "ekofantastika", "təbiət mərkəzli ədəbiyyat", "ətraf mühit mərkəzli ədəbiyyat", "ekoloji fantastika", "yaşıl fantastika" yönlü ədəbi əsərlər yazılıb. Azərbaycan ədəbiyyatında da təbiət mövzusu, oxucuların, xüsusilə də gənclərin ekoloji dünyagörüşünün formalaşması, onların təbiətə məhəbbət ruhunda tərbiyə olunması ilə bağlı geniş nümunələr var. Bunları COP-29 günlərində müxtəlif internet ünvanlarından tapıb oxumaq olar. Ədəbi əsərlər də, məsələn, poeziya da "depolanmış enerji" kimi insanlara təsir edir.

Bu yüzilliyin əvvəlində aparılan araşdırmalar sırasında Maykl Bennet və Devid Tiqin tərtib etdikləri "Şəhərlərin təbiəti: eko-tənqid və urbanistik ətraf mühit" toplusunun adını çəkə bilərik. Hazırda insan istismarı ilə imperiyaların müstəmləkə siyasəti arasındakı əlaqə kontekstində təbiətə vurulan ziyan ətraflı araşdırılır. Ümidvaram ki, COP29 dünya və Azərbaycan ədəbiyyatında özünün obrazlı ifadəsi ilə bədii bilgiləri daha da zənginləşdirəcək.

**Sosial Rifah və Tədqiqatlar İctimai Birliyinin sədri Əkrəm Bəydəmirli:**

– COP29 yalnız ekologiya və ətraf aləmlə bağlı deyil. Bu həm də insan sağlamlığı, mövcud problemlərin həllinə dəstək məqsədilə atılan addımdır. Məhz belə mötəbər tədbirin Azərbaycanda keçirilməsi ölkəmizin bir çox qlobal problemlərin həllinə töhfəsi olacaq.

Dünyada zəruri həyat mənbəyi olan yaşıl meşə örtüyünün zənginləşməsi və ümumilikdə, "yaşıl enerjiyə" keçidin sürətlənməsi birbaşa insan faktoru, sağlamlığı ilə bağlıdır. Çox müsbət haldır ki, ölkəmiz bütün resursları ilə bu prosesə dəstək verir. COP29 Konfransı iştirakçı ölkələr üçün yeni öhdəliklər götürmək və iqlim böhranını həll etmək üçün vacib istiqamətlər müəyyənləşdirəcək. Bu müstvidə həm də ölkəmizin zəngin təbii resursları, Qarabağda əhəmiyyətli quruculuq işləri ilə bağlı dünyaya məlumatlar çatdırılacaq. Hər bir əcnəbi qonaq Azərbaycanın postmüharibə dövründəki inkişaf modeli ilə, turizm potensialı, zəngin mədəniyyəti, milli musiqiləri, çeşidli mətbəxi ilə tanış olacaq. Bir sözlə, COP29 toplantısı həm də Azərbaycanın dünyaya yeni baxışını ortaya qoyacaq. Bu, eyni zamanda 30 illik işğal dövründə ermənilərin Azərbaycanın ekologiyasına, meşə fonduna, saysız-hesabsız tarixi abidələrimizə vurduğu ziyanla bağlı real görüntüləri, təkzibolunmaz faktları əcnəbilərə təqdim etmək imkanıdır.



**Tanınmış fotojurnalist Reza Deqati:**

– İlk növbədə deyim ki, Azərbaycanın COP29-a evsahibliyi etməsi bu ölkənin dünyaya daha da tanıdılması üçün çox böyük töhfədir. Konfrans iştirakçıları COP29-da Azərbaycanın gördüyü işlər, gələcək planları barədə məlumatlandırılır. Çox şadam ki, mən də bu tədbirin iştirakçısıyam. Yaşıl Zona mənim diqqətimi daha çox cəlb etdi. Mən memar gözü ilə baxaraq deyə bilərəm ki, bu zona Azərbaycana uyğun hazırlanıb. Artıq neçənci COP tədbirində iştirak edirəm. Bundan əvvəlki COP tədbirləri ilə müqayisədə düşünürəm ki, COP29 həlledici olacaq.

**Şair-tərcüməçi, esseist Qismət:**

– Eko-kritisizm (ekoloji tənqid) terminini ilk dəfə Vilyam Rukert işlədib. O, "Ədəbiyyat və ekologiya" adlı məşhur məqaləsində 70-ci illərdə mövcud olan eksperimental tənqid formalarını sadaladıqdan sonra yazır ki, yeni tənqid multifunksional, əhatəli olmalıdır. Alimin fikrincə, eko-sistemin qorunmasında təkcə ekoloqlar yox, oxucular, yazıçılar, tənqidçilər də məsuliyyət daşıyır. Günəş necə eko-sistemdə yenilənən enerji mənbəyi kimi bütün canlılara həyat verirsə, ədəbi əsərlər də, məsələn, poeziya da "depolanmış enerji" kimi insanlara təsir edir.

**AYB Sumqayıt bölməsinin rəhbəri, şair Gülnarə Cəmaləddin:**

– Dünyada ekoloji fkirlərin inkişaf tarixi əhalinin ətraf mühitə münasibəti ilə bir başlanıb. Bu özünü, ilk növbədə, şifahi xalq və yazılı ədəbiyyat nümunələrində göstərib. Ulu Nizami, Xaqani, Nəsimi və digər mütəfəkkirlərin əsərlərində ana təbiət hərtərəfli vəsf olunub. Unudulmaz Xalq şairimiz Məmməd Araz insanı təbiətin bir parçası sayırdı:

**Ürəkdə Ay doğur, Günəş də batır,**
**Göy qopur, ildırım çaxır ürəkdə.**
**Tufan da hayqırır, sükut da yatır,**
**Alov da, gürşad da yağır ürəkdə...**

Bəli, təbiətin kitabı hər zaman müdriklər tərəfindən oxunub, oxunur və oxunacaq. İnsan təbiətdən dərs almaqda davam edir. Qoy belə mötəbər tədbirlər çox olsun və faydalı iş əmsalı daim yüksəlsin.

*Hazırladı:*
*Ə.DOSTƏLİ*
*XQ*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 249 (30653) 13 noyabr 2024-cü il, çərşənbə

## İdman xəbərləri

### Güləşçimiz beynəlxalq turnirdə kəmər qazanıb

**Azərbaycan güləşçisi Murad Əhmədiyev Çinin Sian şəhərində keçirilmiş beynəlxalq turnirdə kəmər qazanıb.**



Azərbaycan Güləş Federasiyasından verilən məlumata görə, "Kəmər və yol" adlanan yarışda ölkəmizi yunan-Roma güləşi üzrə millinin 3 üzvü təmsil edib. Onlardan U-23 Avropa çempionu Murad Əhmədiyev bütün rəqiblərinə qalib gələrək kəmərə sahib çıxıb.

### Avropa çempionatında 5 medal

**Azərbaycanın kiçikyaşlı yeniyetmə taekvondoçuları Albaniyanın paytaxtı Tirana şəhərində keçirilmiş Avropa çempionatını 5 medalla başa vurublar.**



Azərbaycan Taekvondo Federasiyasından verilən məlumata görə, yarışda Dərya Hüseynova (24 kq) və Esmanur Azayeva (36 kq) qızıl, Şahin Abdullayev (48 kq) və Aliyə Məmmədli (+57 kq) gümüş, Yusif Zeynallı (52 kq) isə bürünc medal qazanıblar.

Avropa birinciliyində bütün rəqiblərini üstələyərək fəxri kürsünün ən yüksək pilləsinə qalxan D.Hüseynova 44 günlük Vətən müharibəsində Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına döyüşərək şəhid olmuş Elbrus Hüseynovun qızıdır.

***L.AZAD***
***XQ***

# "Tarixdən bu günümüzə süzülən tar sənəti"



**Balakəndə tanınmış sənətkar – tar ustası Aydın Tağıyevin 90 illik yubileyinə həsr edilmiş "Tarixdən bu günümüzə süzülən tar sənəti" adlı konfrans-konserti olub.**

Aydın Tağıyev 1935-ci ildə qədim Azərbaycan şəhəri olan İrəvanda doğulmuşdur. Ermənistanda yaşayan azərbaycanlılara qarşı artan təzyiqlər nəticəsində ailəsi ilə birlikdə 1948-ci ildə Balakən rayonunun Qullar kəndinə köçmüş və ömrünün



sonunadək burada yaşamış, 1992-ci ildə vəfat etmişdir. Ustad sənətkar ötən əsrin 60-cı illərinin ortalarından başlayaraq təqribən 25 il davamlı şəkildə gözəl tarlar hazırlamışdır.

Tarın milliyinin, Azərbaycana məxsusluğunun qorunub saxlanmasında xidmətləri olan Aydın Tağıyevin düzəltdiyi alətlər keyfiyyəti, özünəməxsusluğu, standartlara tam uyğun olması, gözəl səslənməsi ilə yaxın və uzaq ellərdə də məşhur idi. O, eyni zamanda, görkəmli musiqiçilərlə sıx əlaqədə olaraq bu alətin daha da təkmilləşməsinə əvəzsiz zəhmət sərf edib.

Yubiley mərasimini giriş sözü ilə Ü.Hacıbəyli adına BMA-nın elmi işlər üzrə prorektoru, Əməkdar incəsənət xadimi, professor Gülnaz Abdullazadə açdı. Sonra rayon icra hakimiyyətinin başçısı İslam Rzayev çıxış edərək, ölkəmizdə mədəniyyətə göstərilən dövlət qayğısından danışdı, Prezident İlham Əliyevin açılışında şəxsən iştirak etdiyi və hazırkı tədbirin də keçirildiyi Balakən Uşaq İncəsənət Məktəbinin gənc istedadlara böyük töhfə olduğunu vurğuladı. İcra başçısı Aydın Tağıyev kimi el sənətkarlarının xatirəsinin yaşadılması zərurətini qeyd etdi.

Görkəmli tarzən, Xalq artisti Ramiz Quliyev



milli musiqi alətimiz olan tarın təkmilləşdirilməsində Aydın Tağıyevin xidmətlərindən söz açdı. Xatırladı ki, dövrünün tanınmış tar ustaları, istehsalçıları və istehlakçıları hər yerdən Balakənə gələrək mütləq Aydın Tağıyevin düzəltdiyi musiqi alətlərinə üstünlük verərdilər. Kimi tar alar, kimi tarın əsas hissəsi olan çanağını sifariş edər, kimi də onun ustad məsləhətlərinə ehtiyac duyardı. Ramiz Quliyev təklif etdi ki, Balakəndə küçələrdən birinə Aydın Tağıyevin adı verilsin və məxsusi bir muzey yaradılsın ki, sənət mirası qorunub, gələcək nəsillərə çatdırılsın, ustad sənətkarın emalatxanası, iş alətləri, düzəldiyi tarlardan nümunələr, onunla bağlı şəkillər, məlumatlar bir yerə toplansın.

Qeyd edildi ki, sənətinin kamil bilicisi olan ustanın dəqiqliklə yonub düzəltdiyi tarlar bu gün də respublikamızın görkəmli musiqiçilərinin əllərində səslənir. Təəssüflər olsun ki, bu tarları keçmiş SSRİ ərazisində yaşamış ermənilər daim öz adlarına çıxmağa çalışıblar. Usta Aydın belə hadisələrin dönə-dönə şahidi olduğundan tarların çanaq hissəsində, pərdənin altına "Balakən rayonu, Aydın Tağıyev" sözləri yazılmış kağız parçası yapışdırmaq məcburiyyətində qalıb. Hətta Azərbaycanda həmin dövrdə tar sənəti ilə məşğul olan ermənilər Aydın Tağıyevin düzəltdiyi çanaqları əldə edərək özününküləşdirmək istəsələr də, görkəmli tar ustası öz sənəti, dəsti-xətti ilə tarın ən vacib hissəsi sayılan bu çanaqların ona məxsusluğunu sübuta yetirib və erməniləri ifşa edib.

Aydın Tağıyevin övladı – Balakən Uşaq İncəsənət Məktəbinin direktoru Arifə xanım Tağıyeva söz alaraq Prezident İlham Əliyevə ölkədə mədəniyyətin, musiqi sənətinin inkişafındakı dəstəyinə, direktoru olduğu bu gözəl tədris ocağının ərsəyə gətirilməsinə görə, Birinci vitse-prezident Mehriban Əliyevaya muğam və tar sənətinin dünyada tanıdılmasına göstərdiyi qayğıya görə minnətdarlıq duyğularını ifadə etdi. O, bütün qonaqlara isə atasının xatirəsini əziz tutduqları üçün təşəkkür etdi.

Sonra konfrans-konsertin proqramı təqdim olundu. BMA-nın professoru, sənətşünaslıq elmləri doktoru Abbasqulu Nəcəfzadə, fəlsəfə doktoru, professor, Əməkdar incəsənət xadimi Arif Əsədullayev, dosentlər Nuridə İsmayılzadə, Rauf Bəhmənli, Zümrüd Məmmədova, BMA-nın elmi-tədqiqat laboratoriyasının alət ustası Musa Yaqubov, ADMİU-nun müəllimi Səxavət Məmmədov, Bakı Xoreoqrafiya Akademiyasının elmi işlər üzrə prorektoru Həbibə Məmmədova, həmin təhsil ocağının müəllimi, Əməkdar artist Elçin Allahverdiyev ayrı-ayrı mövzularda maraqlı çıxışlar etdilər. Tar, kamança və fortepianonun müşayiəti ilə ifa olunan musiqi nömrələri gecəyə xüsusi rəng qatdı.

***İ.MUSAOĞLU,***
***XQ-nin bölgə müxbiri***

**Balakən**

## Danışan fotolar




## Sağlamlıq

# Hər fəslin öz yuxu qaydası



**Noyabrda günəşli havaların bitməyi orqanizmə mənfi təsir göstərir. Günəşin isti şüaları azaldıqca bədəndə baş verən dəyişiklik sağlamlığa təsir edir. İmmuniteti zəif olan insanlar isə fəsil dəyişkənliyini xüsusilə çətin keçirir.**

Çikaqodakı Şimal-Qərb Tibb Klinikasının yuxu üzrə tədqiqatçısı Dr. Fillis Zi vaxtında yatmağın immun sisteminin formalaşmasında çox böyük əhəmiyyəti olduğunu vurğulayıb. Alim bildirib ki, gündüzlərin qısalması, gecələrin uzanması orqanizmdə və zehində çətin qavranır, buna görə də nizamsız və ya 8 saat gecə yuxusunda olmayanlar vaxtaşırı müxtəlif yoluxucu və psixi xəstəliklərə tutulur.

Fillis Zi fəsil dəyişkənliyində havanın isti və ya soyuqluğundan asılı olmayaraq, səhər yuxudan duran kimi pəncərələri açıb evi havalandırmağı və ya gəzintiyə çıxmağı məsləhət görür. "Açıq havada nə qədər çox olsanız, bir o qədər yeni fəslə alışacaqsınız, əsəb sisteminiz nizamlanacaq və yuxu rejiminiz bərpa olunacaq", – deyə alim tövsiyə edib.

Eyni zamanda, Dr. Fillis Zi yatmazdan əvvəl yemək yeməməyi, su içməməyi və orqanizmi yuxuya alışdırmaq üçün meditasiya etməyi, yaxud da kitab oxumağı məsləhət görüb.

***Z.HÜSEYNLİ***
***XQ***



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, noyabrın 13-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, gün ərzində əsasən yağmursuz keçəcəyi gözlənilir.**

# Abşeronda yağmursuz, bölgələrdə yağış və duman

Lakin gecə və səhər bəzi yerlərdə az yağış yağacağı ehtimalı var. Şimal-şərq küləyi əsəcək, axşam cənub-şərq küləyi ilə əvəz olunacaq. Gecə 7-9°, gündüz 10-12° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 774 mm civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 60-65 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dağlıq ərazilərdə qara keçəcəyi, dolu düşəcəyi ehtimalı var. Axşam yağıntılar tədricən kəsiləcək. Arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 6-9°, gündüz 10-15° isti, dağlarda gecə 3-8° şaxta, gündüz 3° şaxtadan 2°-dək isti olacaq.

***Q.QASIMOV***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4001
SİFARİŞ 2620
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır 00:00